AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
MƏHƏMMƏD FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

**ADOLF BERJE**

# QAFQAZ VƏ AZƏRBAYCANDA MƏŞHUR OLAN ŞÜƏRANIN ƏŞARINA MƏCMUƏ ...

"Elm və təhsil"
Bakı – 2014

*Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu elmi şurasının 22 yanvar 2014-cü il tarixli 1 №-li iclasının qərarı ilə nəşr olunur.*

*Mətnin tərtibçisi, transfoneliterasiya edib nəşrə hazırlayanı və ön sözün müəllifi:*
**Əli Məmmədbağıroğlu,**
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

*Redaktorlar:* **Paşa Kərimov,** ***filologiya üzrə elmlər doktoru;***
**Arif Ramazanov**

*Rəyçi:* **Raqub Kərimov,** ***filologiya üzrə fəlsəfə doktoru***

**Adolf Berje. "Qafqaz və Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir ki, Adolf Berje sahibcənabının ehtimamilə mətbu olunubdur". Bakı: "Elm və təhsil", 2014, 184 səh.**

*Adolf Petroviç Berjenin 1867-ci ildə Almaniyanın Leypsiq şəhərində nəşr olunan, M.P.Vaqif, Q.Zakir və digər Azərbaycan şairlərinin şeirlərindən ibarət "Qafqaz və Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir ki, Adolf Berje sahibcənabının ehtimamilə mətbu olunubdur" toplusu xaricdə çap olunmuş ilk anadilli kitabımızdır. Bu toplunun meydana gəlməsi Azərbaycan çap kitabı tarixində əlamətdar bir hadisə olduğu kimi, ədəbiyyat tariximizin öyrənilməsi və tədqiqi sahəsində də mühüm əhəmiyyət kəsb edən qiymətli bir mənbədir. Əski əlifbadan transfoneliterasiya edilərək nəşr olunan bu kitab klassik ədəbiyyatsevərlər, tədqiqatçılar, həmçinin geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.*

**ISBN 5-8020-2084-9**

**© «Elm və təhsil», 2014**

# XARİCDƏ ÇAP OLUNMUŞ İLK ANADİLLİ KİTABIMIZ

Adolf Berjenin adı Azərbaycan ədəbiyyatı tarixində özünə müəyyən qədər yer almış, tanınan simalardan biridir. O, XIX əsrin ortalarında Qafqaza gəlişi ilə yerli xalqların, xüsusilə buradakı türklərin mədəni-ictimai həyatını, onların ədəbiyyatını dərindən öyrənmiş və Azərbaycanın görkəmli ədibləri ilə yaxınlıq etməsi onun həyatında unudulmaz izlər buraxmışdır. A.Berjenin adına dərsliklərdə, elmi tədqiqat əsərlərində tez-tez rast gəlsək də, bu şəxsin həyatı və fəaliyyəti barədə bilgi elmi ədəbiyyatımızda kifayət qədər öz əksini tapmamışdır.

Adolf Petroviç Berje 1828-ci il iyul ayının 28-də Sankt-Peterburq şəhərində, Fransadan Rusiyaya mühacirət etmiş zadəgan Pyotr Berjenin ailəsində anadan olmuşdur. Onun atası fransız, anası isə əslən Maklenburqdan olan alman qızı idi. Kiçik yaşlarından ata-anasını itirib, Sankt-Peterburqun Çapintini pansionunda tərbiyə almış A.Berje 1836-1838-ci illərdə Reformat məktəbində, daha sonra kimsəsizlər üçün olan Qatçina institutunda təhsil almışdır. O, 1847-ci ildə institutu bitirib, Peterburq Universitetinin Şərq fakültəsinə qəbul olmuşdur (1, 33-34).

1851-ci ildə Universiteti bitirən A.Berje ərəb, fars və türk dillərini dərindən öyrənmiş, daha sonra fəaliyyətini Qafqaz canişinliyində – M.S.Vorontsovun rəhbərliyi altında davam etdirmişdir. O, 1853-cü ildə İranı öyrənmək

məqsədilə Təbriz, Qəzvin, Tehran, İsfahan, Şiraz və b. şəhərlərə ezam olunur. Burada olduğu müddətdə o, türk və fars dilləri üzrə biliyini daha da təkmilləşdirmiş, yerli alimlərlə, ədiblərlə münasibətlər qurmuş, nadir əlyazmaları və çap kitabları əldə etməklə özünün gələcəkdə yazacağı yeni əsərləri üçün bəzi qeydlər aparmışdı. A.Berje 1854-cü ildə Tiflisə dönür, 1855-ci ildə Qafqaz canişini N.N.Muravyovun (1794-1866) tapşırığı ilə təkrar olaraq Qacarlar dövlətinə ezam edilir, orada olduğu müddətdə yaxın keçmişdə baş vermiş hadisələri (Qacar qoşununun Xivə yürüşü, babilər hərəkatı və 1850-1852-ci illərdə Zəncanda baş vermiş üsyanlar və s.) qələmə alaraq dərc olunmaq üçün "Qafqaz" qəzetinə göndərirdi. Bu zaman o, görkəmli Azərbaycan tarixçisi Mirzə Camal Cavanşirin "Qarabağ tarixi" əsərini rus dilinə tərcümə etmiş və nəşr etdirmişdi.

1864-cü ildə Qafqaz Arxeoqrafiya Komissiyasının sədri təyin olunandan sonra A.Berjenin elmi yaradıcılıq fəaliyyəti daha da genişlənir. Qeyd edək ki, "Arxeoqrafiya Komissyasının əsas işi Qafqaz canişinliyindəki sənədləri, birinci növbədə Qafqazın tarixinə aid olanları üzə çıxarıb tədqiq etmək idi... Komissiyanın üzvlüyünə isə Gürcüstanın tarixini yaxşı bilən tarixçi, etnoqraf N.B.Berzanov və müsəlman əyalətlərinin, ümumiyyətlə, Şərqi çox yaxşı tanıyan M.F.Axundzadə cəlb edilmişdi. Bunlar üçü birlikdə Arxeoqrafiya Komissiyasında illərcə birgə çalışmışlar. Onların gərgin əməyi nəticəsində Qafqazın XIX əsr tarixini əks etdirən "Arxeoqrafiya komissiyasının aktları" meydana çıxmışdır. "Aktlar"ın birinci cildinə daxil olan Şərqə aid sənədlər əsasən M.F.Axundov tərəfindən işlənmişdir" (2, 261-262). On bir cildlik



Qafqaz canişini baş idarəsi Arxeoqrafiya Komissiyasının 1864-cü ilədək topladığı materiallar əsasında tərtib olunmuş "Arxeoqrafiya komissiyasının aktları" (qısa olaraq "Aktlar" adlandırılır – Ə.M.) əsəri A.Berjenin rəhbərliyi altında (11-ci cild müəllifin vəfatından sonra) 1866-1886-cı illərdə Tiflisdə nəşr olunmuşdur. O eyni zamanda, Qafqaz və Şərq xalqlarının tarixinə, arxeologiyasına, ədəbiyyatına, etnoqrafiyasına, arxeoqrafiyasına və s. aid çoxlu sayda elmi-tədqiqat əsərlərinin müəllifidir. Bundan başqa onun "Çeçenstan və çeçenlər" (Tiflis, 1859), "Adıgey xalqının tarixi..." (Tiflis, 1861), "Qafqazın arxeologiyası" (Tiflis, 1874), həmçinin "N.N.Muravyov və onun Qafqazdakı hakimiyyət illəri – 1854-56" (1873), "Qafqazın etnoqrafik tədqiqi" (1879), "Gürcüstanın Rusiyaya birləşdirilməsi – 1799-1831" (1880) əsərləri çap olunmuşdur. Şərqin qədim tarixinə aid "1853-54-cü illərdə İrana səyahətdən hissələr" (Tiflis, 1854), "Müsəlman şiə farsların xalq bayramları və adət-ənənələri" ("Qafqaz təqvimi", 1856) və digər əsərləri də onun elmi araşdırmaları kimi yüksək qiymətləndirilir.

1871-ci il A.Berjenin həyatında xüsusilə əhəmiyyətli olmuşdur. Belə ki, həmin ildə Sankt-Peterburqda Arxeoqrafiya Komissiyasının 25 illiyi qeyd olunarkən A.Berje də yubileyə dəvət olunanlar arasında olmuşdur. Yubileydə dövrün tanınmış rus tarixçisi M.Semevski ilə yaxından tanış olması və sonralar aralarında dostluq münasibətlərinin yaranması A.Berjeyə "Russkaya starina" jurnalında məqalələrini nəşr etdirməyə geniş imkanlar yaratdı. A.Berje A.Qriboyedovun həyat və fəaliyyətinə aydınlıq gətirən materiallar əldə etdikcə Qacarlar şahzadəsi Xosrov Mirzə, habelə Fətəli şah və onun oğlanları haqqında

qiymətli sənədləri toplaya bilmişdi. O, sonralar həmin sənədlər əsasında yazmış olduğu məqaləni də "Russkaya starina" jurnalında nəşr etdirmişdi. A.Berjenin nəşr olunmuş sonuncu işi "Dağlıların Türkiyəyə köçürülməsi" adlı məqaləsidir. Bir sıra ziddiyyətli məqamları özündə ehtiva edən bu məqalənin süjet xətti həmin dövr üçün çox aktual idi (3, 663-665).

Həyatının son illərində A.Berje "Aktlar"ın 11-ci cildinin nəşrə hazırlanması ilə məşğul idi. Lakin toplunun axırıncı cildi onun sağlığında işıq üzü görmədi. Beləliklə, topladığı və nəşr etdirdiyi sənədlərlə Qafqaz xalqları, o cümlədən Azərbabaycan tarixi, mədəniyyəti, ədəbiyyatının tədqiqi baxımından qiymətli əsərlər qoyub getmiş Adolf Petroviç Berje 31 yanvar 1886-cı ildə Tiflisdə vəfat etmişdir.

* * *

Adolf Berjeni ən çox Azərbaycanla bağlayan onun Tiflisdə və dəfələrlə Qafqazın digər şəhərlərində ezamiyyətdə olarkən azərbaycanlı şairlərin şeirlərini toplaması və həmin əsərləri Almaniyaya apararaq, Leypsiq şəhərində 1867-ci ildə çap etdirdiyi məşhur məcmuədir. O zamandan bəri tədqiqatçının bu məcmuəsi mütəxəssislərin, oxucuların daim diqqət mərkəzində olsa da, onun əlifba islahatından sonra (1929-ci il yeni əlifbaya keçid nəzərdə tutulur – Ə.M.) nə kiril, nə də son dövrlər istifadə etdiyimiz latın qrafikalı yeni əlifbada nəşri reallaşmışdır. Azərbaycan şairlərindən Molla Pənah Vaqif, Qasım bəy Zakir, Ağa Məsih Şirvani, Baba bəy Şakir, Aşıq Pəri və XIX yüzillikdə yaşamış bir sıra başqa şairlərin şeirləri daxil edilən toplu "Qafqaz və Azərbaycanda məşhur olan şüəranın



əşarına məcmuədir ki, Adolf Berje sahibcənabının ehtimamilə mətbu olunubdur" adlanır.

A.Berjenin "Qafqaz və Azərbaycanda məşhur olan şüəranın əşarma məcmuə..." və yaxud qısa şəkildə "Məcmuə" adlandıracağımız bu kitabının ədəbiyyat tariximizdə oynadığı roluna nəzər salmazdan əvvəl, onun bir çap kitabı kimi meydana gəlməsinin əhəmiyyətinə, Azərbaycan kitabı tarixində tutduğu mövqeyə diqqət yetirək.

Azərbaycan əlyazma kitabı kimi, əski çap kitabımızın da tarixi qədimdir. XV yüzilliyin ortalarında Almaniyada İoahan Qutenberq ilk dəfə çap dəzgahını yaradandan təxminən 150 il sonra, 1594-cü ildə Romanın Ferdinand Mediçi mətbəəsində görkəmli Azərbaycan alimi Nəsirəddin Tusinin (1201-1274) qədim yunan alimi Evklidin "Başlanğıc" əsərinin şərhinə həsr etdiyi "Təhriri-Öqlidis" elmi əsəri çap olunmuşdur. Bu əsərin nəşri ilə Azərbaycan çap kitabının tarixi başlanmışdır. N.Tusinin elmi əsərlərinə Avropada tələbat böyük olduğundan, çox keçmir ki, əsər 1598-ci ildə təkrar olaraq yenə Romada, 1657-ci ildə isə Londonda latın dilində nəşr olunur (4, 16).

Digər bir əski çap kitabımız isə 1604-cü ildə İspaniyanın o zamankı paytaxtı Valyadolidə nəşr olunmuşdur. Bu, Səfəvilər dövləti tərəfindən Avropaya göndərilmiş diplomatik nümayəndə heyətinin üzvü Oruc bəy Bayatın Səfəvilər tarixinə həsr olunmuş kitabıdır. Çap olunan əsər "Oruc bəy Bayat İranlının kitabı" adlanır (5). Qeyd edək ki, 1599-cu ildə I Şah Abbas hakimiyyəti illərində Avropa ölkələri ilə diplomatik əlaqələri genişləndirmək üçün Hüseynəli bəyin rəhbərliyi və onunla birgə yola düşən dörd katib, on beş xidmətçi, beş tərcüməçi, iki portuqaliyalı din xadimi və ingilis diplomat Antoni Şerlidən ibarət nüma-

yəndə heyəti uzun vaxt keçəndən və üç ölkə rəsmiləri ilə görüşəndən sonra, axırda yalnız üç nəfər qalmaqla 1601-ci ildə İspaniyaya gəlib çıxırlar. Nümayəndə heyətinin katiblərindən biri, xristianlığı qəbul edərək Don Xuan (Don Juan) adını alan Oruc bəy ömrünün sonunadək (1606) burada qalaraq İspaniya kralı III Filippin sarayında çalışır. Onun yazmış olduğu və ispan dilində çap olunan kitabı avropalılar üçün Şərq tarixindən bəhs edən ilk kitab idi.

Azərbaycan çap kitabının növbəti nümunələri uzun fasilədən sonra – XIX yüzilliyin əvvəllərində meydana gəlmişdir. Öncə azərbaycanlı müəllif Əli Əzimabadi və Mirhüseyn Cünfurinin 1813-cü ildə Hindistanın Kəlküttə şəhərində "Şərhi-İskəndərnameyi-Nizami Gəncəvi" əsəri çap olunmuşdur (6, 3). Azərbaycanda isə ilk çap kitabı 1818-ci ilin iyul ayında Mirzə İsa Qaimməqamın "Cihadiyyə" adlı kitabı ilə meydana gəlmişdir. Kitabın naşiri Məhəmmədəli bin Hacı Məhəmməd Hüseyn əl-Aştiyani olmuşdur. Bu əsərin çap olunması ilə Azərbaycanda çapçılıq sənətinin əsası qoyulmuşdur. Ancaq burada bir məsələyə aydınlıq gətirilməlidir ki, Mirzə İsa Qaimməqamın adı çəkilən əsərinin bəzi mənbələrdə ilk dəfə Mirzə Saleh Şirazinin Londonda təhsil alıb geri dönərkən gətirdiyi dəzgahda çap olunduğu yazılır. Qeyd edək ki, bu əsər Mirzə Saleh Təbrizə gələnədək (1819-cu ilin payızı) artıq bir dəfə 1818-ci ildə çap olunmuşdu. Xatırladaq ki, Mirzə Saleh Şirazi və beş nəfər gənc şahzadə Abbas Mirzənin təşəbbüsü ilə 1815-1819-cu illərdə İngiltərədə təhsil alıblar. Onların Londondan geri dönüşü 1819-cu ilin oktyabr-noyabr aylarına təsadüf edir. Məhz, "Cihadiyyə"nin ikinci nəşri həmin ilin sonlarında – noyabr-dekabr aylarında Mirzə Salehin dönüşündən sonra baş tutmuşdur. Bu kitab



fars dilində olmaqla, Çar Rusiyası ilə Qacarlar hakimiyyəti arasında gedən və Azərbaycanın iki yerə parçalanması ilə nəticələnən müharibədən bəhs edir. Beləliklə, Azərbaycanda çapçılıq işinin əsası 1818-ci ildə fars dilində nəşr olunan "Cihadiyyə" kitabı ilə qoyulmuş, bir il sonra isə (1819) məşhur Azərbaycan alimi Mirzə Zeynalabdin Təbrizi tərəfindən əsər təkrar nəşr olunmuşdur.

Təbriz Azərbaycan şəhərləri arasında, həmçinin bugünkü İran İslam Respublikası ərazisində çapçılıq işinin meydana gəldiyi ilk şəhər hesab edilir. Azərbaycan mədəniyyəti tarixində ən önəmli hadisələrdən biri də budur ki, böyük Azərbaycan şairi Məhəmməd Füzulinin "Leyli və Məcnun" poemasının burada ilk dəfə nəşri ilə anadilli çap sənətimiz meydana gəlmişdir. Həmin nəşrin hansı mətbəədə basılması bəlli olmasa da, bu gün AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan nüsxənin (7) sonundakı katib kolofonundan aydın olur ki, o, Axund Molla Abdulla əl-Mürtəzəvinin xahişi ilə çap olunmaq üçün h.1234 (m.1819)-cü ildə xəttat Yusif əl-Musəvi tərəfindən yazılaraq, litoqrafiya üsulu ilə çap olunmuşdur. Beləliklə, 1819-cu ildə Təbriz şəhərində böyük şairimiz Füzulinin məşhur "Leyli və Məcnun" əsərinin nəşr olunması ilə Azərbaycanda ilk anadilli çap kitabı meydana gəlmişdir.

XIX yüzillikdə Çar Rusiyasının bir sıra şəhərlərində – Kazanda görkəmli alim Mirzə Kazım bəyin "Türk-tatar dilinin qrammatikası" (1839), Tiflisdə Abbasqulu ağa Bakıxanovun "Qanuni-Qüdsi" əsəri fars (1831) və rus dilində (1841), Varşavada İsmayıl bəy Qutqaşınlının "Rəşid bəy və Səadət xanım" hekayəsi fransız dilində (1835), yenə Tiflisdə Mirzə Fətəli Axundzadənin "Komediyaları"

(1857) rus, 2 il sonra (1859) Azərbaycan türk dilində nəşr olunmuşdu. Ancaq adı sadalanan elmi və bədii əsərlər əsasən ərəb, fars, rus və fransız dillərində idi. Əgər Azərbaycanda və ona yaxın regionlarda ana dilimizdə çap olunan bir sıra kitabları nəzərə almasaq, Adolf Berjenin "Qafqaz və Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuə ..." kitabının üstün cəhətini onda görərik ki, o, digər çap kitablarından fərqli olaraq Azərbaycandan xeyli uzaqda – Almaniyada, ana dilində xaricdə nəşr olunan ilk çap kitabı kimi kitab tariximizə düşmüşdür. Xatırladaq ki, bu kitab çap olunan ərəfədə Azərbaycanda kitab nəşr etdirmək heç də asan olmamışdır. Görkəmli mütəfəkkir, milli mətbuatımızın yaradıcısı Həsən bəy Zərdabi (1842-1907) həmin illərdə "Əkinçi" qəzetini çap etdirmək üçün Bakıda ərəb qrafikalı əski şriftləri əldə edə bilməyib, şrift dalınca İstanbula getdiyi bir vaxtda, belə məlum olur ki, Adolf Berje Almaniyada Azərbaycan türkcəsində çox asanlıqla kitab nəşr edə bilmişdir. Görünür, çap sənətinin vətənində istənilən əlifbaya aid şrifti hazırlayıb, əldə etmək həmin illərdə o qədər də çətin olmamışdır.

"Qafqaz və Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuə ..." kitabımn paleoqrafik xüsusiyyətləri haqqında aşağıdakıları demək olar. Kitab kiçik formatlı olub 13x17,5 sm ölçüsündədir. Toplunun titul vərəqində əsərin adı, nəşr olunduğu şəhər və tarixi əks etdirən ünvan qoşa xətlə çəkilərək haşiyələnmiş elliptik formanın içərisindədir. 2-ci və 3-cü səhifələrin yuxarı hissəsinə nəbati naxışlarla frontospis çəkilmiş və bəzəyin boş sahəsində "Əşari-şüərayi-Azərbaycan" yazılmışdır. Kitabın bütün səhifələrində mətn qırmızı rəngli ornamentli çərçivəyə alınmışdır. Şeirlər janrından asılı olaraq bir və iki sütun-



dadır. "Məcmuə" 136 səhifədən ibarət olub, onun 128 səhifəsinə şeirlər, üç səhifəsinə mətndə getmiş səhvlərlə bağlı düzəlişlər, iki səhifə lakun olaraq boş buraxılmış, nəhayət sonda üç səhifədə isə şeirlərdəki toponimlər, antroponimlər və izahına ehtiyac olan bəzi sözlərlə bağlı alman dilində şərhlər ("Anmerkungen") verilmişdir.

* * *

"Qafqaz və Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuə ..." toplusuna əsasən Molla Pənah Vaqif, Qasım bəy Zakir və XIX yüzillikdə yaşamış bir sıra şairlərin, ümumilikdə 112 şeiri daxil edilmişdir. Bunlardan 56-ı M.P.Vaqifə, 41-i Q.Zakirə, qalan 15 şeir isə digər müəlliflərdən Məhəmməd bəy, Mirzə Mehdi, Ağa Məsih Şirvani, Aşıq Qənbər, Valeh təxəllüslü Kərbəlayi Səfi, Baba bəy Şakir, Cəfərqulu xan, Mirzə Fətəli Axundzadə, Aşıq Pəri və Mirzəcan Mədətova məxsusdur.

Müəllifinə və janrına görə şeirlər kitabda aşağıdakı kimi sıralanmışdır:

M.P.Vaqif: 1 müəşşər (onluq), 1 müstəzad, 13 müxəmməs, 34 mürəbbe və 7 qəzəl;

Q.Zakir: 1 müxəmməs, 1 müxəmməs-müstəzad, 11 qəsidə (həcv və mədhnamə), 24 mürəbbe, 2 müstəzad, 2 qəzəl;

Digər şairlər: 4 müxəmməs-müstəzad; 4 qəzəl, 6 mürəbbe; 1 müsəddəs-mürəbbe.

"Məcmuə"yə M.P.Vaqif və Q.Zakirin bu vaxta qədər nəşr olunan kitablarına düşməyən və onların şeirlərinə cavab olaraq digər şairlərin yazdığı, həmçinin kitabın sonunda – 114-128-ci səhifələrinə dövrün bir sıra şairlərinin şeirləri daxil edilmişdir ki, bu şeirlər həm hər iki böyük

şairin, həm də digər şairlərin yaradıcılığını öyrənmək baxımından çox əhəmiyyətlidir. M.P.Vaqifin "Anın içün uymaz qeyriyə könlüm" (8, s.30) [Bu şeir Mirzə Yusif Qarabağinin 1856-cı ildə Dağıstanın Temirxanşura şəhərində nəşr etdirdiyi "Məcmueyi-Vaqif və müasirini-digər" kitabında getmişdir – Ə.M. (9, s.65)], "Dər cavabi-Vidadi" başlıqlı "Ey Vidadi, genə xan qulluğunda" (8, s.26) mürəbbei, Q.Zakirin "Cəfərqulu xan be qazi fərmudə" başlıqlı "Matəmi böylə dutarmış məgər adəm, qazi!" misrası ilə başlanan qəsidəsi (8, s.52), "Dər vəsfi-hali-xod" başlıqlı "Saqi, dolanım başına, allahı sevərsən" (8, s.70) mədhiyyəsi, həmçinin Zakirə aid şeirlərin arasında "Be Bəglər bəg Mirzə Cəfərqulu xan" başlıqlı "Bəglər, nə layiqdi xan qulluğunda", "Cəfərqulu xan dər cavabi-Zakir nəveştə" başlıqlı "Qasım bəg, adətdir xan qulluğunda" mürəbbeləri və kitabın 114-cü səhifəsindən başlayaraq əlavə edilmiş Məhəmməd bəyin Aşıq Pəri haqqında yazdığı "Eşitdim naməyi-mehrü məhəbbət" mürəbbei, Mirzə Mehdinin Zakirə yazdığı "Zakir əmi, tarı nədən ötəri" mürəbbei, Ağa Məsih Şirvaninin "Ey şux, rüxün gün kimi əşyayə mücəlla" müxəmməsi, Aşıq Qənbərin Valeh təxəllüslü Kərbəlayi Səfiyə yazdığı "Gög daş ilə duz qoy ana, zəg bağla, qurum qat" müxəmməsi, Valehin Aşıq Qənbərə yazdığı "Bu təbi-təbabətligi bir kəs bilə, haşa!" müxəmməs-müstəzadı, Kərbəlayi Abdulla Canı oğlunun Valehin müraciətilə Nəcəf şəhərininin ziyarəti haqqında yazdığı "Ey Səfi, Nəcəf kuyi sana məskən ikən" qəzəli, Kərbəlayi Səfi Valeh təxəllüslünün Kərbəlayi Abdullanın cavabı haqqında yazdığı "Nə səbəbdən Səfi məhrumdur, heydərdir" qəzəli, Kərbəlayi Abdullanın Valehin son beytini əvəz etməklə yazdığı "Valeh, nə əcəb, zümzümeyi-



sövti-xərin var" cavabı, Valehin Kərbəlayi Abdullanın cavabı haqqında "Ey bic, sənin Canıdan özgə pədərin var?" qəzəli, Baba bəyin Əmiraslan bəyi həcvi ilə bağlı "Ağlayın qan, Cavanşir, Əmiraslan gəlir" müxəmməsi, Mehdi bəy Mirzə İbrahimin əhvalı ilə bağlı Tiflisdən yazdığı "İbrahimin halını mətai-əkrəm" mürəbbei, Mirzə Fətəlinin Cəfərqulu xan Qarabağiyə yazdığı "Hacı Qulu, səndən, ey taci-sərim" mürəbbei və nəhayət sonda Aşıq Pəri ilə Mirzəcanın müsəddəs-mürəbbei kimi şeirləri bundan əvvəl nəşr olunmuş kitablara düşməmişdir.

Tərtib zamanı A.Berje mətndə sərlövhə və şeirlərə verilmiş farsca başlıqları olduğu kimi saxlamışdır. Məsələn: "Əşari-şüərayi-Azərbaycan", "Əşari-Vaqif", "Əşari-Zakir", "Müxəmməsat", "Dər mədhi-pəsəri-vali İlyon xan", "Cavabi-Zakir be Cəfərqulu xan dər həqqi-qazi", "Dər vəsfi-asari-şərhi-xərabeyi-Bərdə" və s. O, şeirlərdə başlıqları bu cür verməklə orta əsrlərdən bəri əlyazma kitablarımızda qorunub saxlanılan kitabçılıq ənənəsini çap kitabında da davam etdirmişdir. Bu bir daha göstərir ki, A.Berje Qafqazda olarkən nəinki Azərbaycan türk dilini, ədəbiyyatını, həm də əlyazma və əski çap kitablarımızın tərtibi xüsusiyyətlərini də mənimsəmiş və kitab nəşrə hazırlanarkən ənənəvi paleoqrafik qaydalara riayət etmişdir.

A.Berje "Məcmuə"yə daxil edilən şairlərin şeirlərini bir çox mənbələrin verdiyi bilgiyə görə böyük mütəfəkkir Mirzə Fətəli Axundzadədən almış və kitabın tərtibində görkəmli dramaturq alman tədqiqatçıya yaxından köməklik göstərmişdir (6, s.XXXII). Ola da bilər ki, toplanmış həmin materialları XIX yüzilliyin 50-ci illərinin əvvəlində lirik şair, maarif xadimi, gözəl xəttat Mirzə Şəfi öz dəst-

xəttilə köçürərək ona bağışlamış, A.Berje də şeirləri olduğu kimi, yəni dil xüsusiyyətlərini saxlamaqla çapa təqdim etmişdir. M.F.Axundzadənin A.P.Berje ilə yaxın olmasını və gələcəkdə tərtib edib nəşr etdirəcəyi kitabı üçün ona materiallar verməsini bir çox arxiv sənədləri də təsdiq edir. M.F.Axundzadə məktublarının birində yazır: "Pərəstiş etdiyim Adolf Petroviç! Mən sizin töhmətinizi almaq şərəfinə nail oldum. Fars şeiri ilə desəm: "Sevgilinin dilindən söyüş eşitmək də xoşdur". Mən elə bildim ki, Vaqifin astrologiya macərasını sizə təfsilatı ilə yazmaqla məktub yazmaq borcumu yerinə yetirmiş oluram. Görünür, yanılmışam, gərək sizə xüsusi bir məktub da göndərəydim, həm də ona görə ki, siz öz məktubunuzla məni yad etmişdiniz. Amma qoy xidmətlərim – hər həftə tatar şairlərindən tərcümələri onların tərcümeyi-halı ilə birgə sizə göndərməyim mənim günahımı yusun... Biz sizin gəlməyinizi səbirsizliklə gözləyirik. Bu məktubu qurtaran kimi mən şairlərin tərcümeyi-halı haqqında Molla Hüseynin bu gün tatar dilində göndərməli olduğu mətni tərcümə etməyə başlayacağam. Qulluğunuzda hazır olan müxlisiniz. Sizin Mirzə Fətəli Axundov" (10, 253-254). Digər bir arxiv sənədindən (M.F.Axundzadənin şəxsi arxivi. S.v.228/2) "Kəmalüddövlə məktubları" əsəri ilə bağlı olaraq onunla A.Berje arasında bağlanmış "Müqavilə"də ("Şərtnamə"də) əsərin gələcəkdə nəşri və nəşrindən əldə ediləcək gəlirin necə bölüşdürülməsindən söhbət gedir. Üç bənddən ibarət olan sənədin birinci bəndində M.F.Axundzadə kitabın nəşrindən gələn gəlirin müqaviləni imzalayan tərəflər arasında bərabər bölünməsi, ikinci bənddə isə A.Berje birinci tərəfin irəli sürdüyü şərtinə əməl edəcəyinə söz verir. Ancaq sonda, A.Berje belə bir bənd əlavə edərək



yazmışdır: "Mənim polkovnik Mirzə Fətəli Axundova olan səmimi dostluğumun naminə, onun əsərinə hörmət olaraq, əsərin tərcüməsində hər cür köməklik göstərməyə söz verirəm və hər cür məsləhətlərimlə bərabər özünün kitabı nəşr etdirib və satışından gələn gəlirin nəinki yarısından, hətta hər hansı maddi mükafatdan imtina edirəm" (Bax: Həmin mənbə). Qeyd edilən məktub və başqa sənədlərdən gətirilən istinadlar bir daha göstərir ki, M.F.Axundzadə ilə A.Berje arasında çox isti, sıx ədəbi, işgüzar və dostluq əlaqələri olmuşdur. Bütün bunlar "Qafqaz və Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuə ..." əlyazmasının və yaxud şairlərin şeirlərinin M.F.Axundzadə tərəfindən ona verildiyini deməyə əsas verir.

Kitab tərəfimizdən ərəb qrafikalı əski əlifbadan çevrilərkən mətninin orfoqrafiyası mənbəşünaslıq-dilçilik cəhətdən diqqətdə saxlanılmış və şeirlər əslinə uyğun şəkildə transfoneliterasiya edilərək tərtib edilmişdir. Klassik əsərlərin tərtibçiləri bəzən orta yüzillik müəlliflərinə aid anadilli mətnləri nəşrə hazırlayarkən mətn üzərində sadələşdirmə əməliyyatı aparmaqla bugünkü oxucunun marağını təmin etməyi üstün tutur. Ancaq mətnşünas mütəxəssis unudur ki, mətni müasirləşdirməklə, yəni dil xüsusiyyətlərini dəyişməklə onun arxaikliyinə, klassikliyinə köklü xələl gətirir. Bu prinsip daha çox əlyazmaların nəşrə hazırlanmasında gözlənildiyi kimi, mötəbərliyinə və əhəmiyyətinə görə qədim əlyazmalardan heç də geri qalmayan əski çap kitabları da nəşrə hazırlanarkən bu cür məqamları əlyazmaçı-mətnşünas yaddan çıxartmamalıdır. A.Berjenin kitabı çap nüsxəsi olsa da, unutmaq lazım deyil ki, onun nəşrindən 150 ilə yaxın uzun bir

zaman keçmiş, həmçinin buradakı müəlliflərin, xüsusilə M.P.Vaqifin əsərləri avtoqraf nüsxələrdə bizə gəlib çatmadığını yaddan çıxartmamalıyıq və sonralar onun şeirlərinin köçürüldüyü müxtəlif mənbələr əsasında əsərləri nəşrə hazırlanarkən bəzi şeirlərinin fərqli variantları meydana çıxdığı üçün bu mənbə, xüsusilə, böyük şairlərimiz Vaqif və Zakirin yaradıcılığını öyrənmək baxımından həm qədimliyinə, həm də şeirlərin dil xüsusiyyətlərini özündə qoruyub saxladığına görə maraq doğurmaya bilməz. Mütəxəssislərin qənaətincə "abidənin dil və üslub xüsusiyyətlərinin dəyişdirilməsinə heç bir ehtiyac yoxdur. Hər bir əsərin müasir oxucunun başa düşməsi üçün asanlaşdırılmış mətni yalnız orijinal transfoneliterasiyanın işıq üzü görməsindən sonra nəşr edilə bilər" (11, 15). Bu mənada A.Berjenin "Qafqaz və Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuə ..." kitabı məzmununa və tərtibatına görə nəfis şəkildə köçürülmüş əlyazma kitablarından heç də geri qalmayan mötəbər arxetip nüsxə kimi qiymətlidir və onun mətninin dil xüsusiyyətlərini təqdim olunan nəşrdə olduğu kimi saxlanılmasına çalışdıq.

A.Berje M.P.Vaqif və Q.Zakirin əsərlərindən seçmələri, həmçinin şeirlərindən bəzilərini ixtisarla kitaba daxil etmişdir. Görünür, o, kitabın həcmini nəzərə almaqla, əlyazmalarını əldə etdiyi şairlərin şeirlərindən nümunələrin hamısını bir kitaba sığışdırmaq üçün bunu etmişdir. Burada tərtibçi söz və söz birləşmələrinin fonetik tərkibini, onun sait, samitini ilkin mənbəyə əsasən verdiyi üçün, biz də sözlərin qrafik qarşılığını müasir əlifbaya çevirərkən bu məqamları diqqətdə saxladıq. Topludakı şeirləri M.P.Vaqif və Q.Zakirin bu vaxtadək nəşr olunmuş kitabları ilə (12; 13; 14) müqayisə edib nəzərdən keçirdikdə müşahidə



olunan bəzi fərqli cəhətləri də burada qeyd etməyi lazım bildik.

Kitabın mətnində sözlərin, söz birləşmələrinin müasir nəşr nüsxələrindəkindən fərqlənməsini ola bilsin ki, tərtibçinin mətnə müdaxiləsi, ya da ona təqdim olunmuş əlyazma nüsxəsinin orijinallığının qorunub saxlanması kimi qəbul etmək mümkündür. Belə fərqli cəhətlər şeirlərdə nüsxə fərqini yaradır və bəzən şeirin məzmununa da təsir göstərir.

Vaqifin məşhur "Bax" rədifli qəzəlindəki

İbrət et ağa Məhəmməd xandan, ey kəmtər gəda,
Ta həyatın var ikən, nə şahə, nə ***xunkarə*** bax! (8, 46)

beyti müəllifin nəşr olunan kitablarında (12, 145; 13, 109)

İbrət et ağa Məhəmməd xandan, ey kəmtər gəda,
Ta həyatın var ikən, nə şahə, nə ***xunxarə*** bax!

kimi getmişdir. "Xunxar" – "qaniçən", "zalım" mənasında olmaqla, heç də misrada özündən əvvəl gələn "şah" sözündən sonra tam mənasında həmcins üzv kimi yer almır. Şeirin A.Berje nüsxəsində isə "xunkar"/"hunkar" "şah" sözünün misrada həmcinslik baxımından fikrin davamını tamamlayır və Osmanlı Türkiyəsində sultanlara verilən ad kimi misrada mənanı daha da təsirləndirir.

"Qafqaz və Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuə ..."nin mətnində sözlərin tərkibində sait və samitlər canlı danışıqdakı kimi yazıda öz əksini tapmışdır. İlkin mənbə, yəni A.Berjeyə təqdim olunan əlyazma əldə olmadığından buradakı fonetik xüsusiyyətləri

həm tərtibçinin Azərbaycan türk dilini gözəl bildiyindən onun öz təşəbbüsü, həm də əlyazmanı köçürmüş katibin fərdi dili, ləhcəsi ilə əlaqələndirmək olar. Mətn boyu sözlərdə saitlərin dodaq variantı daha qabarıq şəkildə müşahidə olunur:

Xoş halına sənin, uzun **dırnaqlu**,
Baldırı **çirməklü**, yalın **ayaqlu**,
Yorğanı, **yasduğı** tozlu, **torpaqlu**,
Həmdəm ilə hərdəm söhbət eylərsən? (8, 27)

"Məcmuə"nin mətnində samitlərin danışıqda səslənmə variantı qrafik formada öz əksini tapmışdır. Bu, özünü daha çox **b-p** və **y-g** samit əvəzlənmələrində göstərir. Məsələn, əsərin adında və misralarda buna rast gəlirik:

"Qafqaz və Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir ki, Adolf Berje sahibcənabının ehtimamilə mətbu **olunupdur.**

"Vəh, cilveyi-hüsnün **yetişüpdür** nə kəmalə"; "Ta aşiq **olupdur** könül ol arizi-alə"; "Bu **bəzəgin genə** əlaməti var".

Fikrimizcə, "Məcmuə"də A.Berje tərəfindən qüsurlara da yol verilmişdir. O, kitabın tərtibi zamanı misralarda həmcins üzvlər arasında "və" bağlayıcılarını ixtisar etmişdir. Bu da nəticədə şeirlərin misralarında heca naqisliyi ilə nəticələnmiş və şeirin vəzni pozulmuşdur. Məsələn: "Bir şəm ola, bir də **aşiq-məşuq**". Klassik mətnlərdəki "və" bağlayıcısı çağdaş qrafikamıza transfoneliterasiya edilərkən şeirin orfoepiyasından irəli gələrək özündən əvvəlki sözün axırına birləşərək "ü" kimi yazılır: "Bir şəm ola, bir də **aşiqü məşuq**".



"Qafqaz və Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuə..." Adolf Berje tərəfindən 1867-ci ildə nəşr olunandan ta əlifba dəyişdirilənədək, həmçinin XX yüzilliyin 30-40-cı illərində əvvəlcə latın, ardınca kiril əlifbası tətbiq olunduqdan sonra da oxucuların nisbətən yaşlı nümayəndələri ibtidai təhsilini köhnə qrafikalı əlifbada aldıqlarından əski çap kitablarından asanlıqla istifadə etmişlər. Ancaq sonrakı dövrlərdə yeni nəsil əski əlifbadan uzaq düşdüyündən və bu əlifbada yazıb oxumağı bilmədiyindən əlyazmalarımız kimi, əski çap kitablarımız da onillər ərzində nadir kitab fondlarında uzun müddət toxunulmaz olaraq qalmışdır. Bu cür hələ əhəmiyyətini itirməmiş qiymətli mənbələri yeni əlifbaya transfoneliterasiya edib, geniş oxucu kütləsinin ixtiyarına verməyin vaxtı artıq çatmışdır.

Ümüdvarıq ki, yeni qrafikada nəşrə hazırlanan "Qafqaz və Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuə ..." kitabı tədqiqatçı mütəxəssislər, müəllimlər, tələbələr, bir sözlə klassik ədəbiyyatımızı sevən oxucular tərəfindən böyük maraqla qarşılanacaqdır.

## Ədəbiyyat:


1. «Энциклопедическій словарь», томъ III[a] (Издатели: Ф.А.Брокгаузъ (Лейпцигъ), И.А.Ефронъ (С.-Петербургъ), С.-Петербургъ, 1891, стр.33-34.
2. Feyzulla Qasımzadə. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı: Maarif nəşriyyatı, 1974, 488 s.
3. Niftəliyev R. "Tanınmış rus arxeoqrafı və şərqşünası A.P.Berje" (Akademik V.Məmmədəliyevin anadan olmasının 70 illiyinə həsr olunmuş Beynəlxalq Elmi

Konfransının Materialları), Bakı, 27-28 iyun 2013-cü il, səh.663-665).

4. İlk Azərbaycan kitabı (Tərtibçi tarix elmləri namizədi Aydın Xəlilov). Bakı: Şərq-Qərb, 1995, 48 s.

5. Книга Орудж-бека Байата – Дон-Жуана Персидского (Историко-географический трактат). – Б.: Язычы, 1988. – 216 с.

6. Azərbaycan kitabı (Biblioqrafiya). I cild (1780-1920). Bakı: Azərbaycan Kitab Palatası nəşri, 1963, 219 s.

7. Məhəmməd Füzuli. Leyli və Məcnun. Təbriz, 1819. (X-787, Əlyazmalar İnstitutu, əski əlifbada).

8. Qafqaz və Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir ki, Adolf Berje sahibcənabının ehtimamilə mətbu olunubdur (Əski əlifbada). Leypsiq, 1867, 136 s.

9. Mirzə Yusif Qarabaği. "Məcmucyi-Vaqif və müasirini-digər". Bakı: Şuşa nəşriyyatı, 1999, 152 s.

10. M.F.Axundov. Əsərləri, 3 cilddə, 3-cü cild. Bakı: Elm, 1988, 388 s.

11. Məmməd Adilov. Türk mətninin transfonelitetrasiya problemləri. Bakı: Nurlan, 2003, 120 s.

12. Molla Pənah Vaqif. Əsərləri (Tərtibçi akademik H.Araslı). Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1957, 248 s.

13. Molla Pənah Vaqif. Əsərləri (Şeirlər. Tərtib edəni və ön sözün müəllifi filologiya elmləri doktoru Araz Dadaşzadə). Bakı: Yazıçı, 1988, 192 s.

14. Qasım bəy Zakir. Əsərləri (Mətnin tərtibi, müqəddimə və şərhlər S.Rüstəmovundur). Bakı: Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı, 1964, 564 s.



**ADOLF BERJE**

# QAFQAZ VƏ AZƏRBAYCANDA MƏŞHUR OLAN ŞÜƏRANIN ƏŞARINA MƏCMUƏDİR Kİ, ADOLF BERJE SAHİBCƏNABININ EHTİMAMİLƏ MƏTBU OLUNUPDUR

**SƏNƏ 1867-DƏ, LEYPSİĞ ŞƏHƏRİNDƏ**

ПРОВЕРЕНО 1953
ИНВ. 1971 г.
Книжная Палата Аз...
8599
37123

قافقازده
آذربایجانده مشهور
اولان شعرانڭ اشعارینه مجموعه
در که آدولف برژه صاحبڭ اهتمامیله
مطبوع اولونوبدر سنه ۱۸٦۸ ده
لیپسیغ شهرنده





# ƏŞARİ-ŞÜƏRAİ-AZƏRBAYCAN

## ƏŞARİ-VAQİF

### MÜƏŞŞƏRAT

Ey rəngi-rüxi-alına heyran gülü lalə,
Can qurban ola sən kibi bir qaşı hilalə,
Vəh, cilveyi-hüsnün yetişüpdür nə kəmalə,
Təhsin gətirür gögdə məlayik bu cəmalə,
Seyr eyləmişəm çox sənəmi hurimisalə,
Amma nə deyim, olmamışam bəndə həvalə,
Bir sən kibi şəkkərdəhənü tuti məqalə,
Ta aşiq olupdur könül ol arizi-alə,
Həm silsileyi-kakilə, həm daneyi-xalə,
Daim çəkərəm sübhədəkin hər gecə nalə.

Səndən ki, cüda nuş edərəm sağəri-gülnar,
Tünd olma, dönüm gözlərinə, özgə səbəb var,
Ərz eyləyim, ol türreyi-ənbər, güli-rüxsar,
Qılmış bəni bir müşkül olan dərdə giriftar,
Amma yanaram atəşə pərvanə kibi zar,
Yəni ki, olalı sana bən aşiqi-didar,
Hərgiz degil əhvalıma bir kimsə xəbərdar,
Naçar edərəm dərdi-dilim saqiyə izhar,
Ləlin ki düşər yadıma, ey gözləri xümmar,
Bu zövqlə gahi içərəm neçə piyalə.

Minavü sürahidə ki, vardır bu lətafət,
Gər çəkmiyələr qamətü gərdan sana nisbət,
Hərgiz bən edərdimmi dəxi anlara ülfət,
Hicrində yetər canıma çox möhnətü külfət,



İstərsə mana gündə çəküb tiği-siyasət,
Öldürmək içün yüz qoya qatil kibi firqət,
Şirin dəhənin ta ola bir dəm mana qismət,
Sabir oluram var nə qədər canda səlamət,
Sənsiz, nə rəvadır, mən edəm eyşilə işrət,
Bəsdir mana şövqüm ki, olur cami-vüsalə.

Oxşar, deyübən ləblərinə badeyi-gülgun,
Anınçün olur hərdəm ana rəğbətim əfzun,
Məruz dut, oldum belə şuridə cigərxun,
Çox olmuşam aşüftə, pərişan, dili-məhzun,
Zira ki, sənin daneyi-xalındakı əfsun,
Dil mürğini etmiş girehi-zülfünə məftun,
Cəm olsa əgər bir yerə Loğmanü Fəlatun,
Yox çarə dəxi badədən özgə mana əknun,
Hicran günü dil xəstə olan dəmdə bu məcun
Bir vasitədir dəfi-qəmü dərdü məlalə.

Vaqif kibi kim, dəm uraram zülfi-siyadən,
Əzamə düşər lərzə sərasər bu nəvadən,
Tənbursifət cuş edərəm zərbi-həvadən,
Şimdi məni bir kəs görər olsa aşinadən,
Bir tarə bərabər dutar ol çəngi-dütadən,
Qanun belədir firqeyi-üşşaqə binadən,
Sən cahilsən, yox hələ elmin bu ədadən,
Yoxdur xəbərin, heç deməzsən, füqəradən,
Bir kərrə düşəndə xəbər al badi-səbadən,
Saçın həvəsi gör ki, bəni saldı nə halə?

* * *

## DƏR TƏQAZAYİ-NİMTƏNƏ[1]

Bir nimtənə kim, ta ola zərbəftü nikutər,
Diba ana möhtac.
Mətnində tamam rabitə mövzunü sərasər,
Tək haşiyə qıyqac.
Üstündə anın aşiqü məşuq müsəvvər,
Dil şövqünə minhac.
İlduza şəbih nəqşi, yeri gög kibi əxzər,
Nəzzarəsi bəhhac.
Tiri-nəzəri-əhli-təmaşayə müqərrər,
Hər butəsi amac.
İçində anın şölə verə tələti-dilbər,
Ta bəndeyi-vəhhac.
Görən deyə bu mahdır, ol çərxi-pürəxtər,
Ya bəhri-pürəmvac.
Kəbə evinin örtügünə duta bərabər
Simasını hüccac.
Gər düşsə ətəgi ələ, əlbəttə, tez eylər
Bizdən qəmi ixrac,
Əndişə nə itdir, çıxa bir də çəkə ləşkər,
Könlü edə tarac.

Şanı, şərəfi xələti-şahanədən artuq,
Pirayəyi-şövkət.
Fərri, fərəhi zibi-ərusanədən artuq,
Sərdəftəri-zinət.
Təmü tərəbi nəşəyi-peymanədən artuq,
Zövqi-meyi-cənnət.
Zər dügmə giribanına dürdanədən artuq,
Mənzum ola əlbət.
Əqli gedə, sərxoş gəzə divanədən artuq,
Anı geyən övrət.



Dönə ərinin başına pərvanədən artuq,
İşlər tapa surət.
Zülfə bu dönəm sarmaşa əl şanədən artuq,
Candan çıxa həsrət.
Oxuna bucaqlarda kütubxanədən artuq,
Əhkami-şəriət.
Tərifi düşə dillərə əfsanədən artuq,
Ta ruzi-qiyamət.
Cəm olsa əgər bir yerə yüz camei-əkbər,
Cümləsinə sərtac.

An vəqt ki, şod hazirü mövcudü mühəyya,
İn rəxti-dilaviz.
Bayəd ki, ferestade şəvəd zud beinca,
Əz peyk səbukxiz.
Əz bəhre-hüsuləş benişin fekri-befərma,
Kon çareye-təcviz.
Nəleyn bepa puş, zeahən bekəf əmma
Dərgir əsa niz.
Zire-qədəm əfkən həme məxluq sərapa,
Ba nikü bədamiz.
Mipors ze hər melləto hər cens, xosusən,
Əz mərdome-Təbriz.
Nə qosse ze pəs xorü nə əz pişe-qəm əsla,
Bi pərdəvü pərhiz.
Tən deh beqəza baş peyapey peyi-sevda,
Münkir be degər çiz.
Ta anke bəzayi pesəri, ey Əbu Cəfər,
Çün doxtəre-sərrac.

Zahir ki, mana tənü təərrüz yetən eylər,
Yəni ki, filanı.
Şimdi gerü arayişi-əsbabi-zən eylər,
Tövri-Sifəhanı.

Bu bidəti nə ləzgi, nə də şahsevən eylər,
Nə kürd, kolanı.
Derlərdi ki, külfətlərinə pirəhən eylər,
Kirbasü kətanı.
O böylə degildi görəsən ki, nədən eylər,
Kim azdurub anı.
Seyrani-gülüstanə məgər ki, gələn eylər,
Təğyir həvanı.
Özin ki, qocalmış kibi xoy dəgşürən eylər,
Oğlani-zəmanı.
Rişxənd edübən daxi neçün çöpdərən eylər,
Hatəm xan ağanı.
Neylim, duturam mən qələt anı deyən eylər,
Fərmani-xudanı.
Böylə buyurupdur ər edə övrətə zivər,
Ol xaliqül-əzvac.

Vaqif ər olan övrətə heyran necə olmaz,
Çağ etsə damağın?
Heyran ki, olur bəndeyi-fərman necə olmaz,
Sözün sölə sağın.
Sevməzmi, nə sözdür, dili suzan necə olmaz,
Pərvanə çırağın?
Dönməzmi hübabə, evi viran necə olmaz,
Yıxmazmı otağın?
Həmdəmsiz igit çaki-giriban necə olmaz,
Açmaz yaxa bağın?
Al qanə boyar, qərqeyi-tufan necə olmaz,
Göz qarəsin, ağın?
Qönçə dəhənin görməsə, giryan necə olmaz,
Xəndan dodağın?
Ol xanəxərabın cigəri qan necə olmaz,
Boş görsə qucağın?



Peşkəş belə yoldaşına baş, can necə olmaz,
Anın ki, əyağın?
Götürmüş ola çigninə peyğəmbəri-sərvər,
Ol sahibi-Merac.

* * *

## MÜXƏMMƏSAT

## DƏR BİVƏFAİYİ-ƏBNAYİ-RUZİGAR

Mən cahan mülkündə mütləq doğru halət görmədim,
Hər nə gördüm, əgri gördüm, özgə babət görmədim,
Aşinalar ixtilatında sədaqət görmədim,
Beyətü iqrarü imanü dəyanət görmədim,
Bivəfadan lacərəm, təhsili-hacət görmədim.

Xah sultan, xah dərvişü gəda bilittifaq,
Özlərin qılmış giriftari-qəmü dərdü fəraq,
Cifeyi-dünyayədir hər ehtiyacü iştiyaq,
Munca kim, etdim tamaşa, sözlərə asdım qulaq,
Kizbü böhtandan səvayı bir hekayət görmədim.

Xəlqi-aləm bir əcəb dəstur dutmuş hər zəman,
Hansı qəmlü könli kim, sən edər olsan şadiman,
Ol sana, əlbəttə kim, bədguluq eylər, bigüman,
Hər kəsə hər kəs ki, etsə yaxşılıq, olur yaman,
Bulmadım bir dost ki, andan bir ədavət görmədim.

Alimü cahil, müridü mürşidü şagirdü pir,
Nəfsi-əmmarə əlində sərbəsər olmuş əsir,
Həqqi batil eyləmişlər, işlənür cürmi-kəbir,
Şeyxlər şəyyadü abidlər əbusən qəmtərir,
Hiç kəsdə həqqə layiq bir ibadət görmədim.

Hər kişi hər şey ki sevdi, anı behtər istədi,
Kimi təxtü kimi tacü kimi əfsər istədi,
Padişahlar dəmbədəm təsxiri-kişvər istədi,
Eşqə həm çox kimsə düşdi vəsli-dilbər istədi,
Heç birində aqibət bir zövqü rahət görmədim.

Mən özüm çox kuzəkarı kimyagər eylədim,
Sikkələndirdim qübari-tirəni zər eylədim,
Qarə daşı döndərüb yaquti-əhmər eylədim,
Daneyi-xərmöhrəni dürrə bərabər eylədim,
Qədrü qiymət istəyüb, qeyr əz xəsarət görmədim.

Eyləyən viranə Cəmşid Cəmin eyvanını,
Yola salmış, bil ki, bəzmi-işrətin çəndanını,
Kim qalıbdır ki, anın qəm tökməyüpdür qanını,
Dönə-dönə imtəhan etdim fələk dövranını,
Anda mən bərəkslikdən özgə adət görmədim.

Gün kibi bir şəxsə gündə xeyr versən səd həzar,
Zərrəcə etməz ədayi-şükri-nemət aşikar,
Qalmayupdur qeyrətü şərmü həya, namusü ar,
Dedilər ki, etibarü etiqad aləmdə var,
Andan ötri mən də çox gəzdim, nəhayət, görmədim.

Müxtəsər kim, böylə dünyadən gərək etmək həzər,
Andan ötri kim, degildir öz yerində xeyrü şər,
Alilər xaki-məzəllətdə, dənilər mötəbər,
Sahibi-zərdə kərəm yoxdur, kərəm əhlində zər,
İşlənən işlərdə əhkamü ləyaqət görmədim.

Ya imanül-insü vəl-cinni-şəhənşahi-ümur,
Getdi din əldən, bu gündən böylə sən eylə zühur,
Qoyma ki, şeytani-məlun eyləyə imanə zur,



Şöleyi-hüsnündə bəxş et tazədən dünyayə nur
Kim, şəriət məşəlində istiqamət görmədim.

Dövlətü iqbalü malın axırın gördüm tamam,
Həşmətü cahü cəlalın axırın gördüm tamam,
Zülfü ruyü xəttü xalın axırın gördüm tamam,
Həmdəmi-sahibcəmalın axırın gördüm tamam,
Başədək bir hüsnsurət, qəddü qamət görmədim.

Baş ağardı, rüzgarım oldı gün-gündən siyah,
Etmədim, səd heyf kim, bir mahrüxsarə nigah,
Qədrbilməz həmdəm ilə eylədim ömri təbah,
Vaqifa, ya rəbbəna, öz lütfünü eylə pənah,
Səndən özgə kimsədə lütfü inayət görmədim.

* * *

## DƏR TƏRİFİ-TİFLİS VƏ MƏDHİ-VALİ[2]

Vəh, bu bağın nə əcəb sərvi-dilaraları var,
Hər tərəf tazə açılmış güli-rənaları var,
Açılub tazəvü tər lələyi-həmraları var,
Yəni Tiflisin əcəb dilbəri-zibaları var,
Ey könül, seyr elə kim, türfə tamaşaları var.

Mərhəba, Tiflis imiş cənnəti hurü pərinin,
Yığılubdır ana cəmiyyəti hurü pərinin,
Mən bu şəhrin nə deyim vəsfini dilbərlərinin,
Filməsəl, şəklü şəmayildə, bəli, hər birinin
Mahi-tabana bərabər sərü simaları var.

Ol qədərdir büti-nazikbədənü incəmiyan,
Eyləmək olmaz onun vəsfini məlumü əyan,

Hər biri nazü nəzakət belə bin afəti-can,
Cümlə bir cilvədə, bir şivədə, xoş sərvi-rəvan,
Məst tavus kibi gərdəni-minaları var.

Yüzləri pərtövi-mehri-cahanara kibidir,
Səfheyi-sinələri simi-müsəffa kibidir,
Ləzzəti-ləhcələri nitqi-Məsiha kibidir,
Əlləri möcüzeyi-həzrəti-Musa kibidir,
Dilrübalıqda əcayib yədi-beyzaları var.

Ala gözlər süzülüb nərgisi-sirabə dönüb,
Ağ qabaqda xəmi-əbruları mehrabə dönüb,
Ləltək ləblərinin rəngi meyi-nabə dönüb,
Tökülüb gərdənə saçlar, ucu qüllabə dönüb,
Sona cıqqası kibi zülfi-mütərraları var.

Bağİ-rizvanda əgər huriyü qılman çoxdur,
Bu gözəllər kibi məqbulü müzəyyən yoxdur,
Nəsl bər-nəsl gözəllik bulara buyruqdur,
Mən görənlər ki, mələkdən, pəridən artuqdur,
Hələ derlər ki, bulardan dəxi əlaları var.

Nə qədər var isə buxağü zənəxdanü yanağ,
Tazə gül yaprağıtək qırmızıdır nazükü ağ,
Bir-birindən götürüb şöləsini misli-çirağ,
Görməyüb kimsə belə qaşü gözü dişü dodağ,
Özgə babət sifətü surətü əzaları var.

Kəsrəti-hüsn ki, xoş mərtəbədir insan içün,
Bəxş edipdür anı həqq dilbəri-Gürcüstan içün,
Yok, sual etmək əgər məsləhəti-yəzdan içün,
Nola, ya Rəb, səbəbi, bais bu xuban içün?
Böylə surətlərin, əlbəttə ki, mənaları var.



Qalmışam valehü matü mütəhəyyir, dili lal,
Ey xudavəndi-cahan, gizlü değildir sana hal,
Bu necə sibi-zənəxdan, bu necə zibi-camal
Ki, verübsən bulara sən bu qədər izzü kamal,
Neçə ki, var cahan, surətü əzaları var.

Bədəni-pakı çəküb abrəvantək sulara,
Ağarub tazəvü tər cümlə dönüpdür qulara,
Abi-Kür nisbət edüb boylarını qarğulara,
Neçə şeydən belə zahir ki, xudanın bulara
Nəzəri-mərhəmətü lütfi-hüveydaları var.

Biri həmmam ki, qüdrətdən olub bəzlü bərat,
Biri Kür suyu ki, hər cürəsidir abi-həyat,
Biri bu xubluqü gögçəklik, pakizəsifat,
Biri oldur ki, nəcib, əsldə ali dərəcat,
Aləmin sərvəri, vali kibi ağaları var.

Yeddi həmmam, nə həmmam ki, sərmənzili-hur,
Həşt cənnət kibi hər guşəsi bir mətləi-nur,
Bir əcəb abi-rəvan gərm qılub anda zühur,
Şükr təqdirinə, ey Qadirü Qəyyumü Qəfur,
Lütfünün bəndələrə neməti-üzmaları var.

Mənbəi-cudü kərəmdən açılub dürri-xoşab,
Basəfa hövzə dəmadəm tökülür misli-gülab,
Girsə bir kərrə ana mən kibi hər xanəxərab,
Getməz andan dəxi bir canibə manəndi-hübab,
Getsə də badə nə ki, mənzilü məvaları var.

Gərçi, ey Xızr, bulubsan şərəfi-feyzi-əzəl,
Verməyüpdür könül asayişi amma sana əl,
İstəsən ömri-dübarə, görəsən türfə gözəl,

Bircə təşrif gətür, Tiflisin həmmamına gəl,
Gör necə rahəti-canbəxşi-tənasaları var.

Bu ocaq eylə ocaqdır ki, işıq ayə salur,
Gün kibi şöləsini cümleyi-dünyayə salur,
Tez dutar xainü bədxahları vayə salur,
Hər kimin başına kim, mərhəməti sayə salur,
Eylə bilsün olarm dinilə dünyaları var.

Vaqifa, səndə ki, yoxdur, bilürəm, zöhdü riya,
Şərti-ixlas gərək eyləyəsən şimdi əda,
Eylə bu valiyə, oğlanlarına xeyir-dua,
Saxlasun onları öz hifzi-pənahında Xuda,
Hasil etsün nə qədər dildə təmənnaları var.

* * *

## DƏR MƏDHİ-PƏSƏRİ-VALİ İLYON XAN

Valinin çeşmi-çırağı, vəh, nə türfə can imiş,
Külli-Gürcüstanın üstə sayeyi-sübhan imiş,
Düşməni pamal edən sərdari-valaşan imiş,
Aləmin sərdəftəri, adı İlyon xan imiş,
Saxlasın Allah pənahında, əcəb oğlan imiş.

Heç yoxdur nisbəti özgə diyarın xanına,
Bir cavandır kim, yaraşır padşahlıq şanına,
Dəgməsün afət yeli, ya Rəb, güli-xəndanına,
Sərbəsər aləm gərəkdir baş əgə fərmanına,
Tağı-əbruyi-lətifi qibleyi-iman imiş.

Xoş tamaşa eylədim, gördüm tamam ətvarını,
Çox bəgəndim özini, həm ləhceyi-göftarını,



Maşaallah, zahir etmiş ululuq asarını,
Böylə sandım ki, mələkdir əvvəla didarını,
Xeyli çağdan sonra bildim kim, gözəl insan imiş.

Sair oğlundan xanın gər olmadıq biz ruşinas,
Manei yox, anları həm eylədük bundan qiyas,
Bu ocaq böylə ocaqdır, eyləmiş nur iqtibas,
Vaqifa, sən qıl Xudaya hər zaman şükrü sipas,
Valinin ocağı böylə gün kibi taban imiş.

* * *

## DƏR TƏRİFİ-DÜXTƏRİ-TƏRSA

Naz ilə ta ol büti-tərsa kəlisadan çıxar,
Sərkeşü xəndanü bipərva kəlisadan çıxar,
Şahdır guya, geyüb diba, kəlisadan çıxar,
Açuban tələt günəşasa, kəlisadan çıxar,
Şölə salmış aləmə ta kim, kəlisadan çıxar.

Ləhzə-ləhzə eylədikcə mahrüxsarı zühur,
Ləmə-ləmə ziri-bürqədən düşər dünyayə nur,
Anı bir kərrə görən dindən olur, əlbəttə dur,
Necə kim, cənnət sarayından çıxar qılmanü hur,
O şəkil bu düxtəri-tərsa kəlisadan çıxar.

Şanəvəş seyqəl verüb zülfi-bənəfşə nisbətə,
Pərdə mütləq dutmayub simavü sədrü surətə,
Qıl tamaşa gərdənə, seyr eylə qəddü qamətə,
Qaşü gözü qəmzə, məazüllah, dönüpdür afətə,
Etməyə din mülkünü yəğma, kəlisadan çıxar.

Gül kibi nərmilə nazik pirəhəndə ağ bədən,
Bilmənəm kim, şölədir, ya xərməni-bərgi-səmən,

Dişləri qəltan sədəf, çün ağzıdır ləli-Yəmən,
Ağ qabaqda bir gəz anın taqi-əbrusin görən,
Meyli-məscid eyləməz, haşa, kəlisadan çıxar.

Vaqifəm, ta ki, gözüm anın sataşdı qaşına,
İstədi mehrabü minbərdən xəyalım daşına,
Şimdi bildim ki, nə gəlmiş Şeyx Sənan başına,
Ya budur ki, Tiflisi qərq eylərəm göz yaşına,
Ol sənəm vəsli mənimçün, ya kəlisadan çıxar.

* * *

## DƏR TƏRİFİ-ÇUXA Kİ MƏHƏMMƏD HƏSƏN[3] AĞA BƏXŞİDƏ ƏST

Verdi ağa mana bir çuxa ki, min donə dəgər,
Qeysəri-Rum geyən rəxti-humayunə dəgər,
Filməsəl, xələti-xaqanü Firidunə dəgər,
Yaxası yaxa dolu lölöi-məknunə dəgər,
Müxtəsər, hər ətəgi bir ətəg altunə dəgər.

Çuxa çox görmüşəm, amma ki, bu babət, nə deyim,
Kimsədə görməmişəm, qabili-qamət, nə deyim,
Eyləyüpdür kişi bu işdə qiyamət, nə deyim,
Göstərüb dərzi bir ecazü kəramət, nə deyim
Ki, tamam kari-Ərəstuyü Fəlatunə dəgər.

Böylə kim, bu çuxadır zivəri-fərxəndəliqa,
Görməyüb kimsə dəxi səlli-əla-ali-əba,
Versün Allah bunu bəxş eyləyənə ömri-bəqa,
Ləffü nəşrində mürəttəb fərəhü zibü səfa,
Pəri-tavusda olan adətü qanunə dəgər.



Cənnət əsbabına, zahid, bu qədər müştərisən,
Az danış, başım aparma, kişi, šən sərsərisən,
Kor degilsən, hələ bir sil gözini, bax bəri sən,
Sundüsi-Xızr ilə dut bu çuxayi-əhməri sən,
Gör bunun hansı biri qiyməti-əfzunə dəgər.

Gər mana başdan ayağa verələr hülleyi-hur,
Yüz yüzi gün kibi zər katibi, içi səmur,
Həqq bilür, bilməz idim zərrəcə mən nazü-qürur,
Əl verüb könlümə şimdi o qədər zövqü sürur,
Cami-Cəmdə içilən badeyi-gülgunə dəgər.

Var imiş bəndə əcəb talei-xoş, bəxti-niku,
Bəxşi ərzani olub eylə ki, gəldi mana bu,
Bundan iraq ola, ya Rəb, nəzəri-çeşmi-ədu,
Hər geyüb durmağı bir dilbər ilə ruybəru,
Bağı-cənnətdə olan tubiyi-mövzunə dəgər.

Nə əcaib çuxadır bu, nə gözəl sövbi-şərif,
Tələti tazəvü tər, şivəsi xoş, buyi lətif,
Şairin təbi kibi nazikü zibavü zərif,
Mətləi-"Məsnəvi"yə çaki-giribani rədif,
Caminin səci-kəlamındakı mövzunə dəgər.

Hər kimin ki, cəməsi mahut kibi bəkrəs olur,
Xəlq arasında məkanı fələki-ətləs olur,
Gərçi xar olsa özi, yarı güli-növrəs olur,
Mahvəşlərdən anun müştərisi çox kəs olur,
Bu hesab üzrə liqa məxzəni-Qarunə dəgər.

Kimsə bilməz bu giranmayə mətai-həsəni,
Çuxadır qırmızı, ya daneyi-ləli-Yəməni,
Dilbərin sərv qədi, lalərüxün gül bədəni,

Yusifin yoxsa ki Yəqubə gələn pirəhəni?
Çeşmi-tarə çəkilən pərdeyi-pürxunə dəgər.

Nökəri yaxşı bəgin misli-ağazadə gəzər,
Qəmi-dünyanı yeməz, necə ki, dünyadə gəzər,
Rütbəsi mərəkədə, mənzili-əladə gəzər,
Vaqifi bilmənəm, aya, neçün üftadə gəzər,
Belə çuxa geyənin kəlləsi gərdunə dəgər.

* * *

## DƏR TƏQAZAYİ-ŞALVAR

Çün bizim şalvarımız əlavü həm əfzəl gərək,
Rəngi yaşıl, bir qədər qəddi dəxi ətvəl gərək,
Əbrişimi zülfi-müşkəfşanə müstəmsəl gərək,
Toxuyan, amma anı bir ağü nazik əl gərək,
Lənbəran məhvəşlərindən bu işə feysəl gərək.

Ağ gərək, siminbədən şalvarbafın sinəsi,
Olmaya eşq əhlinə bir zərrə büğzü kinəsi,
Mehribanlıq etmək ola adəti-dirinəsi,
Müttəsil ovqat əlində şanəvü ayinəsi,
Sənəti zülfə, buxağə cilvəvü seyqəl gərək.

Bir pərisimə gərəkdir dilbəri-şalvarduz,
Yaşı ya on dört, ya igirmi ola, ya otuz,
Eyləyə hüsnü belə aşiq gecəsin misli-ruz,
Filməsəl, xurşidi-pürənvarə nisbət dilfiruz,
Pərtövi-rüxsarəsi manəndeyi-məşəl gərək.

Hər kimin ki, işi yaxşı, özi bir nakəs ola,
İstər onun daima toxuduğu bəkrəs ola,



Haşalillah ki, ana rəğbət edən bir kəs ola,
Yəni şalvar toxuyan bir dilbəri-növrəs ola,
Yoxsa ki, mütləq degil, ustadi-müstəməl gərək.

Vaqifəm, ruzi-əzəldən aşiqi-sövdaməzac,
İstərəm anı ki, anın saçı ola bir qulac,
Eylərəm bir elə yarın başmağın başıma tac,
Ey Məhəmməd Hüseyn ağa, edəgör sən bir əlac,
Düşdü bu şalvar işi, bir müşkül işdir həll gərək.

* * *

## DƏR TƏRİFİ-KÜRK

Qış güni çünki dönər şol cənnətül-məvayə kürk,
Ol səbəbdən layiq olmuş firqəyi-mollayə kürk,
Görünür ədna əgərçi himməti-valayə kürk,
Eylə ki, puşak olur fəsli-şita əzayə kürk,
Tən edər yüz faxiri-məlbuseyi-dibayə kürk.

Kürk olan yerdə cahanın rəxti-əlvanı nədir?
Eşməki-zərdabə, bəkrəs çuxa, baranı nədir?
Pəri-quyun döşəgi, yasdığı, yorğanı nədir?
Gərmü nərm adamların qucağı, ya yanı nədir?
Rövzeyi-rizvanda bənzər hülleyi-hurayə kürk.

Gün bu gündən böylə istər heç təvfir etməsün,
Badü bərfin istəsə təbdilü təğyir etməsün,
Yazadək kimsə mana otaq təmir etməsün,
Savuqun hər nə əlindən gəlsə, təqsir etməsün,
Oldu bir cövşən xədəngi-şiddəti-sərmayə kürk.

Pustini-bərrə ki, büzğalə vəqti filməsəl,
Eydi-Novruzi əyan etməkdədir bürci-Həməl,

Daxi sən lazım degilsən, ey bəhari-xoşəməl,
İstəsən şimdi gerü sən xah gəlmə, xah gəl,
Arturupdur yəni asayiş qədi-balayə kürk.

Vaqifa, çox lütf qılmış həzrəti-Sübhan sana,
Kürk irsal eyləmiş ol sahibi-Şirvan sana,
Xaneyi-ehsanı abadan ki, verdi can sana,
Dutma kəm, kim çox kərəmdir, həm də əzmi-şan sana,
Fəxr qıl kim, padşahlardan gəlür paşayə kürk.

* * *

## DƏR XASTƏNİ-TÜFƏNG

Dəhrdə oldu mana dildarü dilbər bir tüfəng,
Xoş qədi ayineyi-sim, səmənbər bir tüfəng,
Çəkdi dudi-ahimi ta çərxi-çənbər bir tüfəng,
Canıma atəş salub yaqdı sərasər bir tüfəng,
Yanə-yanə qaldım, olmadı müyəssər bir tüfəng.

Qıvrılur könlüm tüfəngdən dəm uranda martək,
Od çıxar ağzımdan ol çaxmaqi-atəşbartək,
Gülləsi əşkim olur, çeşmim şərarı nartək,
Müşki-barut ətrilə həm türreyi-tərrartək
Etmədi dimağımı mütləq müəttər bir tüfəng.

Bu Qarabağ içrə çox çıxdım tələb meydanına,
Müşkül oldu çünki yol bulmaq anın imkanına,
Eylədim bu müşkili izhar Şirvan şahına [xanına],
Göstərüb lütfü kərəm mən bəndeyi-fərmanına,
Etdi vədə ol şəhənşahi-dilavər bir tüfəng.

Bavər etdim vədəyə, mən gəldimü o həm gələ,
Gəlmədi, amma gözüm yollarda qalupdur hələ,



Nalişimdən hər zaman düşdü zəminə zəlzələ,
Derlər ol bəglərbəgi həm axtarur, düşməz ələ,
Qəhtə çıxmışdır məgər, Allahü əkbər, bir tüfəng?

Hər kim istər kim, vücudi mərəkə ara gərək,
Kəndü zatından silahü əsləhə əla gərək,
Gülləsilə xuni-əda tökməgə sevda gərək,
Gər tüfəng olsa bizə, mümtazü bihəmta gərək,
Vaqifa, yoxsa degil məqbulumuz hər bir tüfəng.

* * *

## DƏR BARƏYİ-DİLBƏR

Nə xoşdur baş qoymaq bir güləndamın qucağında,
Tamaşa eyləmək ol həlqə zülfə ağ buxağında,
Durub andan, dutub nazik əlin gəzmək otağında,
Qucub-qucub oturmaq gah solunda, gah sağında,
Sinəsində sinə, boynunda qol, dodaq dodağında.

Yüzündən eyləyüb küstaxlıq, dəstari-zər açmaq,
Yegəndən dügmə, andan sonra belindən kəmər açmaq,
Çəküb yaşmağın ağzından rəvan, ləlü göhər saçmaq,
Çıxarub cümlə əsbabın, vücudin sərbəsər açmaq,
Həmin bir incüsin qoymaq qara zülfün qırağında.

Uzun saçın qucaqlayub, töküb qəddi-büləndindən,
Töküb misli-bənəfşə iyləmək hər bir kəməndindən,
Yaxasın çak edüb, köksün çıxarub bağü bəndindən,
Əmüb doyunca şirin ağ məmənin şəhdi-qəndindən,
Qoyub bir ləhzə baş, yatmaq giribanın bucağında.

Səmən cismə sarılmaq, eyləmək bir qədr rahətlər,
Aralıqda olub bir-birinə lütfü inayətlər,

Yuxudan tez durub sərf eyləyüb dürlü ziyafətlər,
Yuyub əl, oturubən dizbədiz etmək hekayətlər,
Demək bir-birinə başdan keçən halı fərağında.

Edib bir müxtəsər söhbət, xəbərdar olmamış əğyar,
Yenidən and içüb, şərt eyləyüb əhdü iman, iqrar,
Alub bir bu yüzündən, o yüzündən buseyi-təkrar,
O zülfi-yasəməndən həsrətilə ayrılub naçar,
Genə Vaqif kibi bir daxi olmaz [olmaq] iştiyaqında.

* * *

## DƏR ZƏMMİ-RİŞ

Ey bəni eyləyən aləmdə pərişan, saqqal,
Səni yox eyləsün ol Qadiri-Sübhan, saqqal,
Görəyim kim, olasan xak ilə yeksan, saqqal,
Ki, edübsən evimi sən belə viran, saqqal,
Dəgdi səndən bana yüz illətü nöqsan, saqqal.

Var idi bundan əzəl bəndə ki, ta vechi-həsən,
Bir binaguşi-zənəxdani-səmən, sadə zəğən,
Həmdəm idi bana hər ləl-ləbü qönçədəhən,
Tuf sənin yüzünə kim, xublar içində bəni sən,
Bir kəs idim, elədin nakəsü nadan, saqqal.

Bəs ki, bədşəkl isənü başdan ayağa murdar,
Dəmbədəm səndən olur buyi-nəcasət izhar,
Necə etsün sana rəğbət sənəmi-gülrüxsar,
Abrudən məni sən saldın elə, ey idbar,
Nagəhan ta ki olub yüzdə nümayan, saqqal.

Sən degilsən, belə bir p.. ki, çıxasan yüzə sən,
İstər hər bir telinə dürlü cəvahir düzəsən,



Yardan meylini bilmərrə gərəkdir üzəsən,
Girməzisən dəxi bir çəngə samanca gözə sən,
Filməsəl, gər olasan sünbülü reyhan, saqqal.

Qaradır, böylədi, Vaqif, gələ gör kim, ağara,
Adəmi döndərəcək ağzı ağarmış zağara,
Bu sifətlə gələ gör kim, gedə toya, mağara,
Növcəvanlar edə söhbət, çala kusü nağara,
Edə aləmdə səni didəsi giryan saqqal.

* * *

## EYZƏN

Neylərəm, böylə munun mən kömüm iqbal içinə,
Handa yüz dutdum isə, düşdüm elə qal içinə,
Gündə yüz gəz düşə aşüftəlik əhval içinə,
Qorxum oldur ki, sabah ağ düşə saqqal içinə,
Hər sənəm görsə deyə, s..ım anın çal içinə.

Etməyə bir sənəmin kim, səni heç könli qəbul,
Sən ana istər isən eyləyəsən canını qul,
Canına rəhm eləməz, yanasan oda yüz yol,
Saqqalı ağ olanın qiymətidir bir qara pul,
Gərçi girsün bəzənüb gündə ya misli-al içinə.

Kim ki, birçəklərini sünbülə timsal salur,
Xubların başına qovğa gətürür, qal salur,
Dami-təsxirə pəriruları filhal salur,
Abrudan kişini dünyada saqqal salur,
Salma saqqalını əndamə anın sal içinə.

Sahibi-saqqal əgər yüz ola sahir sözlü,
Yəni başdan-ayağa ləhcəsi şirin, duzlu,

Ram olub baxmaz ana heç bir ahu gözlü,
Nola saqqala yavuq gəlməsə bir gül yüzlü,
Kim qıyar ki, düşə gül yaprağı qanqal içinə.

Demə, Vaqif ki, filan kimsənə çox zirəkdir,
Ya filan şeir deyür, yazısı həm gögçəkdir,
Ya filan kədxudanın simü zəri lək-ləkdir,
Xubların sevdicigi sadəvü top birçəkdir,
Sı...maz anlar xəttü şeirü kəmalü mal içinə.

* * *

## DƏR PEŞİMANİ ƏZ RƏNCİDƏGİYİ-HƏBİB

Bilmənəm məndən neçün ol sevgili canan küsüb,
Yüzümə baxmaz dəxi, bir gözləri məstan küsüb,
Ağladır qanlar mana rüxsarəsi xəndan küsüb,
Qarə günlərdə qoyub məni, məhi-taban küsüb,
Könlümün şəhrin sərasər eyləyüb viran, küsüb.

Bağrımı vermiş kəsər kipriklərin əlmasına,
Ağlamaqdan gözlərim dönmüş iki qan tasına,
Gecə-gündüz düşmüşəm dərdü qəmin dəryasına,
Rəhm qılmaz, ah kim, öz aşiqi-şeydasına,
Dərd öldürdü məni, bir eyləməz dərman, küsüb.

Eylə ki, görər məni yaylıq çəkər rüxsarına,
Bir zaman qoymaz tamaşa eyləyim didarına,
Danışur qeyrilə, baxmaz mən qədimi yarına,
Nə demiş məndən rəqib ol xubların sərdarına?
Gəlmişəm ərzə nəhayət, eyləməz divan, küsüb.

Bu qədər kim, söylərəm, dutmaz mana qulağını,
Yoluna yüz qoymuşam, basmaz gözəl ayağını,



Neylərəm canımın olmaq daxi sağ qalmağını,
Döndərüb yüzin, yığupdur qaşını, qabağını,
Ey könül, gəl olalım bir dilbərə qurban, küsüb.

Danışub gülməz yüzünə ol pərivəş Vaqifin,
Sındırub könlin, yaxub canın müşəvvəş Vaqifin,
Ol səbəbdən canına düşmüş bir atəş Vaqifin,
Cürmü təqsiri nədir, ya Rəb, bəlakəş Vaqifin,
Söylərəm munca, eşitməz dadü əl-aman, küsüb.

* * *

Sən qönçə kimi hər bir edən dəmdə yaşanmaq,
Artır bizə yüz mərtəbə odlarına yanmaq,
Mən aşiqəm, ey gül, sana olmaz munı danmaq,
Ölən günədən eyləmənəm səndən usanmaq,
Daxi nə yaşanmaq, nə bürünmək, nə utanmaq?
Bəsdir bu dayanmaq!

Allaha şükür, lalə yanağında eyib yox,
Dişində, dəhanında, dodağında eyib yox,
Bir zərrəcə zülfündə, buxağında eyib yox,
Qaşında, gözündəvü qabağında eyib yox,
Daxi nə yaşanmaq, nə bürünmək, nə utanmaq?
Bəsdir bu dayanmaq!

Mən ha sənin ol məh yüzüni görmüşəm yüz yol,
Ox kiprigini, şux gözini görmüşəm yüz yol,
Həm yoldaşını, həm özini görmüşəm yüz yol,
Şəkkər kimi şirin sözini görmüşəm yüz yol,
Daxi nə yaşanmaq, nə bürünmək, nə utanmaq?
Bəsdir bu dayanmaq!

Mən xud degiləm bədnəzər, ey gözləri şəhla,
Məndən yüzüni yaşurasan sən elə bica,
Qoysan, edəyim yüzünə doyunca tamaşa,
Öldürdün axır, məndə ki can qalmadı əsla,
Daxi nə yaşanmaq, nə bürünmək, nə utanmaq?
Bəsdir bu dayanmaq!

Qeyridən əgər ki, edəsən sən bu hicabı,
Billəm ki, sözündür, bəli, məqbulü hesabı,
Yoxsa, məni görcək yüzünə çəkmə niqabı,
Gəl, tanrı üçün, Vaqifə vermə çox əzabı,
Daxi nə yaşanmaq, nə bürünmək, nə utanmaq?
Bəsdir bu dayanmaq!

* * *

## MÜRƏBBEAT

Bir gözəl ki, şirin ola binadan,
Yüz il getsə anın dadı əksilməz.
Köhnəligi, tazəligi bir olur,
Gövhərin qiymətdə adı əksilməz.

Nə qədər ki, yüzə yetürsə yaşı,
Ta ki həddən düşə, titrəsə başı,
Genə can almağa göz ilə qaşı,
Qəmzəsinin heç cəlladı əksilməz.

Cövhəri pak olur tazə cavandan,
Hərgiz əl götürməz şövkətü şandan,
Müjgan xədənglərin keçürür candan,
Peykanının heç poladı əksilməz.



Vaqif, istər isən görəsən ləzzət,
Sev hər bir dərd bilən, əhli-məhəbbət,
Növcəvanlar sevən heç olmaz rahət,
Gecə-gündüz heç fəryadı əksilməz.

* * *

Bir bəyaz gərdənli, mərmər sinəli,
Gərdəninə qurban minalar olsun.
Ucu tər cığalı, siyəh tellərin,
Sədqəsi yaşılbaş sonalar olsun.

Neyləmişəm sana, çeşmi-siyahım,
Sən məndən küsübsən, ey qibləgahım,
Öldür bəni, gər var isə günahım,
Al qanım əllərdə hənalar olsun.

Eşitdim küsübsən, artupdı dərdim,
Yalvarub könlüni almaq istərdim,
Qulluğuna namə yazub göndərdim,
Məndən sana çox-çox dualar olsun.

Vaqif, canan ilə tər oldı arə,
Sən oldun həmdəmim, eylə bir çarə,
Bir qafiyə qayır, göndər ol yarə,
Bəlkə dərdimizə dəvalar olsun.

* * *

## DƏR CƏVABİ-VİDADİ

Ey Vidadi, genə xan qulluğunda
Qaim olub, nə qiyamət eylərsən?
Yaman gözdən Allah özi saxlasun,
İxlas ilə, kişi, xidmət eylərsən!

Belə dursan o qapıda qışü yaz,
Yetişürsən bir çörəğə sərafraz,
Bu doğru yolundan əgilsən bir az,
Yəqin bil ki, çox xəyanət eylərsən!

Bizim hərəmlərdir Quran oxuyan,
Üstündən, başından ənbər qoxuyan,
Olar degil örkən, çatı toxuyan,
Kimin işin kimə nisbət eylərsən!

Dəlv-dəlv qocalubsan babalıq,
İndən belə sal kürkünə yamalıq,
Pis övrətin peşəsidir çul, alıq,
Yaxşılara anı nisbət eylərsən!

Qapuda uzadır uzun gəbəni,
Sayaq dur, tavuğa yedürmə dəni,
Övrət dögə-dögə öldürər səni,
Nə belə yatarsan, qəflət eylərsən!

Bizim də var idi bir keçəl danı,
O da çox eylədi ha bu qovğanı,
O getdi, sən anın toprağı sanı,
İnşaallah, ömür, dövlət eylərsən!

Sizdəki bir övrət qurur bir palaz,
Boşalıb olanda ərişi nasaz,
Çağırur, çaxdurur hər yerinə paz,
Munı ana bir mərifət eylərsən?

Xoş halına sənin, uzun dırnaqlu,
Baldırı çirməklü, yalın ayaqlu,
Yorğanı, yasduğı tozlu, torpaqlu
Həmdəm ilə hərdəm söhbət eylərsən?



Burnun silə-silə qatığı çalar,
Axşamadək eyməsini it yalar,
Altına yıxılğac çər-çər çabalar,
Eşqin yatar, qəti-şəhvət eylərsən!

Bit öldürər, gedər xəmir yoğurur,
Abaçilik eylər, uşaq doğurur,
Söz xəbər alanda çır-çır çığırur,
Qulağların batar, heybət eylərsən!

Axşam-sabah durar əlində çatı,
Buzov bağlar, gəlür tumarlar atı,
Palçığa bulanur sürü süfatı,
Elə zada sən də ülfət eylərsən?

Əllərin, yüzlərin yuduğları yox,
Yaşlarında doğru dedikləri yox,
Hazır çobandırlar, düdükləri yox,
Anlar ilə hərdəm söhbət eylərsən?

Böylə olur tərəkəmə oymağı,
Övrət bilməz kişisindən doymağı,
Özgəyə yedirər yağı, qaymağı,
Qatığına sən qənaət eylərsən?

Günün qulağı ta oradan batar,
Mitilin bürünür çaştədək yatar,
Ev-zadını tamam özgəyə satar,
Əgər yanın bir dəm xəlvət eylərsən!

* * *

İki danə əcəb xosrovşahi,
Lütf eyləmiş ləbi şirin göndərmiş.

Gözəllik bağında meyvə yetirmiş,
Anın bizə xoş novbərin göndərmiş.

Evi abad o ləbləri nabatın,
Candır təlafisi bu iltifatın,
Bilür ki, bilirəm qədrin sovqatın,
Barəkallah, tapmış yerin, göndərmiş.

Gedin deyin o ləbləri Yəmənə,
Buxağı billurə, sədri səmənə,
Eləcə şad oldum, sanasan mənə,
Yerin, gögün simü zərin göndərmiş.

Allaha şükr olsun, o mələkzadə,
Adəm bilüb bizi salupdur yadə,
Şəfqəti vardır həddən ziyadə,
Hələ imdi müxtəsərin göndərmiş.

Ya Rəb, ola, o canana kim demiş,
Filanı xəstədir, meyvə istəmiş,
O ki bizə meyvə ənam eyləmiş,
Vaqif ana peşkəş sərin göndərmiş.

* * *

Həqdir, gözəl çoxdur cahan içində,
Gözəldə bir nazü qəmzə gərəkdir.
Didarını görmək iman tazələr,
Qaşı qiblə, yüzi Kəbə gərəkdir.

Boyu mina gərək, sinəsi mərmər,
Bəyaz ola gül əndamı sərasər,
Əlində al həna, zülfündə ənbər,
Qaşında, gözündə sürmə gərəkdir.



Sallana sultani-dibapuş kibi,
Döndərəndə yüzünü sərxoş kibi,
Sığallana hərdəm tərlan quş kibi,
Tamam sümügündə cilvə gərəkdir.

Barmağında xatəm, guşində tənə,
Gireh-gireh zülfün tökə gərdənə,
Gülabətin köynək, abı nimtənə,
Yaxasında qızıl dügmə gərəkdir.

Pərvanətək özin oda salmağa,
Yaslanuban eşigində qalmağa,
Bir belə gözələ qurban olmağa
Vaqif kibi qəllaş kimsə gərəkdir.

* * *

Bulut zülflü, ay qabaqlı gözəlin
Duruban başına dolanmaq gərək.
Bir evdə ki böylə gözəl olmasa,
O ev bərbad olub, talanmaq gərək.

Sərxoş durub sarayından baxanda,
Ağ gərdənə həmayillər taxanda,
Qaşa vəsmə, gözə sürmə yaxanda,
Canım eşq oduna qalanmaq gərək.

Çıxa sarayından canlar alantək,
Xişmə gələ gəh-gəh qəhri olantək,
Dal gərdəndə qıvrım saçı ilantək
Tərpənəndə hər yan bulanmaq gərək.

Vaqif, sənin işin müdam, ah olsun,
Səg rəqibin ömri qoy kütah olsun,

Həmdəmsiz kimsənə, istər şah olsun,
Gədadır o kimsə dilanmaq gərək.

* * *

Açıqbaşda əgər olsa bir dilbər,
Onda bu nişanlar müəyyən gərək:
Əndamı ayinə, qəddi mötədil,
Siyəh zülfi qamətinə tən gərək.

Yanağı laleyi-bahari kibi,
Ləbləri yaqutun kənarı kibi,
Bir danə nasüftə mirvari kibi,
Başdan ayağadək ağ bədən gərək.

Təmizlikdə ola meylü həvəsi,
Olmaya aşiqə nazü qəmzəsi,
Gül təki qoxuya nitqü nəfəsi,
Zülfi ya bənəfşə, ya səmən gərək.

Qövli sadiq ola, hər feli halal,
Bilməyə ki, fitnə nədir, məkrü al,
Şəm kibi qabaqda dura nitqi lal,
Kəsilsə də başı, dinməyən gərək.

Növrəsidə on dört, on beş yaşında,
Eyb olmaya kiprigində, qaşında,
Həyası yüzündə, əqli başında,
Ağzı, burnu nazik, yüzi gen gərək.

Tavus kibi cilvələnə hər səhər,
Bəzək verə camalına sərbəsər,
Dindirməmiş verə könüldən xəbər,
İşarə anlayub, hal bilən gərək.



Yaşadıqca cavanlana, yenlənə,
Bir hicabda, bir pərdədə əglənə,
Nitqü nəfəsindən canlar dinlənə,
Qulluqda, söhbətdə müstəhsən gərək.

Yaxşı canan gərək, Vaqif, can içün,
Çox çalışmaq nədir bu cahan içün?
Bir gözəl lazımdır bizim xan içün,
Vali qulluğunda ərz edən gərək.

* * *

Anın içün uymaz qeyriyə könlüm,
Bir əcəb zibadır mənim sevdigim.
Huri nədir, qılman nədir, mələk nə,
Hamudan əladır mənim sevdigim.

Zülfləri sünbüldür, yanağı lalə,
Baxışı tən edər vəhşi qəzalə,
Gözləri məstanə, ağzı piyalə,
Gərdəni minadır mənim sevdigim.

Ayna dutar, zənəxdanə gül düzər,
Hər muyinə yüz min fitnə-fel düzər,
Bəyaz gərdəninə siyəh tel düzər,
Sanasan, sonadır mənim sevdigim.

Boyu yaraşıqlı, sərvi-xuraman,
Əndamıdır ağ gül, sinəsi meydan,
Kəlağayı gülgəz, libası əlvan,
Bir güli-rənadır mənim sevdigim.

Vaqifəm, zülflərin bəndivaniyəm,
O kaman qaşların mən qurbaniyəm,

Mana qədr eylə kim, gövhər kaniyəm,
Demə ki, molladır mənim sevdigim.

* * *

Ey Kəbəm, Kərbəlam, Məkkəm, Mədinəm,
Hər zaman kuyində ziyarətimdir.
Qiblə deyib, qaşlarına baş əgmək,
Gecə-gündüz mənim ibadətimdir.

Hər nə desəm, sən incimə sözümdən,
Sərxoşunam, yox xəbərim özümdən,
Şol qamətin yayılanda gözümdən,
Sanasan ki, həşri-qiyamətimdir.

Bağlamışam din-imanı zülfünə,
Mənim kibi heyran hanı zülfünə?
Tapşurub gedirəm canı zülfünə,
Yaxşı saxla, səndə əmanətimdir.

Sənsən mənim ayım, günüm, hilalım,
Dövlətim, iqbalım, cahım-cəlalım,
Gözəl yüzün daim fikrü xəyalım,
Sözün dildə şirin hekayətimdir.

Sonalar xəcildir siyəh telindən,
Tutilər lal olur şirin dilindən,
Şikəstə Vaqifəm, sənin əlindən
Hər kimə ki, yetsəm şikayətimdir.

* * *

Sevdigim, ləblərin yaquta bənzər,
Sərasər dişlərin dürdanədəndir.
Sədəf dəhanından çıxan sözlərin
Hər biri bir qeyri xəzanədəndir.



Nədəndir sözümə cavab verməmək,
Həm camal gizləyüb, yüz göstərməmək?
Gecələr gözlərim xabı görməmək,
Ol siyəh nərgisi-məstanədəndir.

Mən ha səni nuri-ilahi sannam,
Camalının şöləsinə dolannam,
Atəşinə mərdi-mərdanə yannam,
Bu xasiyyət bana pərvanədəndir.

Bir namə yazmışam can üzə-üzə,
Badi-səba, apar sən o gül yüzə,
Soruşsa yar ki, bu kimdəndir bizə?
Söyləgilən: – "Sizin divanədəndir".

Xumar-xumar baxmaq göz qaydasıdır,
Lalətək qızarmaq yüz qaydasıdır,
Pərişanlıq zülfün öz qaydasıdır,
Nə badi-səba[dan], nə şanədəndir.

Müştaqdır yüzünə gözi Vaqifin,
Yolunda payəndaz yüzi Vaqifin,
Sənsən fikri, zikri, sözi Vaqifin,
Qeyri söz yanında əfsanədəndir.

* * *

Ey şahı xubların, şuxi dilbərin,
Səndən sənubərin xəcaləti var.
Xoş yaraşur sana diba, nimtənə,
Bu bəzəgin genə əlaməti var.

Bu zibü zinətin şanü şövkətin,
Meraci-rifətin, babi-dövlətin,

Hüsni-məlahətin, çeşmi-afətin,
Bu qəddü qamətin qiyaməti var.

Məhbubi-müntəxəb, bir ali nəsəb,
Qəmzəsində qəzəb, sən saxla, ya Rəb,
Gülrüxi-qönçələb, turunci-qəbğəb,
Lisanında əcəb hekayəti var.

Olmaz böylə adəm, yığılsa aləm,
Mələkdən mükərrəm, əlavü əzəm,
Özü bir şux sənəm, istiğnası kəm,
Bizə amma, hərdəm nəzakəti var.

Qaşı yay, çeşmi şux, müjganları ox,
Cümlə kəsdən artux bərabəri yox,
Camalı yanında ayü gün mənsux,
Vaqifin andan çox şikayəti var.

* * *

Ey camalı günəş, zülfləri dilkəş,
Cana saldın atəş, çıxanda sərxoş.
Qaldım yanə-yanə, misli-pərvanə,
Olmuşam divanə, getdi əqlü huş.

Çeşmin aldı canı, zülfün imanı,
Kipriklərin qanı tökər nihanı,
Ey Yusifi-sani, məlahət kanı,
Sana bənzər hanı dilbər ləbinuş.

Zəhi pəripeykər, qəddi sənubər,
Aləm sana yeksər qulami-kəmtər,
Sənsən əcəb sərvər, sərdari-ləşkər,
Sultani-ziəfsər, şahi-dibapuş.



Hicrində bizarəm, zəlilü xarəm,
Müştaqi-didarəm, ixlasına rəm,
Ba ahü zarəmü dər intizarəm,
Qövlünə əğyarın gəl eyləmə guş.

Boyun sərvi-cənnət, gülşəni-zinət,
Qaşın məddi-ayət, qibleyi-taət,
Vaqifəm, pürmöhnət, çox çəküb həsrət,
Ta səninlə xəlvət ola həmağuş.

* * *

Siyəhtel görmədim Kür qırağında,
Məgər heç yaşılbaş olmaz bu yerdə?
Tərlan könlüm yenə uca dağlara
Havalanub, hərgiz qonmaz bu yerdə?

Bu diyarda kəlağay yox, kətan yox,
Sinəm buta, müjgan oxun atan yox,
Sərxoş durub bir nəzakət satan yox,
Heç sövdagər fayda bulmaz bu yerdə.

Bəzək bilməz bu diyarın göğçəgi,
Tanımaz al çarqad, zərrin ləçəgi,
Ağ buxaq altından həlqə birçəgi,
Tər məmə üstündən salmaz bu yerdə.

Yarın xəyalilə bu gün mən şadəm,
Qəribligə düşsəm, qan ağlar didəm,
Pərisi yanında olmayan adəm,
Nə yaxşı, sağ qalur, ölməz bu yerdə.

Desələr ki, Vaqif, nə gəldi sənə,
Rəngi-ruyin dönüb heyvayə genə,

Əli tər məmədən üzən kimsənə,
Saraluban necə solmaz bu yerdə?

* * *

Kür qırağının əcəb seyrəngahı var,
Yaşılbaş sonası, heyif ki, yoxdur!
Ucu tər cığalu siyəh tellərin,
Hərdəm tamaşası, heyif ki, yoxdur!

Ucu əşrəfili bulut kibi saç,
Dal gərdəndə hər örügi bir qulac,
Kəlağayı əlvan, qəsabə qıyqac,
Altından cunası, heyif ki, yoxdur!

Çünki yornuğuyam mən bu yolların,
Qaidəsin billəm hər üsulların,
Gümüş biləklərin, bəyaz qolların,
Sarı kəhrəbası, heyif ki, yoxdur!

Vaqif həqdən dilər lütfü kərəmlər,
Belə yerdə duran, vallah, vərəmlər,
Genə yadə düşdü bizim sənəmlər,
Getməgin binası, heyif ki, yoxdur!

* * *

Göz qaldı yollarda, can intizarda,
Gəlmədi canandan tazə bir xəbər.
Mənim taqətim yox qələm dutmağa,
Kim ola ki, yarə yazə bir xəbər.

Nə qədər ki, mən ağlaram dəmadəm,
Əhvalım bilürmi, ola o həmdəm,
El tamam yağıdır, yoxdur bir adəm,
Verə bəndən pərinazə bir xəbər.



Gör hesabın mən çəkdigim azarın,
Bu dadü fəryadın, bu ahü zarın,
Badi-səba, əgər düşsə güzarın,
Söylə xəlvət o həmrazə bir xəbər.

Bülbüli qönçeyi-xəndan öldürdi,
Pərvanəni şəmi-suzan öldürdi,
Vaqifi atəşi-hicran öldürdi,
Aman, verin o şahbazə bir xəbər.

* * *

Ey siması tərlan, sinəsi tuyqun,
Sonatək tellərin cığalanupdur.
Başına dönməkdən əlmi götürrəm,
Can mürği zülfündə yuvalanupdur.

Yoxdur bərabərin insanda sənin,
Hurisən, pərisən, behişt məskənin,
Şümşad kibi çəkilüpdür gərdənin,
Sürahiyə dönüp minalanupdur.

Tutilər söz tərhin danışa yüz gəz,
Belə şirin-şirin danışa bilməz,
Ağ əllərin olub əcaib gülgəz,
Qanə batub, yoxsa, hənalanupdur?

Qaşın cəllad, gözün şuxi-sitəmkar,
Hər baxanda yüz qan eylər aşikar,
Genə can almağa xəyalınmı var?
Məstanə gözlərin alalanupdur.

Vaqifə, ey sənəm, cövri az eylə,
Xəyalını xəyalıma saz eylə,

Bundan belə bizi sərəfraz eylə,
Canım çox yolunda cəfalanupdur.

* * *

Genə bayram oldu xublar evində,
Sanasan, açılub tazə gül bu gün.
Bənəfşə zülfləri alasan ələ,
Şanətək gəzəsən telbətel bu gün.

Kim ölə, kim qala bu bayramadək,
Cəhd elə, yetəsən güləndamədək,
Gecələr sübhədək, ta axşamadək,
Yarın gərdənində ola qol bu gün.

Sanasan yüzini ərəq nəmidir,
Elə bahar fəsli, gül şəbnəmidir,
İxtilat bazarı, söhbət dəmidir,
Gərək düşə dost kuyinə yol bu gün.

Tamaşa qılasan qaşa, qabağa,
Sürtəsən yüzini zülfə, buxağa,
Yar bəzənüb, durub canlar almağa,
Ölməlü günündür, Vaqif, öl bu gün.

* * *

Ey cananım, sən bəzənüb gələndə,
Ayü gün qarşuna pişvazə gedər.
Kəbeyi-kuyinə gündə min kərrə,
Mələklər yığılub namazə gedər.

Ağ gülə təşbihdir sənin camalun,
Eşqindən salmışam aləmə bir ün,
Səni sevən cavan olur günbəgün,
Qarımaz, qocalmaz tər-tazə gedər.



Sənubər qamətin nə xoşxüramdır,
Həsrətindən sızıldayan yaramdır.
Səndən ayru dirilik mana haramdır,
Axır bir gün ömrim güdazə gedər.

Sən gülsən, bülbül sev, xarı istəmə,
Hərgiz kamal istə, varı istəmə,
Meyl elə Vaqifə, sarı istəmə,
Özi şahbaz olan şahbazə gedər.

* * *

Yay qaş bucağında, al yanağ üstə,
Nə xoş xumarlanur məstanə gözlər.
Sürməlü kiprikdən oxlar çəkilür,
Eləyüb bağrımı nişanə gözlər.

Qəmzə peykanilə tökdi qanımı,
Xətalara saldı din-imanımı,
Əgri durdı, süzgün baxdı, canımı
Aldı o şux gözlər, amma nə şux gözlər!

Siması şəhlayi, tərhi badami,
Baxışı mehriban, özi harami,
Quldur ana siyəh zülfün tamami,
Ola bilməz belə şahanə gözlər.

Səmən iglü, səhabi zülf, ay qabağ,
Qönçə dəhan, dürr diş, ərğəvan dodağ,
Münəvvər yüz, lalə zənəx, tər buxağ,
Tamam bir yanədir, bir yanə gözlər.

Vaqif ki düşüpdür əqlü kamaldan,
Əksük olmaz başı qovğadan, qaldan,

Nə zülflərdən bilin, nə xəttü xaldan,
Eləyüpdür anı divanə gözlər.

* * *

Çox zamandır yarın həsrətindəyəm,
Gələydi, bir anı, barı, görəydim.
Bülbültək fəryadım çıxdı fələgə,
Cənnət iglü gülüzarı görəydim.

Basaydı yüzimə gül ayağını,
Öpəydim yüzini, həm dodağını,
Gah açaydım ağ sinənin bağını,
Qoynundakı qoşa narı görəydim.

Gah alaydım gərdənini qucağa,
Gah yüzim sürtəydim zülfə, buxağa,
Gah da oturaydım qabağ-qabağa,
Danışaydı, xoşgöftarı görəydim.

Bilürmi ola bağrımdakı yaranı?
Necə yaxmış məntək güni qaranı,
Yar məndən kəsməzdi belə aranı,
Bu qoymayan kimdir, barı, görəydim.

Vaqifəm, hicrandır mənim məhşərim,
Gecə-gündüz canan olmuş əzbərim,
Kərəm eyləyübən gəlsə dilbərim,
Kəsilürmi ahü zarı, görəydim?

* * *

Ay kənarı qabağında qıy kimi,
Bürünür, çulğanur yanağa zülfün.
Sanasan bulutdur, ənvər yüzünü
Bədr ayıtək almış qucağa zülfün.



Şahmar təki gərdənində bulanur,
Gülab ilə sığallanur, sulanur,
Həlqə düşüb, buxağ altda dolanur,
Baş qoyar, sarınur qulağa zülfün.

Xəstə Vaqif anın sərgəştəsidir,
Bağrı qızıl qanın ağüştəsidir,
Hər tari-tərrarın can riştəsidir,
Qoyma ki, tökülsün ayağa zülfün.

* * *

Genə məni yanar-yanar odlara,
Dağılmış ayrılıq saldı, sevdigim!
Mən ha oldum möhnət ilə, dərd ilə,
Can sənin yanında qaldı, sevdigim!

Siyəh zülfün buxağ altda qıvrılur,
Ala gözlər can alma[ğa]sayrılur,
"Candan ayrılan, candan ayrılur",
Xəlq içində bir məsəldir, sevdigim!

Sərv qəddin sənubərə tən degil,
Tamam sənin təki gülbədən degil,
Dəxi əzəlkitək sən görən degil,
İmdi halım yaman haldı, sevdigim!

Ol Xədicə haqqı, Səkinə haqqı,
Xeyrünnisa haqqı, Əminə haqqı,
Kəbə, Məkkə haqqı, Mədinə haqqı,
Dərdin bu Vaqifi aldı, sevdigim!

* * *

Qaynar gözlərindən, şux baxışından,
Əcaib fitnələr, fellər görünür.
Səf-səf duran siyəh kipriklərmidir?
Yoxsa ki, gözümə millər görünür?

Gedən, getmə, bir bəri bax, ey gedən,
Gözüm doymaz səntək gözəl kimsədən,
Gah yaxadan şölə verür ağ bədən,
Gah olur ki, nazik əllər görünür.

Qəddin tənə urar o sərvi-nazə,
Can qurban eylərəm səntək şahbazə,
Yüzün kibi zülfündürür tər, tazə,
Nə lalələr, nə sünbüllər görünür.

Vaqif, yad et səni yad eyləyəni,
Mən sevirəm mana yarım deyəni,
Qoymaz göz önündən sevən sevəni,
Könüldən könülə yollar görünür.

* * *

Al geyinüb çıxsan gülşən seyrinə,
Yığılur başına güllər, dolanur.
Mahtabi-hüsnünə bəndə fərmandır,
Qulluğunda aylar, illər dolanur.

Görməmişəm səntək bir mələkzadə,
Dərdini çəkərəm həddən ziyadə,
Kipriklərin ucu düşəndə yadə,
Bağrımın başında millər dolanur.

Mən bir Fərhad, sən bir Şirindəhansan,
Dərdin zahir, amma özün nihansan,



Gözəllik babında şahi-cahansan,
Qulluğunda daim ellər dolanur.

Ləblərin bağrımı pürxun eyləmiş,
Açılmış göz yaşım Ceyhun eyləmiş,
Həsrətin Vaqifi Məcnun eyləmiş,
Anınçün gəzir, çöllər dolanur.

* * *

Doldı dimağıma zülfün ənbəri,
Valeh oldı könül havadan sana.
Əlim yetməz, namə yazub dərdimi,
Göndərürəm badi-səbadan sana.

Oturuşun gözəl, duruşun gözəl,
Sallanışın gözəl, yerişin gözəl,
Xoyun, xülqün gözəl, hər işin gözəl,
Bəxş olub bu xubluq Xudadan sana.

Qəm evindən saldın küncə Vaqifi,
Elədin muyindən incə Vaqifi,
Neçün incidürsən munca Vaqifi,
Nə hasil, bu cövrü cəfadan sana?

* * *

Bir əndamı nəsrin, dodağı qönçə,
Bir qaməti gülbün yarə aşiqəm.
Olsa yüz üzi gül, girməz eynimə,
Mən ancaq bir gülüzarə aşiqəm.

Gecələr sübhədək eylərəm nalə,
Hərgiz düşməz könlüm özgə xəyalə,
Bir gərdəni mina, ağzı piyalə,
Bir ləhcəsi şirinkarə aşiqəm.

Bir buxağı turunc, sinəsi meydan,
Bir sözi cəvahir, mirvari dəndan,
Bir maral baxışlu, kiprigi peykan,
Bir qaşları zülfüqarə aşiqəm.

Bir güləndə ləblərindən qənd axan,
Bir bəzənüb sərməst tavustək çıxan,
Bir niqab altından pünhani baxan,
Bir əcaib xoşgöftarə aşiqəm.

Vaqifəm, bədəndən canım dağılur,
Məcnun kibi xanimanım dağılur,
Görməyəndə din-imanım dağılur,
Gecə-gündüz mən didarə aşiqəm.

* * *

Zülfün başı taxtalanub qabağda,
Qıraq verür qəsabanın altından.
İlan quyruğutək qoşa qıvrılmış,
Ucı çıxmış zənəxdanın altından.

Qaşın işarəsi, gözün xumarı,
Hər birisi yüz min fil kamandarı,
Tər sinədə ağ məmənin kənarı,
Şölə verür giribanın altından.

Sənin hüsnün mat eyləyüb fələgi,
Cənnətdə hurini, gögdə mələgi,
Qızıl qolbağları, bəyaz biləgi,
Qucağlayub kəhrəbanın altından.

Aparupdur məndən ruhi-rəvanı,
Tamam əqlü huşu, dinü imanı,



Ağaranda gülgəz yanağın yanı,
Titrər zülfi-pərişanın altından.

Vaqif cananına göndərdi peyğam,
Gözüm yollarında qaldı sübhü şam,
Gəlmədi bir sərvi-qəddi-güləndam,
Biz çıxaydıq bu hicranın altından.

* * *

Badi-səba, bir müjdə ver könlümə,
Ol güli-xəndanım neçün gəlmədi?
Xəyalım şəhrini qoydı viranə,
Sərvərim, sultanım neçün gəlmədi?

Ağzı xeyir sözlüm, dili diləklüm,
Bir türfə ağ əllüm, gümüş biləklüm,
Qarıçqay cilvəlüm, tavus bəzəklüm,
Libası əlvanım, neçün gəlmədi?

Qaşı kaman, kiprikləri qəməlüm,
Ağzı şəkər, dodağları yeməlüm,
Əlvan kəlağaylı, bəyaz məməlüm,
Sinəsi meydanım, neçün gəlmədi?

Vaqif, ilə döndi bir saətimiz,
Nə səbrimiz qaldı, nə taqətimiz,
Olur indən belə qiyamətimiz,
Gəlmədi cananım, neçün gəlmədi?

* * *

Genə səni gördüm, bağrım oxlandı,
Ey əfi baxışlu, havalı sərxoş!
Yüzün gögçək, qaşın cəllad, gözün şux,
Görmədim sən təki maralı sərxoş!

Didarına müştaq olub qalmalu,
Başına dönmәlü, dәrdin almalu,
Bir ayna qabaqlı, әgri çalmalu,
Әlvan kәlağaylı, sәfalı sәrxoş!

Gözlәri sürmәlü, yanağı xallu,
Bir laçın sövdalu, tәrlan xәyallu,
Qolları bazubәndlü, boynu heykәllü,
Ağ әllәri әlvan hәnalı sәrxoş!

Oturuşu Şirin, duruşu Leyli,
Qәmzәsi sitәmkar, yarı gileyli,
Gecә-gündüz zövqü sәfada meyli,
Hәm özi, hәm fikrü xәyalı sәrxoş!

Әqlin aldın, yarә deyin Vaqifin,
Yanıltdın әlifin, beyin Vaqifin,
Yüz göstәrdin, yıxdın evin Vaqifin,
Görmәdim sәn tәki bәlalı sәrxoş!

* * *

Oğrun baxa-baxa, ey çeşmi-nәrgis,
Dәrdә saldın mәni, xәstәhal etdin.
Hәsrәtindәn öldüm, öldüm, dirildim,
Nә bir yadә saldın, nә sual etdin.

Hәr mәni görәndә, ey çeşmi-yağı,
O qәdәr eylәdin canlar almağı,
Gah göstәrdin, gah gizlәdin yanağı,
Axır mәni dәrdә saldın, al etdin.

Әzәldәn var idi lütfü kәrәmin,
Gahbәgah biriya seyri-qәdәmin,



Varә-varә artdı zülmü sitәmin,
Bilmәdim, sonradan nә xәyal etdin.

Uzun illәr qaldım sana mәn hәsrәt,
Zәrrәcә görmәdim mehrü mәhәbbәt,
Hәr zaman ki, sәndәn umdum şәfәqqәt,
Bir dava başladın, qalmaqal etdin.

Hәmişә bu idi fikrü xәyalım,
İkimiz bir yerdә hәmdәm olalım,
Neylәmişdi sana Vaqif, a zalım,
Anı qәm әlindә payimal etdin.

* * *

## BE TӘRİQİ-HӘZL

Bayram oldu, heç bilmirәm neylәyim,
Bizim evdә dolu çuval da yoxdur.
Dügilә yağ hamı çoxdan tükәnmiş,
Әt heç әlә düşmәz, motal da yoxdur.

Allaha bizmişik naşükür bәndә,
Bir söz desәm dәxi qoymazlar kәndә,
Xәlq batupdur noğla, şәkәrә, qәndә,
Bizim evdә axta zoğal da yoxdur.

Bizim bu dünyada nә malımız var,
Nә dә evdә sahibcamalımız var,
Vaqif, öyünmә ki, kamalımız var,
Allaha şükür ki, kamal da yoxdur.

* * *

## EYZƏN

Bir belə cavanın əqli kəm olsa,
Baxırsan ki, sevgisinə naz edər.
Can qurban edəni qoyar burada,
Gedər özgələri sərəfraz edər.

Əzəl özi deyər: di, dur gəl bəri,
Sən durarsan, ayağ qoyar o geri,
Nə özi yarıdır, nə sevər yarı,
Bir parə adamı gər ki vaz edər.

Durğuzarsan, yüzün divarə dutar,
Fikr edüb, fikr edüb, mürgülər, yatar,
Dindirərsən dinməz, ağırlıq satar,
Sinəsində şıq-şıq pul avaz edər.

Sevəni sevirəm canü baş ilə,
Gözümün düşməni didə yaşilə,
Bir yar ki, danışa gözü qaş ilə,
Vaqif ana canı payəndaz edər.

* * *

## EYZƏN

Duruban eşqilə güzar eylədim,
Bir pərinin oldum mehman evində.
Zərrəcə görmədim hörmət, izzətin,
Qaldım elə peşman-peşman evində.

Ta ki, məni gördi o qəlbi qarə,
Çəkdi yamşaqını o gül rüxsarə,
Döndərdi yüzini, dutdı divarə,
Sanasan ki, yoxdur insan evində.



Dodağı şəkkərdir, göftarı şərbət,
Nə fayda, eyləməz şirin məhəbbət,
Müxlisi ki, yoxdur anda bir ləzzət,
Boldur elə acı qəlyan evində.

Keçmə o dilbərin sən otağından,
Tər bənəfşə qoxur hər bucağından,
Sanki bir guşədir cənnət bağından,
Açılupdur güli-əlvan evində.

Vaqif, bir kimsə ki, bizdən yaşına,
Yəqin bil ki, bizlən olmaz aşina,
Gəldügimiz heç gəlmədi xoşuna,
Tapdım mən halını ürfan evində.

* * *

Dad əlindən sənin yaman həmsayə,
Həqq rəhmət eyləsün Bədmisayə.
O ki bənzəməzdi heç bir kimsayə.

Nə fayda, dünyadan getdi namurad,
Olmadı bir zad, düşmən oldu şad.
Düşmənin ki fürsət ola dəstində,
Etimad bulunmaz bəndü bəstində,
Nəyin var durursan quyu üstündə.

Bəlkə ərin bundan annıya bir zad,
Törəyə fəsad, düz otur, arvad.
Arvad, billah, sənin çıxacağın var,
Yoxdu səndə məgər namusla ar?
Nədir bölük-bölük, bu qatar-qatar.

Düzübsən ardına qazaği-əkrad,
Gürci Tuad şam, ..... bamdad.

Bamdad vəqtində Noruz uymuşdı,
Aparub qatırı ota qoymuşdı,
Təxtəsin, sərçulun ləzgi soymuşdı.

Kirvə Məhəmməd bəg, dövlətün ziyad,
Həm evin abad, sümügün polad.
Poladdan artuqdur canı ləzginin,
Heç kimə qaynamaz qanı ləzginin,
Əgər xəbər alsan sam ləzginin.

On səkkiz min oldı hesabi-edad,
Həqq etsə imdad, dayanmaz Bağdad.
Bağdadü Bəsrə, bir də Ərdəbil,
Məhəmməd bəg bizə göndərmişdi hil,
Körpi kəndi, Xəlacyəxay kəndə bil.

Şamaxıvü Salyan pərakəndə bad,
Bir də əl Cavad "binnun vassad".
Sad surəsin oxu gecəvü gündüz,
Ağqız oğlu Piri ol yoluna düz,
Neylərsən istəmiş inək, ya öküz.

Çəkil bir guşəyə Həqqi elə yad,
Tapulsa bir zad, ol ana mötad.

* * *

## QƏZƏLİYYAT

Vidadidən gələn kağız məni fərxəndəhal etdi,
Bu halı gördi qəm, filhal məndən intiqal etdi.

Uçub könlüm quşı, pərvaz qılsa övci-əlayə,
Əcəb yox kim, bu məktubu özünə pərü bal etdi.



Ziyayi-şəmstək yetdi, məni bədr eylədi, hala,
Əgərçi qəddimi dövran filmazi hilal etdi.

Savadı namənin, ey dil, məgər zülmati-heyvandır
Ki, ruhum Xızrtək andan bəsa kəsbi-kamal etdi.

Xəyal etmişdi Vaqif kim, rəvan bir xoş qəzəl yazsın,
Rəvan olmuşdı qasid kim, munı ancaq xəyal etdi.

* * *

Salmaq nəzərindən məni canənə düşərmi?
Tərk eyləmək öz qulunu sultanə düşərmi?

Kakil nə rəvadır ki, könüldən edə qeybət,
Şanə gileyi-zülfi-pərişanə düşərmi?

Qəmzən ləbini dişləməmiş, qanımı tökdi,
Qan eyləməyən kimsənə heç qanə düşərmi?

Dil çahi-zənəxdanə düşüb zülfün ucundan,
Əlbəttə, xətasız kişi zindanə düşərmi?

Ol sərvi-xuramana ki, gəzmək olub adət,
Bir yol yolu, gör kim, bizim eyvanə düşərmi?

Olmazsa əgər Vaqifə bir sədri-səmən yar,
Top eyləyübən başını meydanə düşərmi?

* * *

Aydın olsun gözlərim kim, gəldi yarın kağızı,
Könlümi şad eylədi gözəl nigarın kağızı.

Oxudum, öpdüm, yüzə sürtdüm, dedim: səd mərhəba!
Gözüm üstə var yerin, ol gülüzarın kağızı.

Səndən ayrı ol qədər qan ağladım kim, dəmbədəm,
Yaşə batub, islanub səbrü qərarın kağızı.

Qeyri yarı, ey gözəl, qılma bədəl, sən Vaqifə,
Yadigar saxla, bu olsun etibarın kağızı.

* * *

Mehribanlıq görməyüb bir məhliqadan küsmüşəm,
Gündə yüz al eyləyən, qəlbi qaradan küsmüşəm.

Şanına dedim şirin söz, bir şey andan dadmadım,
Bu səbəbdən ağzı şəkkər, dilrübadan küsmüşəm.

Bir qədəh mey istədim, sındırdı könlüm şişəsin,
Daş bağırlu saqiyi-sahibcəfadan küsmüşəm.

Çün "uman yerdən küsərlər" – bir məsəldir xalqara,
Küsdügüm bica degildir, aşinadan küsmüşəm.

Gördüm əvvəl kim, binasın yarlıq etmək degil,
Vaqifa, əsli budur, mən bu binadan küsmüşəm.

* * *

Hər gedən gəlmiş, mənim ol qəmküsarım gəlməmiş,
Ey gözüm, qan ağla kim, çeşmi-xumarım gəlməmiş.

Getmiş idi ixtiyarım beləsincə yarımın,
Çünki yarım gəlməmiş, həm ixtiyarım gəlməmiş.

Mən bu dərd ilə əgər ölsəm, məzara qoymayın,
Üstümə ol tuti dilli şux nigarım gəlməmiş.

Deməsün, Vaqif, əcəl ki, gəlsə məndən can alur,
Kimdir ana can verən, fərmani-yarım gəlməmiş?

* * *



## BE VİDADİ DƏR VƏQTİ-GƏŞTƏN AĞA MƏHƏMMƏD XAN

Ey Vidadi, gərdişi-dövrani-kəcrəftarə bax!
Ruzigarə qıl tamaşa, karə bax, kirdarə bax!

Əhli-zülmü necə bərbad eylədi bir ləhzədə,
Hökmi-adil padşahi-qadirü qəhharə bax!

Sübh söndi, şəb ki xəlqə qiblə idi bir çırağ,
Gecəki iqbalı gör, gündüzdəki idbarə bax!

Taci-zərdən ta ki ayrıldı dimaği-pürqürur,
Payimal oldu təpiklərdə səri-sərdarə bax!

İbrət et Ağa Məhəmməd xandan, ey kəmtər gəda,
Ta həyatın var ikən nə şahə, nə xunkarə bax!

Baş götür, bu əhli-dünyadan ayağ dutduqca qaç,
Nə qız nə oğula, nə aşna nə yarə bax!

Vaqifa, göz yum, cahanın baxma xubü ziştinə,
Yüz çevir ali-əbayə, Əhmədi-Muxtarə bax!

* * *

Yarım nə gözəl geyinib, əlvan bəzənüpdür,
Balapuşi-yaşıl,
Gülşəndə, sanasan, güli-xəndan bəzənüpdür,
Xurşidə müqabil.

Sübh duruban cilvə verür iki yanağa,
Dünyayə salur nur,

Bir hüsni-bədi-tələti-taban bəzənüpdür,
Xoş rövnəqi-kamil.

Fitnə gözünə sürmə çəküb, qaşına vəsmə,
Can almağa durmuş,
Hər qəmzəsi bir afəti-dövran bəzənüpdür,
Bir qəmzəsi qatil.

Ənbərmi və ya müşki-Xotən, reyhan iyisi,
Hərdəm gəlür andan,
Səndəl qoxulu zülfi-pərişan bəzənüpdür,
Qarətgəri-kabil.

Vaqif, nə tamaşa, nə əcaib, nə qiyamət,
Ərər xəcil oldu,
Ta gördi ki, ol sərvi-xuraman bəzənüpdür,
Aləm ana mail.

* * *



## ƏŞARİ-ZAKİR

## MÜXƏMMƏSAT

Divanə könül, daxi usan yal ağarupdur,
Pərvaz eləmə, bəsdü, pərü bal ağarupdur,
Sərdən bu həvavü həvəsi sal, ağarupdur,
Əvvəl nə isə, indi ki, əlhal ağarupdur,
Layiq dögi mundan sora, saqqal ağarupdur.

Bir neçə zaman al, yaşıl geydim və taxdım,
Hər qaşı, gözi sürməlüni gördüm axdım,
Rüxsarəsinin atəşinə canımı yaxdım,
Otuzdan iki, üç keçmişdi güzgüyə baxdım,
Gördüm yoxa çıxmış genə, xal-xal ağarupdur.

Sallandı surim, başıma həm qopdı qiyamət,
Ol yüzüqara bir neçə dəm vermədi fürsət,
Öz-özümə dedim ki, düşüb qürrəyə əlbət,
Ayda, yarım ayda çəkilüb bir yerə xəlvət,
Çəkdim nə qədər hər nə ki, filhal ağarupdur.

Deyimmi, deməyimmi ki, bu ildən ağarub baş,
Müşkül burasıdır ki, nihan sirr olacaq faş,
Nifrət edəcək yari-qədim, həmsərü sirdaş,
Yolmaq ilə sən daxi gərəkdir qoyasan aş,
Çəkməkdən ötüb başı, bütün sal ağarupdur.

Məhvəşlərə xoşdur, nə ki, oğlan danışsa,
Yüz fohş deyüb, hərzəvü hədyan danışsa,
Ağsaqqal əgər ayeyi-Quran danışsa,
Başdan ayağa hikməti-Loğman danışsa,
Axırda der: söyləmə, naqqal, ağarupdur.

Ol çeşmi qəzalim eləyə məndən əgər rəm,
Mən eləmə, ifriti görəndə qaçar adəm,
Həmyaşın olur bir-birilə ülfəti möhkəm,
Rişim xəti-cananla yekrəng idi bir dəm,
Netsün dəxi biçarə, bu minval ağarupdur.

Qumraldan isə yaxşıdu dümağ olanı,
Çox yerdə derlər ki, durun, gəldi filanı,
Əlbəttə, səd əlbəttə, ana yaxma hənanı,
Guya, açılanda çənəyin hər iki yanı,
Ağ tavuq alub ağzına çaqqal, ağarupdur.

Ol xanəxərabın tüki bir rəng, ola barı,
Nə qarədü, nə qırmızı, nə ağ, nə sarı,
Əsli bu ki, bir zad degil alsun səni tarı,
Bir hal ilə ağ olsa idi səhl idi karı,
Amma bu paraq quyruğı bədhal ağarupdur.

Bundan sora laf urma, könül, özgə hünərdən,
Səndən nə gəlür, salma qonum-qonşını sərdən,
Qoyma apara qarğa quşı sərgini dərdən,
Xublar duramaz, adətidir s....ğı yerdən,
Görsə ki, gülür yüz çənəsi, çal ağarupdur.

Saqqallu ilə sadələrin olmaz arası,
Novxəttə məhəl qoysa da, bil, yoxdu çarası,
Onunki odur tüksüz ola gözi qarası,
Əndamə düşər rəng ilə beş gün zəğarası,
Çe sud, görərsən ki, genə dal ağarupdur.

Keçdi o ki, zövq eylər idün gah səfərdə,
Evdə oturanda meyü məhbubi-nəzərdə,
İndi dəxi yox tabü təvan canü cigərdə,
Gəh yanını ver balışa, gəh çıx günəvərdə,
Çək kürkün ucun başına, donbal, ağarupdur.



Yalın ki ağardı sana müştaqi-zən olmaz,
Yüz təh verəsən içinə əsla çezən olmaz,
Başdan-ayağa yaşılü alə bəzən, olmaz,
Bostanda çürür, rəğbət edüb bir üzən olmaz,
Hər meyvə ki tağmürdə olub, kal ağarupdur.

Zakir, yapış ol Əhmədi-Muxtar ətəgindən,
Xeybər dağıdan Heydəri-Kərrar ətəgindən,
Bifaydadır, yüz dutasan yar ətəgindən,
Baxmaz yüzünə, əl götü[r] dildar ətəgindən,
Eşşək də yeməz kim, görə qanqal ağarupdur.

* * *

## DƏR ŞİKAYƏTİ-ƏZ DƏHRİ-SÜFLƏNƏVAZ DUNPƏRVƏR

Əfsus, günim keçdi şərü şur ilə daim,
Gəldi dəmi-rehlət.
Dutmuş hələ dünyanı könül hirs ilə qaim,
Tədbirinə lənət!
Getdi həmə həmdərdi-xoşəxlaq, mülayim,
Qaldım mən həsrət.
Çöldə Əli bəg, təhdilüdür Qələdə tayım,
Onlar da kəmülfət.
Yoxdur ədədi fövt olanın, hansını sayım?
Məcnuna rəhmət.

Ağzımda uçuq qəbrə dönüb otuz iki diş,
Üç-dördü qalupdur.
Bir-birini dutmaz dəxi anlar görə bir iş,
Kökdən boşalupdur.
Əzbəs ki, yonar möhnətü dərdü qəmü təşviş,
Bağrım yoxalupdur.

Xam quyruğa batmaz nə qədər cəhd eləyim şiş,
Çoxdan koralupdur.
Oldur səbəb əflakə çıxar hayü harayım,
Baxmaz mana övrət.

Bəzi zəni xoşbəxt sanur mərdümi-əhməq,
Der şovhəri xandır.
Həmvarə geyər əgninə zərbəft ilə dibəq,
Həm hökmi rəvandır.
Sən bil ki, ünas əhlinə xoşdur gəzə çıpləq,
Ta yarı cavandır.
Yoxdur qınamaq heç bizim həmsəri mütləq,
Çün xeyli zamandır.
Düşməz yavuq əsla hədəfi-məqsədə yayım,
Sınmış oxa nisbət.

Müddətdü düşüb digi-dərunim saf əməldən,
Əfsürdə çırağəm.
Bir loğmadan əfzun yeməzəm xofü xələldən,
Bu barədə dad ğəm.
Birəğbət olub xahişim itami-gözəldən,
Guya ki, naçağəm.
Fərq etməz idim bir zaman ayranı əsəldən,
İndi bu səyağəm.
Vay oldu ki, bir gün tükənə qənd ilə çayım,
Alur məni xiffət.

Batmış şikənim aldı bizi heyvərə fikri,
Doymalu degil bu?
Qış aş, pilav dəğdəğəsi, yaz kərə fikri,
Bağrımız edər su.
Köç vəqti ulağ kəmligi, dağ-dərə fikri,
Olmaz belə qayğu.



Ta çənd otaq dərd-səri, pəncərə fikri,
Əndişeyi-bahu.
Yegdir ki, ləhəd künci ola köşk-sarayım,
Sərmənzili-xəlvət.

Çöl xəlqinə bir il gələ, gör qış gələ qatı,
Lağər düşə çarpa.
Yeksər qarışur bir-birinə türk ilə tatı,
Aşuradı guya.
Hər kəs götürür dəstinə bir örkənü çatı,
Hizüm qıla peyda.
Gözlər ki, bitüb ot, kökələ çamuşü atı,
Arxayın olub ta.
Gəh-gəh deyə, ey ilxıçı, qırxıldımı dayım?
Nə eyş, nə rahət.

Bir vəqt görən qamətimi sərvi-rəvantək,
Bivasitə, biqal.
İstərdi basub bağrına, nazım çəkə cantək.
Manəndeyi-ətfal.
Məhparə hamu tabe idi əmrimə xantək,
Nə üzr, nə ehmal.
Atmış bucağa, ah, məni köhnə palantək,
Baş yoldaşı əlhal.
Vəhmim budu indən sora əndək də yaşayım,
Saf eləyə nifrət.

Lağlağı degildim belə, billah, keçən ovqat,
Kəndin zənü mərdi.
Bir nəfəsə əgər zərrəcə təqsir ola isbat,
Yapraqtək əsərdi.
Hərgah desəydim özüni get qayadan at,
Filfövr gedərdi.

Saymaz məni əknun Tükəz oğlu kimi bədzat,
Çəkimmi bu dərdi?
Dünyada bu hal ilə dəxi mən nə qalayım,
Yetməzmi bu zillət?

Saqqal dönüb ağ süməgə[4], söyləmə, Zakir,
Qəflətdən ayıl sən!
Sövdayi-qiyamətdə gərək ər ola mahir,
Dur, düş yola təprən.
Qorxum burasıdır ki, olam Pəncitək[5] axır,
Baqqal daşı, yek mən.
Köçmək dəmidir, yatma, kişi, çapikü şakir,
Taət yolun öğrən.
Bahörmət ikən çarə odur mərgi arayım,
Şayəd ola qismət.

* * *

## QƏSAİD

### CƏFƏRQULU XAN BEQAZİ FƏRMUDƏ

Matəmi böylə dutarmış məgər adəm, qazi!
Edə lənət ona bəs sahibi-matəm, qazi!

Sən necə zamin oldun, kişi, dəva olmaz,
Bu sözi rus yanında dediniz həm, qazi!

Siz məgər halını öz əhlinizin bilməzsiz?
Zərrəcə bəd əməlindən eləməz qəm, qazi!

Özgə dəvada olan kəslər alur simü zər,
Qırdırur şişəlini müftü müsəlləm, qazi!



Zahira, qələlünün qətlə gedərdi nisfi,
Olmasaydı aralıqda genə Rüstəm, qazi!

Daima vəz verər xəlqə ki, ehsan eləyün,
Özi heç, dışqaru verməz ola gər nəm, qazi!

Daş-daş üstə belə Şişədə durmaz hərgiz,
Bəzi işlərdə əgər olmasa ələm, qazi!

Adını molla qoyan xəlqə deməz rast yolu,
Anların dərdi edüpdür qədimi xəm, qazi!

Unudurlar hamısı tarı, peyəmbər əmrin,
Gər aralıqda ola söhbəti-dirhəm, qazi!

Bir para vəqt danışmaq bizə lazımdır, leyk,
Bir para vəqtdə yegdir olaq əbsəm, qazi!

Demişəm mən sana heç vəqt inanma xəlqə,
Bəzi ovqat eşit pəndimi kəm-kəm, qazi!

Bundan artuq nə yazım dərdi-dili mövlana,
Deyirəm baqi sözimi səni görsəm, qazi!

* * *

### CAVABİ-ZAKİR BE CƏFƏRQULU XAN DƏR HƏQQİ-QAZİ

Eləyüpdür günəh, mən heç nə bilməm, qazi!
Xəlq arasında olupdur böylə mülzəm, qazi!

Yaradupdur anı ol xaliqi-əşya bieyb,
Dari-dünyada bu surət tapulur kəm, qazi!

Qazi hər yerdə olur bimızəvü bədhərəkat,
Şükr-lillah ki, bu həm bamızədir, həm qazi!

Qələmi tiği-dusərdir, özi mərdi-rəhi-din,
Daima Şeyxi ilə cəngə müsəmməm qazi.

Səri-ədadə fırıldar çomaqı bərqi-asa,
Necə ki, mərəkədə şeşpəri-Rüstəm, qazi!

Nari-qəhri əridir mum kimi fuladı,
Küreyi-nəfsi-dərunə verə gər dəm qazi.

Kimdü yanında onun – Əliqulu və Əbdürrəhim,
Kuhi-Əlbürzi yıxar, çün toxunan dəm qazi.

Dəhrdə Şişə olur sənin cəfadan eymən,
Ola bir şəhrdə bu tərzlə möhkəm qazi.

Mədəni-cudü kərəm, cayinə əmnü əman,
Ədldə Nuşirəvan, bəzldə Hatəm qazi.

Qələt etdim, bu sözün yoxdu vüqui hərgiz,
Qorxuram cəmdəgimə tuf deyə aləm, qazi!

Şişənin simü zərin doldurasan xanəsinə,
Şişəvəş dışraya verməz genə bir nəm qazi.

Qazi oldur ki, qala əhli-vilayət qəminə,
Nə ki, aləm həmə qəmgin ola, xürrəm qazi.

Onda mən gördügümi görmüşəm, indən belə
Etməzəm taət ona, gər ola qibləm qazi.



Haradan gəldi bular, eylədilər xəlqi xərab,
Biri der müctəhidəm, biri müsəlləm qazi.

Atlanub biri çapar Təkləyə day, danə üçün,
Biri də şamü səhər talibi-dirhəm, qazi!

Yay gedər Fingiyə zövq etməgə, qış Qaynaqə,
Bir deməz heç gəlür mahi-məhərrəm, qazi!

Qazi lazımdu deyə məhkəmədə şəri-nəbi,
Nə ki, gəşt edə cahanı minüb ədhəm, qazi!

Təbrizin ağı ucuz, miri-vilayət qafil,
Hər əlifbey deyəni qıldı müəmməm qazi.

Dəxi divani-rəiyyət belə getsə qalmaz,
Bu Qarabağı edər cümlə mükərrəm qazi.

Xişü əqvaminə mu qədri tərəhhüm qılmaz,
Dəmbədəm xəlqə oxur sileyi-ərhəm qazi.

Sabiqən böylə degildi, olub indi birəhm,
Həzrəti-xanə olandan bəri məhrəm qazi.

Çox adam var idi, nəzm ilə əda eyləməli,
Xahişi-xanə görə düşdü müqəddəm, qazi!

Çünki divanəyə yoxdur qələm, ümmidim var
Əfv edə cürmimi, gər yüzünə sögsəm, qazi!

Dastani-Əmiraslanı bu gündən belə
Başlaram, fikrim əgər olsa fərahəm, qazi!

* * *

## HƏCVİ-ƏQAİDÜ ƏTVARİ-ŞEYXİVÜ ÜSULİ MƏZHƏBANİ-QƏLEYİ-ŞİŞƏ

Neçələr silsileyi-təbimə təhrik verür,
Rişteyi-nəzmə çəkəm, yəni duri-qəltanı.

Budu xahişləri kim, baxmayub ağü bozuna,
Eləyim həcv tamam bayü gədavü xanı.

Neyləyim ölkə bulaşub büxsə bir günə,
Pak qılmaz anı gər bağlayasan ümmanı.

Verməsəm vüsət əgər nəzmə, olur namərğub,
Eləsəm cümləsini şərh, düşər tulanı.

Çarə oldur ki, genə hər biridən bir şəmmə,
Söyləyüb ta ki, qılam həcv Əmiraslanı[6].

Çünki ol fasiqü facir kimi həcvə layiq,
Tapmaq olmaz, gəzəsən Gəncə, Şəki, Şirvanı.

Qalsun, axirdə onunla olunur xətmi-kəlam,
Fəsli-əvvəl danışaq məzləmeyi-mollanı.

Ah, bu müftəxorun dad əlindən, səd dad!
Ki, saluplar necə gör məmləkətə qovğanı.

Hərc-mərc eylədilər məzhəbi-isnü-əşəri,
Etdilər zirü zebər bargəhi-imanı.

Hər əlifba oxuyan adını ruhani qoyub,
Bilməz öz əbcədini, ruha çəkər suhanı.



Alimü fazilü ustad, müridü mürşid,
Nə qədər ki, görəsən dövrdə sərgərdanı.

Həmə qovğaları bəhri-dirəmü əqmişədir,
Həmə təqvaları şali-əməli-Kirmanı.

Vermənəm mən oların taəti-bibəhrəsinə,
Tarı şahiddir özi, məsiyəti-düzdanı.

Genə filcümlə üsulilə Üsuli danışır,
O ki Şeyxi lap elə dibdən urur baltanı.

Etməyüb şərmü həya göz görə Abdullaha,
Eylər isbat sərasər sifəti-Yezdanı.

Bişü kəm xaliqü məxluqda bir fərq gərək,
Eyləsən nik nəzər – bunda təfavüt hanı?

Bir quru isimdən özgə dəxi həqqə nə qalur,
Lənət olsun sana, ey münkəri-həqq ruhanı!

Bəs degilmi olalar vasiteyi-külli-vücud?
Bəs degilmi məzhəri-feyzü kərəmi-rəbbanı?

Bəs degilmi olalar şafei-ruzi-ərəsat?
Bəs degilmi səbəbi-fəthi-dəri-rizvanı?

Nə rəvadır ki, dəxi bir də edək Həqqə şərik,
Biz imamı, necə kim, ermənilər İsanı.

İki tarı genə mümkündü süluk eyləyələr,
Gərək on dört yerə bunlar bölələr dünyanı.

Qasımi-rizq demək gər bu isə şamü səhər,
Şiri-Yezdan götürüb dəstinə paylar nanı.

Bu dəni rütbə nə layiq o şəhi-kövneynə,
Haşəllah götürə mənsəbi-fərraşanı.

Yoxsa qəsdin budu ki, ruzirəsan anlardır,
Sifəti-sanei müşküldü tapa insanı.

Yoxdu bir ruzirəsan, bari, xudadan qeyri,
Odu murü mələxə rizq verən asanı.

Mahiyi-bəhrə qılur qətreyi-baranı qiza,
Seyd edər bipərü pala məgəsi-pərranı.

Müşrikü mürtədi-mərdudü nəsaravü yəhud,
Vəqfdir cümləyə Xan Kərəmü ehsanı.

Doğrudur, raziqi-mühiyyivü mümitdən qeyri,
Hər sifət kim, deyələr var sifəti-imkanı.

Bir deyən yoxdu ki, ey asiyi-dərgahi-ilah,
Bir xəyal eylə ki, kimdir dedigin böhtanı.

Gedəcək ruzəxə, bişübhə, o mövla həqqi,
Xaliqi-mövtü həyat kim, bilə o mövlanı.

Həm dəxi bir də derlər ki, rəsulun Cəbril,
Batinindən gətürür zahirinə Quranı.

Böylə gər olsa, cəmiyi-şüəra mürsəldir
Ki, yazub hər biri bir cild, iki cild inşanı.



Oların da genə vardır neçə üluləzmi,
Hafizü Sədiyü Cami dəxi həm Xaqanı.

Mən də peyğəmbəri-namürsəliyəm Gölbasanın,
Ümmətim Taynaqü Külqışlaq Xızrıstanı.

Dutuban rahi-digər xarici olmaq yegdir,
Bu isə tövrü təriqi-rəhi-müsəlmanı.

Bilməzəm heç nə vəch ilə bu laməzhəblər,
Bəhs edirlər ki, mükəlləfdü qamu əşyanı.

Əqldir rəhbəri-nikü bəd həqqü batil,
Şeyə ki, verməyüb anı, necə tapsun anı?

Tifl ta baliğ olunca ona yoxdur təklif,
Nə dəlil ilə mükəlləf biləsən heyvanı?

Tanımaz anə, bacı bir-birinə cüft olur,
Nə nikahı, nə talaqı, nə də siğəxanı.

Gəllədən gər xəbər alsan ki, rəbbin kimdir?
Göstərür cəddi-yəqin ilə sana çobanı.

Bəndəsindən nə təvəqqe elə, rəbbin ki, özi
Xəri-barikəşi-biçarəsinə kullanı.

Küfrdür qabili-təsbihi-təala bilmək,
Fəzleyi-xəlq yeyən saqsaqanü qarğanı.

Aşiqin taəti məşuqə səzavar gərək,
Bixirədlər nə bilür rəsmi-rəhi-fərmanı?

Zihəyata, dutalım cəhl ilə isbat etdün,
Var oların da dedün hissü şüurü canı.

Elə insaf, nəbatat, cəmadat, gözüm,
Kim inanur ki, tapa mərifəti-Yezdanı?

Bu nə qovğa, bu nə kavus, məgər görməmisən?
Oxunan vəqtdə sən sureyi-Ərrəhmanı?

Cümləsin bari-xuda növi-bəşərdən ötri,
Xəlq edüb, hər biri bir dərdin ola dərmanı.

Üns ilə cinnədü təklifi-xudavəndi-cəlil,
Üləma böylə ki, təfsir edir Quranı.

Şeyxi şəyyad idi hərçənd, üsulidə dəxi,
Yoxdu bir mu qədəri mərifəti-insanı.

Cümlə bədkarü dilazarü mühilü kəzzab,
Cümlə bidinü süxənçinü şərarət kanı.

Əllərində həmənin səbheyi-səddanələri,
Dillərində həmənin şamü səhər yalanı.

Birisi bihəməçiz biri ilə başlar cəng,
Hakim şərə çəkər, şahid olur qalanı.

Bilə, ya bilməyə bir yaxşı ziyafət eylə,
Sal samavara odı, dövrə gətür fincanı.

Bir içim çayla yüz şahidi[7]-bidin tapulur,
Necə kim, Əli bəgin çıxdı gögə əfğanı.



Cəfəri-kar ki eşitməz, çalalar zurna səsin,
Dermiş: mən hamıdan yaxşı eşitdim anı.

Yeddi gündən sora bir şəxs Dizaqdan yetişüb,
Qaziyi-şəhr yazupdur biri də filanı.

Eşidüplər ki, olur şahidi-şiə məqbul,
Bağlayub uzun Hüseynəli dəri-dükkanı.

Həzrəti-qazivü yanındakı Ağa Novruz,
Eləyüb hər biri bir tərz münasibxanı.

Biri bəqqali-bədəfalü kəlambazi-füzul,
Biri əhli-zələmə zadeyi-Şəkkərbanı[8].

Belə şahidlərlə bir kəsə deyn olsa sübut,
Kişi neylər dəxi rəncü təəbi-kimyanı?

Hər kimin var isə həmmamı, edər qərzin əda,
Barı, bizlər kimiyə atmıyalar böhtanı.

Tümənoğlu[9] Nuru netsin ona, ya özgə vəkil,
Əhli-Təbriz təfənnündə ötüb şeytanı.

Yox məzəmmət yeri bu babda hərgiz Əlidə,
Rindi-şəhr ola, özi əsli ola Məmqanı[10].

Hər nə oldısa, ona qazidən oldu, əlhəq,
Var idi çünki onunla kədəri-pünhanı.

Pənbeyi-eyşini verdi yelə ol bədbəxtin,
Saldı bir dərdə ki, heç nüsxədə yox dərmanı.

Yazdı bimaksü təvəqqüf iki saətdə həmin,
Surəti-şəri minü iki yüz tumanı.

Şərtdir şər hüzurunda rəhi-rəsmi-ədəb,
Nə ki, sərkub oluna bərtərəfin əqranı.

Molla, nə molla, əsiri-şikəmi-əndərpiç,
Qazi, nə qazi ki, seyr olmaz içə ümmanı.

Filhəqiqə, mən onun müxlisi-dirinəsiyəm,
Leyk doğru deməgin şərdə yox üsyanı.

Doğruluq qalmayub əsla bu fəna aləmdə,
Sərnigun ola, görəyim, belə yaman dövranı.

İstər idim dəxi də nəzmə verəm tul, vəli,
Dil dedi: Ömür keçüb, qət elə bu hədyanı.

Əmiraslana gərək dəftəri-digər yazıla,
Çünki ol bədəməlin qeyri gərək dastanı.

Yaxşı həcv eylər idi bu dəmin adəmlərini,
Sağ əgər olsaydı indi ol İbni-Canı[11].

Rişteyi-təbimə yox tab verən, çox əfsus,
Eyləyüb xak ilə yeksan qədi-Babanı[12].

Getdi həmdərdlərim, bisərü saman qaldım,
Bu ribati-kuhənin yoxdu sərü samanı.

Dəmi-rehlətdü, könül, bari-iqamət açma,
Mizban xar dutar, dir köçən mehmanı.



Keçdi hədyanla ovqat, bağışla, ya Rəb,
Bihəqi-ali-Əli cürmi-məni-piranı.

Nəçidir maliki-rizvan, yüzünə açmayə dər,
Ola hər kimsənənin əldə onun fərmanı.

Zakiri-rusiyəhəm, gərçi günahım çoxdur,
Var dəstimdə, bəli, Ali-Nəbi damanı.

* * *

## DƏR ŞƏNÜ ƏHVALİ-MOLLAYAN QƏLEYİ-ŞİŞƏ

Heyf, səd heyf, bu işi bulmadı əncam genə,
Üləma özlərini eylədi bədnam genə.

Şişəyə dəsti-qəza səngi-cəfa yağdırdı,
Şişəvəş sındı bu gün rövnəqi-islam genə.

Var idi mədrəsəyə rəğbəti xəlqin, qovğa
Düşdü nahaq yerə ortaya bu axşam genə.

Ol qədər keçmədi ki, sülh binası pozulub,
Bir-birə şıllaq atar şeyxin əyyam genə.

Duş həmkasəvü həmsöhbət idi, eylərlər
Haliya bir-birinin küfrini elam genə.

Neçə müddətdü kəsad olmuşdı, oldı rəvac,
Şərhü bazarda latayili-düşnam genə.

Görmədik biz bularin dövridə bir eydi-şərif,
Oldı məsdud dəri-zikr bu bayram genə.

Zövqü şövqilə səhərdən rəhi-məscid dutduq,
Zarü məhzun qayıtduq həmə nakam genə.

Misli-səyyadi-cəfapişə yerə danə səpüb,
Hərə bir növ qurar mürği-dilə dam genə.

Yekcəhətlik pozulub oldu qələm tək düzəban,
Yazılur şamü səhər tən ilə peyğam genə.

Bu nə saziş, bu nə islah, çıxıb mənbərdə,
İki gün keçmədi, düşdi işə eyham genə.

Bu sifətlər belə, biz naqisi gör ki, onlardan
Kəsməzik heç ölüncə təməi-xam genə.

Var bir qabilü kamil, ona da əhli-nifaq,
Ta dinüb, derlər: olupdur kişi sərsam genə.

Xələti-Xosrovi-dəhr eylədi əngüştnüma,
Oldu ta Məmmədəli sahibi-ənam genə.

Var ümidim edə knyaz bu pərxaşə bina,
Tazədən əhli-vilayət duta aram genə.

* * *

## DƏR HƏCVİ-HÜSEYN BƏG PƏSƏRİ-MİRZƏ ADIGÖZƏL

Var özgə vilayətdə də tək-tək köpəkoğlu,
Hədsizdi bu viranədə, bişəkk, köpəkoğlu!

Hərçənd mana balta çalan çox idi, amma,
Məcmuidən əfzun bu it-əmcək, köpəkoğlu!



Olmadı deyən bir muna kənd aşru it ürməz,
Bəsdir bu şərarət dəxi əl çək, köpəkoğlu!

Yüz düşmən ola bir kəsə, bir kəs yıxılanda,
Filcümlə gərəkdir ola sövkək, köpəkoğlu!

Qəhri-ümərə atəşi-suzandı, nə layiq,
Bərqəsd onı hərdəm üfürmək, köpəkoğlu!

Fikrin budu, atan yerişi yeriyəsən sən,
Xüm cayini, haşa, duta cürdək, köpəkoğlu!

Lazımdı o şəxsin vələdindən həzər etmək
Kim, əbləq ola cəmdəgi lək-lək, köpəkoğlu!

Derlərdi anan zaniyədir, var idi şəkkim,
Sən ki beləsən, yoxdu dəxi şəkk, köpəkoğlu!

Məşhur məsəldir ki, bitər ot köki üstə,
Səgdən törəyən axır olur səg, köpəkoğlu!

Qəsdin çörəgin kəsmək idi munca əyalın,
Kəssin səni ol kəsdügün əppək, köpəkoğlu!

Keçməz belə dövran, sənin də bu səyaqın,
Bərbad olu çün dövləti-Bərmək, köpəkoğlu!

Bu bidəti nə ləzgivü nə şahsevən eylər,
Bu zülmi nə əfğanü nə özbək, köpəkoğlu!

Haşa ki, cüli-ətləs ilə xər ola tövsən,
Müşküldi demək bəd kəhərə bəg, köpəkoğlu!

Dişi-dişi pünhani nədir zərbə girişmək,
Ey batini zən, zahiri erkək, köpəkoğlu!

İt itdi, ürən vəqt tanur aşnanı, yadı,
İrs oldı sizə yetənə ürmək, köpəkoğlu!

Bədxahlığı tərk eləmə, tənə edər xəlq,
Şayəstə degil, əsli itürmək, köpəkoğlu!

Knyaz nə kim, cövr eləsə əmri mütadır,
Yox bizdə ona qüdrəti-dinmək, köpəkoğlu!

Sən kimi yetən nakəsə, ol Qadiri-Sübhan,
Xəlq eyləməyüb məndə əgilmək, köpəkoğlu!

Namərd ətəgindən kişi həngami-zərurət,
Dutmaqdan isə yaxşıdı ölmək, köpəkoğlu!

Şinel[13] tapulan yer bizə bir vers yarım var,
Hərgah deyəsən yoxdı, gəl ölçək, köpəkoğlu!

Qan olmadı bir dəfə, açıldı qoyun ardı,
Daim keçininki olu çərmək, köpəkoğlu!

Min evlə neçün eyləmisən dəfi-məzərrət,
Asandı əgər Behbudı gəzmək, köpəkoğlu!

Beş-altı komam var, pərişan oların da,
Kəsb əhlidilər, şüğli cüt əkmək, köpəkoğlu!

Varəm sənin ilə necə ki, var həyatım,
Tab elə bu gündən belə səntək, köpəkoğlu!



Bağışla, dimağım yox idi, müxtəsər oldı,
Müşküldi bu dəm nəzmi yetürmək, köpəkoğlu!

Bir növ sana sikkə vurum həcv ilə, yüz gəz,
Suhan çəkələr eyləməyə həkk, köpəkoğlu!

* * *

## DƏR MƏDHİ-VƏLİƏHDİ-PADŞAHİ-RUS[14]

Ey vəliəhd, sana lütfi-xuda yar olsun!
Dəsgirin əbədən Qadiri-Muxtar olsun!

Gülşəni dəhrdə sərsəbzi-nihali-bəxtin,
Ey sərəfrazi-cahan, ta ki cahan var olsun!

Çeşmi-bəddən səni hifz eləsün ol Həyyi-Qəfur,
Baxsa hər kəs sana kəc, dərdə giriftar olsun!

Sayəbani-sipəhin ətləsi-çərxi-əxzər,
Pasiban dərgahına əncümi-səyyar olsun!

Cami-eyşin meyi-gülrəng ilə daim ləbriz,
Qədəhi-bəzmi-nəşatın dəxi sərşar olsun!

Əmrinə bəndeyi-fərman Buxara, Xarəzm,
Hökmünə Çinü Xəta tabeyi-iqrar olsun!

Düşsə hər cayə yolun şamü səhər fəthü zəfər,
Şol biri pişrovun, biri qəfadar olsun!

Dostun xoşdilü xürsənd ola, bədxahların,
Bidi-Məcnun kimi həmvarə nigunsar olsun!

Pərtövi-mehri-rüxün etsün üfüqdən tale,
Çeşmi-bədbinü ədu şəppərəvəş tar olsun!

Nə əcəb, sümmi-səməndi-sipəhinlə yeksər,
Kuhi-Əlbürz biyaban kimi həmvar olsun!

Çoxdur ümmid bu dəm qövmi-Çeçen, əhli-Avar,
Dağılub hər tərəf avarəvü idbar olsun!

Şahbazi-dəri-dövlət nə bilür övci-həziz,
Götürür cənginə yüz tayiri-kuhsar olsun!

Eylədi xuldi-bərin Tiflisi feyzi-nəzərin,
Bas Qarabağa qədəm, məskəni-gülzar olsun!

Qələt etdim bu sözi, hanı o sər bizlərdə
Kim, vəliəhdi-şəhə layiqi-iysar olsun!

Yoxdu bu əsrdə ol şairi-pürzur, əfsus,
Deyə bir mədh ki, şanində səzavar olsun!

Şüəra eybi degil, zabitədir təbi-səlim,
Dərk edər anı ki, güncayişi-göftar olsun!

Baisi-fəxri-vücudat ola bir paknijad,
Vəsfi-övsafi-kəmalatı nə miqdar olsun!

Nəzmi-mən, pişi-Süleyman necə muri-həqir,
Gətdi ta payi-mələx, hacəti izhar olsun!

Pirəzən dəstinə almış kələfi-rismani,
Yusifi-Misrə həmana ki, xiridar olsun!

* * *



## DƏR SƏNAYİ-İSMAYIL BƏG QUTQAŞİNİ

Səni aləmdə, ey arami-can, hər kim zəlil istər,
Anı zillətdə bu qəmdar könlüm ayü il istər.

Şərabi-cami-bəzmi-iltifatın nuş edən bir gəz,
Nə Kövsər arzu eylər, nə abi-Səlsəbil istər.

Degil asan qürbi-padşahi-əsrə yol bulmaq,
Sifati-nikü ətvari-xoşü xülqi-cəmil istər.

Məni qovğayi-şəhri-bəhri-Baku təlxkam etməz,
Nədən kim, aşiqi-şeyda olanlar qalü qil istər.

Kəmalə yetmək olmaz, bisəyahət, haliya könlüm,
Tamaşayi-biladi-Misrü seyri-rudi-Nil istər.

Mana derlər ki, sən "peyğəmbərəm" derdin, - nə işdir bu?
Deməzlər mərdi-mömin möhnətə, əcri-cəzil istər.

Cəfayi-dəhrdən azürdəliq eyn həmaqətdir,
Bəlanı xoş dutar İdrisü Əyyubü Xəlil istər.

Mənəm varis bu gün Yəqubə, fərzəndi-əzizimdən,
Gəlür buyi-fərəc gəh-gəh, əgər rəbbi-cəlil istər.

Mən pirsüxəndanın nədir cürmi, xudavənda,
Üqubətdə o bişərmü cəfakarü mühil istər.

Tapılmaz belə bir bədhal zalım hiç millətdə,
Yığılsa bir yerə Əndi, Qumuq, Axtı, Rutil istər.

Məsəldir ki, xəta bir belə adəmdən irağ olmaz,
Bu bir əmri-müşəxxəsdir, nə vəhyi-Cəbrəil istər.

Qarabağ içrə ağ gün görmədim, mən tirəbəxt oldum,
Onunçün xatirim ol qövmi-birəhmi qətil istər.

Şəriri-biqərəz olmaq təqazayi-təbiətdir,
İnanma bir kəsi xoşnud aləmdə bəxil istər.

Bizim mərdümləri, zinhar, pənd əfsarı bənd etməz,
Oların Naqəyü Qalmuq kimi, burnu qəzil istər.

Edər yadi-gülüstani-vətən qürbətdə dil mürği,
Qəfəs qeydindən azad olmağa daim dəlil istər.

Nəhayət, şərhi-hal etmək yetən namərdə müşküldür,
Sənintək bir əmiri-pakzadü biədil istər.

Təvəkkül əhliyəm mütləq, yapışmam xar-xaşakə,
Füsürdə cismim olsun saliha qərq abi-seyl istər.

Səxavət, ya vəsatət zat iləndir, mərdi-biəslə,
Muradı hasil olmaz, yüz düşə bir kəs dəxil istər.

Nihali-məqsədi sərsəbz olub əflakə yetməzmi?
O kəslər ki, rizayi-xatiri-piri-əlil istər.

Süxən meydanı, qibləm təng idi, söz müxtəsər keçdi,
Sənin övsafını nəzm etməgə bəhri-təvil istər.

Yetəntək şəhrə hacı bəndəyə bir təxt bəxş etdi,
Bilür ki, bazdəsti olsa hər qanda tüfeyl istər.

O yerdən azimi-Tiflis çoxdur, yaz ki, Mirzəyə,
Filanı, bir dü pey pərvərdə sizdən zəncəbil istər.



Əgərçi var Dağıstani kürki Zakirin, amma
Cənabından dəxi bir sarı kürki-Ərdəbil istər.

Degildi sabiqən əhli-təvəqqe, şimdi Bakudə,
Əlaci-kəsrəti-sərma içün çizi-qəlil istər.

Dağılmış xanimanı, incimün əxzü sualından,
Tikəndə quş yuva, çör-çöp yığıban zir-zibil istər.

* * *

## DƏR VƏSFİ-HALİ-XOD

Saqi, dolanım başına, Allahı sevərsən,
Bir cami-şəfəqgünlə qıl könlümü rövşən.

Həmralənür içdikcə rüxi-zərdi-hərifan,
Həm özünə, həm badeyi-gülbuyuna əhsən.

Bəzm əhli tikipdir sana yeksər gözün, amma
Gözlə məni, cana ki, füzun qəmzədəyəm mən.

Növbət ki, mana yetdi, meyin kəsmə arasın,
Ver cürəyi-sərşar nə qədri ola mümkən.

Bir növi-pərişanü digərgunü xərabəm,
Fərq eyləməzəm şami-siyəhfamı səhərdən.

Təklif nə hacətdi, gözüm, vaqifi-halə,
Dildadələrin dadrəsivü yavəri sənsən.

Billah, gecələr muyi-tənim bəstəri-qəmdə,
Sancar bədəni ta bəsəhərgah çü suzən.

Bicürmü günəh atəşə yaxdı dili-zarı,
Bir zalımi-birəhmü cəfapişeyi-pürfən.

Xoşbəxt cahandır belə napak əmirin,
Ta ruzi-əbəd kim ki, xətasından ola gən.

Çün var həyatım, yazaram hicrü mükərrər,
Düşsə əlinə nüsxəsi bir gəz oxu, ögrən.

Yəni ki, sitəmpişənin əcdadına lənət,
Həm özünə, həm sairi-övladına lənət.

* * *

Tanır məni məcmu Otuz ikivü Cavanşir,
Bir mərdi-xoşəxlaqəmü həm sahibi-tədbir.

Rövşəndi qamu aləmə, zatımda xudavənd,
Xəlq eyləməyüb mu qədəri hiyləvü təzvir.

Eyməndülər əzbəs ki, olub ram, rəm etməz,
Gördükdə məni badiyədə ahuvü nəxcir.

Əl vurmazam əsla sipəri-dəfi-bəlayə,
Yağdursa kamandari-fələk qəsdimə səd tir.

Bir gəz nəzəri-ibrət ilə eylə tamaşa,
Təqdiri-qəzavü qədərə, şahi-cahangir.

Bir hizə edüb külli-Qarabağı mühəvvəl
Kim, ləl ilə xərmöhrəyə bilməz verə tövfir.

Şərh eyləməgə qorxuram, amma ki, rəvadır,
Məcnun kimi daim urula payinə zəncir.



Olmadı deyən bir muna, key naqisü nadan,
Söylə, nədi bu bikəsü biyavərə təqsir?

Girəm ki, dutub rahi-zəlalət necə müfsid,
Mümkündümi, dəf eyləyə yüz növrəsi bir pir?

Ey qadiri-biçün, bu dili-səxti-bəxili
Bər hörməti-şahi-şühəda eylə sərazir.

Yandırdı bizi atəşi-cövrü sitəmi-dəhr,
Ey vay ki, yox ahi-səhərgahdə təsir!

Əfsus ki, islamın işi müşkülə düşdi,
Yox çarə dəxi səbrdən özgə, belə düşdi.

* * *

## BE CƏFƏRQULU XAN NƏVEŞTƏ

Gedirsən get, sana fəthilə nüsrət həmrikab olsun,
Unutma bizləri, seyrin, vəli, seyri-şitab olsun.

İki gündən ziyadə Cəbraillü içrə sən qalma,
Neçün, xanəm deyən kəs istəməz xəlqi xərab olsun?

O, babilü, vəli Məmməd degil mütləq sənin babın,
Nə layiq, şahbazın həmnişini bir qürab olsun.

Quyucuq[15], Daşkəsənlüdən güzər qıl badi-sərsərtək,
Əli-Allahidən daim gərəkdir ictinab olsun.

Horovluda olur ovqati-şirin, təlx həlvasız,
Üzüm vəqti satarlar, çünki qoymazlar doşab olsun.

Hüseyn bəg, Məsum Əli oğlu Əhməd, bir də Feyzulla,
Olar bir kimsəyə həmdəm olunca, bir dəvab olsun.

Bu şəhri-Şişədə gər bizi şişə taxsalar xoşdur
Ki, həmsöhbət bizə ol növi-qövmi-bihesab olsun.

Nə hasil, əhli-səhra söhbətindən, abi-əngurun,
Gərəkdir neçə müddət şişədə qalsun, şərab olsun.

Əgər mollaya[16] lütfün var, bir çetvert dügi göndər,
Öləndən sonra cayi ya gülüstan, ya zirab olsun.

Bizim düxtərlərin fikrinə qalma, yoxdur ol qız kim,
Üzubət qalib olsun onlara, bizə əzab olsun.

Düşər tez özgə atına minən, nə əmmə, nə xalə,
Sakmma, o da Doyran kəhrizi kimi pürab olsun.

Gərəkdir yetişə artuqluğunca ləzginin muzdu,
Ona nə xah su çıxsun və ya dolsun türab olsun.

Maralyanlu Pərinin ar..na biz keçmişik hamı,
Onun həddi nədir Ceyran xanımla tayü bab olsun.

Der öz-özünə mən də güləm – itburnu, həm zənbəq,
Nəhayət, səxt müşküldür ki, hər güldən gülab olsun.

Qədirin qədrini bil, dutulan quşdan ona göndər,
Üçin ver, ikisi yəxni, biri dəxi kəbab olsun.

Neçə vəqt ordasan, atlu buyur, yolları hifz etsün,
Vilayət getdi əldən, bəlkə dəfi-bihesab olsun.

İgirmi gündə bir şeiri deyincə, "ya Əli" dersən,
Gərək şair bizim Zakir kimi hazırcavab olsun.

* * *



## BE CƏFƏRQULU XAN
## DƏR XÜSUSİ-PUSTİN

Namə yazdım, qıl mana, ey taci-sər, ərzani kürk,
Tiri-sərmanın sərasər cövşənü qalxanı kürk.

Müştəbeh olma, mənim qəsdim Xorasan kürküdür,
Dövlətindən, özümün də var Dağıstani kürk.

Xan hüzurunda büründüm ariyət bir neçə gün,
Balişi-pərqudan artıq saxlar imiş canı kürk.

Qış günü yox faidə bürünməvü yapuncudan,
Azü çox gər saxlaya, saxlar genə sərmanı kürk.

Çıxmaq olmaz sübh yorğandan, keçər vəqti-namaz,
Kişidən hər vəchlə eylər iraq üsyanı kürk.

Mədhinə baxma, qocanın çarəsin tarı kəsür,
Yoxsa ki, bir zad degil, eylər xərab oğlanı kürk.

Piri-biməsrəf bürünsün sərgi yanında anı,
At çapub yortan kəsə məsrəf degil çapanı kürk.

Olsa bir bariş, xudanəkərdə, Doyrandan[17] kənar,
İçinə ayran tökülmüş eymə tək isdanı kürk.

Nazəninlər növrəsi çərkəsqəbayə meyl edər,
Pəşmini pəşminə almaz, geysə yüz ruhani kürk.

Görmədinmi necə ol şirin-şəkkər xəndənin,
Eylədi yanında acı binəva Mollanı kürk.

Sərvqədlər içrə vay əhvalına ol kimsənin
Kim, qədi kutah ola, amma geyə tulanı kürk.

Həqqi, səyyadi-qəzalin camədi çəspan gərək,
Ürküdər manəndi-ahu dilbəri-zibanı kürk.

Nə deyim, başdan ayağə sərbəsər məkruhdur,
Oxşadır qıllı papağa, müxtəsər, insanı kürk.

Simbər ağuşə çəkmək istəyən kürk istəməz,
Nə rəvadır, incidə ol tazə-tər püstanı kürk.

Cümlədən artıq budur eybinə çox bədyümndür,
Görmədinmi eylədi viran yekə Şirvanı kürk?

Barbərdar olmayan tövsənlərə bir çul yetər,
Qocalar barkeşi-qəmdir, onun palanı kürk.

İki yumruq bir başa gücdür ,– məsəldir xəlqara,
Cahili ruzi-təbiət saxlasın, piranı kürk.

Degiləm möhtac bir kürk almağa, qəsdim budur
Kim, desinlər bəxş edüb filaniyə sultanı kürk.

Çoxdu Məşhəddən gələn, hər evdə üçü, dördü var,
Üzri-naməsmudur, qiblə buyursa, hanı kürk?

Kəs bilüb Zakir təmənna etdi səndən, istəməz
Nakəsü namərddən dutsa əgər dünyanı kürk.

* * *



## QƏZƏLİYYAT

### ƏFSUS BƏR HƏYATİ-DÜNYAVÜ VƏFATİ-BABA BƏG

Dirigа, getdi bir-bir dərdbilənlər, fərd mən qaldım,
Cahanda xatiri qəmgin, dili-pürdərd mən qaldım.

Ənisü mehribanım Mehribanda[18] vasili-rəhmət,
Olub dari-fənadə zarü səhragərd, mən qaldım.

Mətai-canxərid etdi rəfiqan gərm ikən bazar,
Pozuldu rövnəq, ancaq qaldı ahi-sərd, mən qaldım.

Xəyalat əhli xaki-kimiyatək, napədid oldı,
Dutub rahi-ədəm iksir-təban, gərd mən qaldım.

Görüb dəhrin vəfasın, çəkdilər əl eyşi-aləmdən,
Bu viran mülkdə, səd heyf, tənpərvərd mən qaldım.

Həqiqət mənzilinə yetdilər mərdi-rəhi-aləm,
Mana bu ar yetməzmi, həmin namərd mən qaldım.

Edər seyri-gülüstani-bəqa ağgünlülər hər yan,
Qaragün içrə gülbərgi-xəzantək zərd mən qaldım.

Vəzirü şah rüx dutdı piyadə xaneyi-fərzə,
Səməndi-fil ləng oldu, dağıldı nərd, mən qaldım.

Müsibət salının tarixi, amma oldu "tarixim",
Köçüb ustad, Zakir, bihünər şagird mən qaldım.

* * *

## DƏR İZHARİ-ŞÖVQİ-BE MƏHBUB

Can cilvələnür qaməti-mövzuni görəndə,
Dil tazələnür arizi-dilcuni görəndə.

Zənciri-cünunə birə yüz rəğbətim artar,
Rüxsarı üzə zülfi-pürəfsuni görəndə.

Pürpiç oluram hərdəm oda düşmüş ilantək,
Ol arizi-gülnardə giysuni görəndə.

Dağıldı xiridari-qəmi-eşqin olanlar,
Bu mərdümi-çeşmim tökən altuni görəndə.

Gəlmişdim edəm mərdümi-çeşminlə müdara,
Bildim ki, düzəlməz bu iş əbruni görəndə.

Xunxarlığı eyb degil nərgisi-məstin,
Hər kim ola qaynar qanı, gülguni görəndə.

Ey əhli-hünər, cəm degil Zakir həvası,
Eyb eləmə, şeirindəki məzmuni görəndə.

* * *

## MÜRƏBBEAT

## BE MİRZƏ FƏTƏLİ NƏVEŞTƏ

Gözüm yolda qaldı, könül intizar,
Gəlmədi cavabi-namələr səndən.
Bir aydan artıqdır gedüb uşaqlar,
Yetişmədi bizə bir xəbər səndən.



Aşina, müsahib, yarü həmsayə,
Lazımdır yetişə qövrə, harayə,
Kitabətin dəgər mali-dünyayə,
Nə hacət, istəmək simü zər səndən?

Tək yaradub səni vahidi-yekta,
Əxlaqına, ətvarına, mərhəba!
Neyləmişsən, Molla Səfi, Bəgbaba
Məmnundu, əzizim, bu qədər səndən?

O vilanın yoxdu bu yertək pisi,
Təqəllübi, hərzəkarı, xəbisi,
Yaxşı gördüm tamam əhli-Tiflisi,
Razıyam nəhayət biştər səndən.

Olan dəmdə mana mənzil Şadno,
Hər tərəfə eylər idim təkü do,
İvana bəg, Kolubakin, İliko,
Çalışırdı, əlhəq, bərabər səndən.

Həsən bəgə sölə əmri-məlumi,
"Qəziyyə məlumdur, deyəndə rumi",
Sərəfraz eylərsən yüz bəxti-şumi,
Zahir olsa əgər bu hünər səndən.

Dutub damənini səntək əmirin,
Təvəqqein eylər iki əsirin,
Qarabağ mülkündə bir mərdi-pirin,
Təmənnası budur, taci-sər səndən.

Qoyma ki, qürbətdə gedələr zayə,
Sayə salmaq təqazadır hümayə,
Laçın balasıdı gümüş sonayə,
Seyd etmək olardan, balü pər səndən.

Salupdur bəlayə dənbəganalı[19],
Dağulub əmlakı, dövlətü malı,
Sakit eyləməgə bu qeylü qalı,
İstər o xoştəbi-süxənvər səndən.

Dutuşub bənimlə çərxi-bədəfal,
İt g....ə girsin ha belə iqbal,
Bizim üstümüzdə, ey nikuxisal,
Eşitdim incinüb Yekəpər[20] səndən.

Baş verən zamanda bu əmri-əbəs,
Gərək ona sən deyəydin, "ey tərəs",
Sən bir ağacsan ki, ömründə heç kəs,
Nə sayə görüpdür, nə səmər səndən.

Çoxların qılıbsan çörəgə möhtac,
Axtarur, tapulmaz dərdinə əlac,
Fironü Hamanü Zöhhakü Həccac,
Ola bilməz olar sitəmkar səndən.

Bidətin yandırub qövmü əshabi,
Müşküldür gətürmək bu zülmə tabi,
Düşüb Cəbraillü, Maralyan, Babi,
Horadiz, Quyucaq dərbədər səndən.

Zülmü sitəminlə aləm dolupdur,
Əhli-beytin rəngi-ruyi solupdur,
Neçə rövşən xanimanlar olupdur,
Şəbi-yelda kimi tirətər səndən.

Böyük oğlun gəzər payi-piyadə,
Şol biri də tələf oldu aradə,
Xahi gəda, xahi büzürgzadə,
O kimdi çəkmiyə yüz həzər səndən.



Sikkə olmaz övladının cibində,
Rizqləri yırtıq çuval dibində,
Can verdi madərin özgə evində,
Nə düxtər yarıyub, nə pesər səndən.

Ömri-təvilinə budur ki, dəlil,
İstəməz yüzini görə Əzrail,
Bundan sonra hələ yaşarsan yüz il,
Vəchi budur, əcəl yan gəzər səndən.

Üləmayə dersən föhşü latayil,
Təriqi-islamə degilsən qail,
Bu hal ilə genə çox əqli zail,
Gəlüb eşiginə zad istər səndən.

Təsəllütün yetsə şeyxülislamə,
Anı bizdən betər salursan damə,
Əbəs yerə düşmə xəyali-xamə,
Nifrət eylər, billah, kim görər səndən.

Mən səni tanırdım, işlərin qandır,
Yüz deyələr, elə həman-həmandır,
Elə bilsün padşahi-zamandır,
Hər kim iraq olur, müxtəsər, səndən.

Təqəllübdə, təfənnündə ustadsan,
Doğru sözün yoxdu, kizbə mötadsan,
Qatili-imamsan, İbni-Ziyadsan,
Lazımdır eyləmək əlhəzər səndən.

Vəsfi-sifatından danışdım xeyli,
Eşitsün hər kimin var isə meyli,
Elə yalqız Zakir degil gileyli,
Azürdədir aləm sərasər səndən.

* * *

## BE MİRZƏ FƏTƏLİ DƏR XÜSUSİ-MƏĞŞUŞİ ƏZ CƏHƏTİ-DƏRDAN

Xəbər alsan bu vilanın əhvalını,
Bir özgədir keyfiyyəti-Qarabağ.
Həqdü, bundan əqdəm görübsən sən də,
Hanı o qaidə, o qanun səyaq?

Qüttai-təriqin vüfuri vardı,
Yaylaqda, aranda qatar-qatardı,
Genə soxa-soxdı, apar-apardı,
Bizim başımızda çatdadı çanaq.

Səfikürdi, Hacısamlu, Kolanı,
Dutarlar, soyarlar dalda qalanı,
Viran qalsun, görüm, Doyranbasanı,
Evdə yatan yoxdı, qarışub papaq.

Zərgər, Drağarda aləm-aşikar,
Bir ucdan oğurlar, bir ucdan satar,
Vay odur, sahibi at başı dutar,
Yüz yerdən tökülür üstünə çomaq.

Qarabaldır xəlqi, xüsus Ərəblər,
Qarınca dəməgə necə dən çəkər,
İşdədir sübhədək, ta ki, gecələr,
Dögələr, kim gəlüb eyləsə soraq.

Belə vilayəti dağıtsun tarı,
Ziyadə məğşuşdur Ərəs kənarı,
Xurda, Parababi, Qarğabazarı,
Maralyan, Horadiz, Nuzyar, Quyucaq.



Hər obadan çıxar otuz, ya əlli,
Özü cələkəsən, adları bəlli,
Yenə şorta-şortdu Adıgözəlli,
Min evdən artuqdur yığıntı qazaq.

Əgər xəbər alsan Molla Səfini,
Oğru, dürüst qarışdurub kefini,
O, Qələdə biçər ölü kəfəni,
Çöldə üç atını soyuplar çıplaq.

Qarabağda nə day qaldı, nə dana,
Bu gün, sabah qaçar hərə bir yana,
Tənbih etmək ilə Xınzırstana,
Xub, saldı nizamə ölkəni qoçaq.

Ədalətdə yoxdur bir kəsir, kəmi,
Bundan sonra vilayətin nə qəmi,
Əlbət, dağıdarmış külli-aləmi,
Ağzından süd iyi gələn bir uşaq.

Birindən şikayət edərsən əgər,
Danışmağa qoymaz, sözüni kəsər,
Qardaş malı kimi ortadan bölər,
Muravlar oluplar oğruya ortaq.

Görsən, tanımazsan Yarımsaqqalı[21],
Çıxub əndazədən dövlətü malı,
Xandəmirof çaldı, çapdı mahalı,
O ki, dutub özün keçəl qurumsaq.

Gədə-güdə olub sahib-məsləhət,
Gündüz axşamadən danışur xəlvət,
İşlərimiz böylə keçsə bir müddət,
Qədimilər olur tamam şil, axsaq.

Gündə bir gətirür zakoni-tazə,
Fikri budur xəlqi verə güdazə,
Bizdən də məhrəmdir biri knyazə,
Nə məhrəm, füzulü heyvərə yanşaq.

Bilən yoxdur bu barədə niyyətin,
Bakü iradəsi görünür çətin,
Zən qəhbədir, çəkən andan minnətin,
Tez ölsə ölüdür, dirilməz naçaq.

Əbəs yerə bizi verdi zəvalə,
Oğrun-oğrun bələlara həvalə,
O ki olmalıydı oldı, saqqalə,
Daxi doğramasun soğan, sarımsaq.

Ömründə gəlməyüb doğrı dilinə,
Xaindi xişinə, qövmü elinə,
Əli Zülfüqarın vursun belinə,
Bəlkə ölə, pis yüzündən qurtulaq.

Həddən aşub büxlü həsəd, şərarət,
Yoldaş yoldaşına eylər xəyanət,
Alimdə əməl yox, bəgdə ədalət,
İşlərimiz olub saf gödən-bucaq.

Üləmalar yüz döndərüb xudadan,
Usanmaz bir ləhzə cövrü cəfadan,
Başı əmmaməlü seyyid, molladan,
Taətdə ovladır, ovqatıma qurşaq.

Həqq bilür ki, belişallu hacılar,
Zəhrimartək xəlqin ağzın acılar,
Düşəndə gözləməz anə, bacılar,
Bu əhldən sinədağəm, sinədaq.



Adın qoyub Kərbəlayi, Məşhədi,
Neylim, peşələri yaman peşədi,
Çoxun gördüm ayağ üstə i..di,
Belə millət olmaz, qoyun, oturaq.

Övrətlər ərinə deyər latayil,
Beşinə, onuna həm olmaz qail,
Qalmayub arada bir şərmi-hayil,
Az qalub gəzələr çöldə tumançaq.

Adət düşüb, indi bakirə qızlar,
Motalçasın salub otaqə gizlər,
Anası dinəndə topuqlar, dizlər,
Der: İmanına sı..q, o...raq.

Gərək bu aləmdən eləmək həzər,
Öz yerində degil çünki xeyrü şər,
Bihörmət olupdur pədərə pesər,
Yüzdə biri yaxşı olur ittifaq.

Özgə məqulədən danışaq bir az,
Deməsünlər kişi xamdır, annamaz,
Bir kəsə olmasa zəmanə dəmsaz,
Çox adamlar alur üstünə ayaq.

Həvadisi-dövran gərdişi-fələk,
Salmışdı binəyə kəpki yepələk,
Tülək tərlan kimi, qafil Həsən bəg[22],
Şuğuyub, çənginə götürdi bayaq.

Şüai-afitab olanda izhar,
Gəzə şəppərənin nə qüdrəti var?
Laçın seydgahə qılanda güzar,
İlim-ilim itər bayquş, yapalaq.

Var imiş söhbəti zamani-mazi,
Tainki, tərəfeyn oldular razi,
On dört ağac yolu cənabi-qazi,
Beş-altı saatdə getdi çaparaq.

Bir kəsin olmasa əqlü şüuri,
Əlbəttə, matəmə dönər süruri,
Həzəratın özgə idi mənzuri,
Əlminnətü-lillah kim, oldu dimaq.

Hər kimin ki, gülsə fələk yalına,
Baxmaz işün qabağına, dalına,
Bu övladın[23] əmlakına, malına,
Ləvənd oğlu[24] xub olmuşdu dadanaq.

Bir müddət istədi qızın Xanın da,
Dolandı dövründə, pasibanında,
Məəttəl qalmışam, bunun yanında,
Övrət almaq olub oyun-oyuncaq.

Şövhəri bir zənin yüz ola ədna,
Rəsmdir, gözləyə neçə vəqt, amma
Ərinin kəfəni saralmamış ta,
Talib imiş, tez çataşdı çatalaq[25].

Sən görgilən zən əhlinin havasın,
Məsnədnişin eylər çoluq yuvasın,
Qapsıyuplar yetimlərin obasın,
Ev sahibin qovar, [güclü] olsa qonaq.

Ərz edüb xanıma Cinlü bittəmam,
Bu xeyir iş tapmasa əgər sərəncam,
Gəlməzdik qapuna, verməzdik salam,
Dögəsən özini gər yerə taq-taq.



Bir kişi olmasa ci...də möhkəm,
Meyl eləməz ona mütləqa həmdəm,
Nə düşüplər munun dalına bilməm,
Şamü səhər atar finduqca tiryaq.

İddiası əfzun, çörəgi nayab,
Zülmi bəhri-Qülzum, səxası sərab,
Bir çakərə versə yarım şiş kəbab,
Dalınca buyurur yüz təklifi-şaq.

Rüsvalığın xasü amə bildirür,
Xəlqin zərü simin evə doldurur,
Hər övrətə dəgsə dər-dəm öldürür,
Xa...ı[26] zatülcənb g... yatalaq.

Kərbəla yolunda qatır oğrusı,
Saf əldən salupdur məni, doğrusı,
Günbəgün enilənür g..., sağrusı,
Həştad yaşındadır, hamıdan qıvraq.

Yüz ondadır, derlər: bu ömrü təvil[27]
Hələ bundan sonra yaşar otuz il,
Mənim kimi yalınqatdan nə hasil?
Adam gərək ola pesərək, topçaq.

Özünün on yerdə vardır əmlaki,
Bir yana baxanda qohumdu sa ki,
Kökündən çıxarur, eləməz baki,
Əgər ilişdirə bir yerə dırnaq.

Oğlunun hərəmi, qızı, pesəri,
Ahu kimi baxar o yandan bəri,
Odur xərab edən bizim işləri,
Yetişməz bir yerə, yüz il çalışaq.

Bir-birindən mərğub, müzəyyən, gögçək,
Calislərin əqli çaşar görəntək,
Ya kişinin ağı, qızılı gərək,
Ya övladı ola ayağı surçaq.

Axtarasan, yoxdur cibində dinar,
Qızım mələkülmövt, oğlum nahəmvar,
Qabaq dişi düşmüş bir keyvənim var,
Yüzün görən adam eylər istifraq.

Cəm olub tamami əqli seyrəklər,
Kimi odun qalar, kimi ətəklər,
Debudat nəqlindən ötəri bəglər,
Gündə bir qapuya salurlar yığnaq.

Lənət gəlsün hərcayinin pirinə,
Yetmək olmaz fitnəsinə, sirrinə,
Yalan satar tamam biri-birinə,
Zahirdə ittifaq, batində nifaq.

Xanzadələr özin çəküb kənarə,
Der: bizdən yoxdur sizlərə çarə,
Rəhim getdi, pənah pərvərdigarə,
Qaralmaz kibriya yandıran çıraq.

Bəgbaba halatın etsən istifsar,
Şükr olsun xudaya, yaxşı nəfi var,
Özi ucuz alub, bəhayə satar,
Böyük Xana həm gərəkdi, həm yaraq.

Banəmək hacıdan danışaq əndək,
Seyr etdi bazarı Tiflisdən gəlcək,
Götdi, yerə çaldı, taciri tək-tək,
Pişləngə saluban qurdu badalaq.



Cəm ola kullühum sərasər tüccar,
Alışda, verişdə ana kim çatar,
Adətdir, quyruqun g....ə qısar,
Hər yerdə ki, görsə köpəgi paraq.

Cəmşid bəgə yetür səlami-əfzun,
Knyaz Behbudofa ərz etsün əknun,
Nə rəvadır, bisiyasət, bizakun,
Viran ola nahəq bir qədim ocaq.

İki nəfər sadə cəvanü növrəs,
Heç birindən yoxdur rəncidə bir kəs,
Bir yanı Gölbasan, bir yanı Ərəs,
Kim görüb anları həmkari-qaçaq.

Böyüklük əmirə xoş səadətdir,
Vəlakin rəvişi ədl, ədalətdir,
Yıxılana qaidədir, adətdir,
Dayaq olan kəsə həqq olu dayaq.

Fərağət oturub hər kəs bir işdə,
Nə yazda yarıdıq, nə də ki qışda,
Ya Rəb, neyləmişdik bu dağılmışda,
Haram oldu bizə bir qarış topraq.

Çəkilüb köksümə dağlar, dügünlər,
Kafirə olmasun nəsib bu günlər,
Qınamasun məni könlübütünlər,
Fikrim dağınıqdır, xatirim övraq.

Məqsudimiz hasil olmadı bizim,
Yeksandır hicrində gecə-gündüzim,
Bu bədbəxtin halatındə, əzizim[28],
Barı, o viladə olgil göz-qulaq.

Gərçi vilayətdə çox idi əhval,
Müyəssər olmadı şərh edim əlhal,
Bir parəsin yazdım, elədim irsal,
Bu şərt ilə nə diş bilsün, nə dodaq.

Ziyarət eləyüb şeyxülislamı,
Zakiri-həzindən yetir səlamı,
Hacı Yusif, Molla Əhməd təmamı,
Haçan ola bir də deyək, danışaq.

* * *

## BE MİRZƏ FƏTƏLİ NƏVEŞTƏ

Piranəsərlikdə çərxi-kəcrəftar,
Eylədi vətəndən dərbədər məni.
Neyləmişəm, bilməm, dövri-zalimə,
İncidir düşəndə bu qədər məni.

Qarabağ mülkündə mən bəxtisiyah,
Bir ağ gün görmədim, Allaha pənah,
Saldı bəlalərə bicürmü günah,
Bir neçə müfsidü töxmi-xər məni.

Mən bir piri-tənha, zülmi-bihesab,
Müşküldü gətirmək bu möhnətə tab,
Yaman deyə-deyə eylədi xərab,
Hamıdan ziyadə üç nəfər məni.

Biri fasiq, facir, hədsiz zinakar,
Biri əgri-ügrü xeyli nahəmvar,
Biri danışanda baş-ayağ atar,
Bir neçə it tutdu bixəbər məni.



Adəm idim, əbəs yerə zay oldum,
Vilayət içində mən rüsvay oldum,
Oğrulara, quldurlara tay oldum,
Sanurdı xəlayiq peyənbər məni.

Dövlətlidən dövlət, kordan məzərrət,
Harda bihəya var zatına lənət,
Süxənçin sözilə etdi aqibət,
Pəsərimdən cüda, bipədər məni.

Dövləti-alidə ağarub saqqal,
Bir xilafım yoxdur, bu mən, o jurnal,
Bir zaman gördüm ki, yazupdu filhal,
Qüttai-təriqə bərabər məni.

Yetmişində zurna çalmaq ögrənən,
Gərək axirətdə çala ...verən,
Az qalub həştadı tamam edim mən,
Sən indi yazarsan əhli-şər məni.

Yetmək olmaz hərcayinin sirrinə,
Yalanı yeridir doğru yerinə,
Lənət oxur k...dadənin pirinə,
Diyari-qürbətdə kim görər məni.

Hər kimin vilayətdə simü zəri var,
Yüz adəm öldürə, həbsdən çıxar,
Yekənsiz danışmaq nə yanə çatar,
Bihörmət elədi simü zər məni.

Dərdbilməzə dərdi-dili açınca,
Rüzgarın cəfasından qaçınca,
Namərd körpüsündən rahət keçincə,
Razıyam apara o sellər məni.

Kişi yoxdu, baxma çula-çuxaya,
Adəm gərək dağa-daşa toxuya,
"Getmə, getmə" – deyüb, qoydu yuxuya,
Axırda itirdi Yekəpər məni.

Dalınca degiləm bir şüğlü karın,
Bilmənəm dövrüni leylü nəharın,
Həvəsi-vüsalın, zövqi-didarın,
Qoymaz yuxu yatam ta səhər məni.

Rəhi-müsibətdə keçmişəm candan,
Müxənnəsdir qorxan bir qaşıq qandan,
Ehtiyatım yoxdur paşadan, xandan,
Analar doğupdur şiri-nər məni.

Olmuşam Bakuda sakin fərağət,
Zövqi-tamaşası misali-cənnət,
Ziyadə dərdi-sər dəxi nə hacət,
Fəramuş eləmə müxtəsər məni.

* * *

**BE İSMAYIL BƏG QUTQAŞİNİ**

Bu əhlidən mehribanlıq görmədim,
Məgər bizə ola o yandan mədəd?
Qutqaşın tərlanı, Şəki şəhbazı,
Sakini-biladi-Şirvandan mədəd!

Qarabağ əşxası yeksər yağıdır,
Əvvəldən axıra zülm ortağıdır,
Bir gecədə canavarlar dağıdır,
Olmasa gəlləyə çobandan mədəd!



Nücəbalar qədrin bilür nücəba,
Əxlaqına, ətvarına mərhəba!
Daş-daş üstə durmaz aləmdə əsla,
Dəgməsə insana insandan mədəd!

Fəzayi-möhnətdə qalmışam möhtac,
Uşaqların olub vətəndən ixrac,
Təbibi-haziqsən, eylə bir əlac,
Yoxdur mana özgə dərmandan mədəd!

Yığılsa bir yerə yüz alinəsəb,
Danışığın mənat, sözün müntəxəb,
Aləm bilür bivasitə, bisəbəb,
Müşküldür arizə divandan mədəd!

Həzrəti İsmayıl olsun dəlilin,
Yetiş imdadına pirü əlilin,
Necə fərzəndinə ol dəm Xəlilin,
Cəbrail gətürdi qurbandan mədəd!

Əsasi-qiyamət olanda bərpa,
Kimdir qövrə yetən ondan masiva,
Sərdəftəri-rəsul, Xatəmi-Ənbiya,
Tənzili-ayeyi-Qurandan mədəd!

Çərxi-fələk salmış məni bu halə,
Malü mülküm tamam getdi zəvalə,
Qaidədir, şərməndeyi-əyalə
Yetişür sahibi-ehsandan mədəd!

Gəlməyüpdür mütləq ruyi-zəminə,
Tab edən mənimtək qəza qəminə,
Zövrəqi-əltafın dili-həzinə,
Gümanım var, verə tufandan mədəd!

Namərd ətəgindən dutasan yüz il,
Etibarım yoxdur, həll ola müşkil,
Olsa, olacaqdır dərdinə, ey dil,
Xələfi-Nəsrullah Sultandan mədəd!

Zakirəm həmişə səntək sərvərə,
Xoş göstərsün səni xaliq nəzərə,
Eyb etməz alişan ümərələrə,
İstəmək duayi-pirandan mədəd!

* * *

## BE KOLUBAKİN[29]

Səndən sonra, ey taci-sər, başıma
Gərdişi-zəmanə nələr gətürdi.
İki bimürüvvət ittifaq edüb,
Vilayətə yüz şurü şər gətürdi.

Qaçaqlıq binası edəntək Behbud,
Pişnihad etdim öz ərzimi zud,
Tərəfgirlik oldu axırda, nə sud?
Mənim doğruluğum zərər gətürdi.

Yüz ilin ocağın bicürmü günah,
Eylədilər viran, vallahü billah!
Bu talei-zəbun, bu bəxtisiyah
Daim mana xof, xətər gətürdi.

Həştadə yetmişdir sinnü salımız,
Bu dövlətdə ağarmışdı yalımız,
Getdi dövlətimiz, mülkü malımız,
Nəxli-təmənnamız kədər gətürdi.



Nücəba hörmətin gözlər nücəba,
Nasəza yaraşmaz, böyügə əsla,
Pədərindən degil yəqin bil, amma,
Hər kimsə ki, nami-pədər gətürdi.

Ədavət var idi bundan əzələ,
Yaman yerə yetüb iş gələ-gələ,
Dirəxti-bəxtimiz, əfsus ki, belə,
Varə-varə acu səmər gətürdi.

O kəslər ki, eyləmişdi xəyanət,
Əgləşüb eyvanda rahət, fərağət,
Mənim uşaqlarım bivəchü cəhət,
Gözlərimdən xuni-cigər gətürdi.

Bundan əqdəm kimin olsa üsyanı,
Derlərdi: "vayenni sud" kəssün anı,
Bilməzəm necoldu, o zakon hanı?
Naçalnik zakoni-digər gətürdi.

Məzərrəti əfzun, ədaləti yox,
Görünməyüb əsla belə soxasox,
Özi gəlməginə məmnun idik çox,
Dalusunca keçəl Nəzər gətürdi.

Dutupdur aləmi zülmi-bihesab,
Müşküldür gətürmək bu möhnətə tab,
Göynük, Biləcigi etmişdi xərab,
Bizim kəndə andan betər gətürdi.

Aşura günitək bir səhər çağı,
Yığdı ərabəyə övrət-uşağı,
Şamə rəvan etdi bimürvət yağı,
Görən yaxa yırtub, həzər gətürdi.

Bir adam ki yerə qoya əllərin,
Bilmək olmaz onun fitnə, fellərin,
Biabru etdi Tiflis ellərin,
O ayin ki, bu töxmi-xər gətürdi.

Əcəb əyyam imiş əyyami-sələf,
Gərək o günlərdə olaydıq tələf,
Çəgirgə bir tərəf, dolu bir tərəf,
Şum qədəmi gəldi, şərər gətürdi.

İki namərd uyub biri-birinə,
Yetmək olmaz heç birinin sirrinə,
Lənət gəlsün ...verənin pirinə,
Bəd binanı ...verənlər gətürdi.

Adamda insafü mürüvvət gərək,
Quyruq kəsməklə tula olmaz köpək,
İlan əti yeyüb yerikdə bişəkk,
O madər ki, belə pesər gətürdi.

Neçə gün söyləndi bu yerdə əhval,
Qubernator olur ol nikuxisal,
Malımız, mülkümüz müjdədir əlhal,
Hər kim gəlüb doğru xəbər gətürdi.

Ey sahibi-şövkət, ey mədəni-şan,
Dadxahəm sizə, aman, əlaman,
Bu zülmi insana eylərmi insan?
Məgər ki, qəzavü qədər gətürdi?

* * *



## BE MİRZƏ İSMAYIL BAHARLU BE TƏRİQİ-HƏZL

Eşitdim ki, tazəlikdə satubsan,
Kəndini bir çuval gəndümə, Mirzə!
Bir misrəin özün yaxşı bilürsən,
Sənin p.... mənim zəndimə, Mirzə!

O sana düşməndir aləm-aşikar,
Hələ indi bu dəm ehtiyatı var,
Bir əndək ki, başı açıldı, salar
Genə səni yandım-yandımə, Mirzə!

Əlin çıxacaqdı dava-dərmandan,
Müntəfe olursan, amma nə çəndan,
Həsrət aparırsan Xınzırıstandan,
Yolun hər düşəndə kəndimə, Mirzə!

Eyib degil olmaq kişiyə kasıb,
Qulluğun var, buyur bizə münasib,
Əmanət-əmanət, oğlan, qar basıb,
Bayram xan ocağın söndimə,* Mirzə!

Nə tez barışursan, bildir dalaşdun?
Hər nə ki, eybi var aləmə açdun,
Noxtanı başından süyürüb qaçdın,
Yaxşı düşmüşdün fəndimə, Mirzə!

Rişxənd eyləyüb güldüklərini,
Çay içib ağzını sildüklərini,
Bəg babana vermə bildüklərini,
Demənəm ki, bir zad çəndimə, Mirzə!

---

* Söndürmə

Keçən ildə hərçənd olub qeylü qal,
Öhdəsinə götməz,* gözüm, əhli-hal,
Yolundı, yolundı ...... saqqal,
Oğlanı hüccətə mindimə,** Mirzə!

Sözündə çünki yədi-bəyzan var,
Hər kim olsa səni axtarub, tapar,
Yeyərsən, içərsən, qorxma, a yassar,
Qayım dur, özüni sındımə,*** Mirzə!

Məsəli-məşhurdur eldə, obada,
Sən özün də eşidübsən ziyada,
Mərd ətəgin dutan yetər murada,
Namərdə başını endimə,**** Mirzə!

Kəlamıdır dürüst, sözüm hesabı,
Müşküldür bu əmrə gətirmək tabı,
Mən bilürəm yazacaqsan cavabı,
Xeyrin degil, məni dindimə,***** Mirzə!

* * *

## DƏR HƏCVİ-MƏHƏMMƏD BƏG[30]

Ol kərimi-karsazə sığınub,
Yazmışdın bir əfsanə, Məmməd bəg!
Ağdamda yetişdi mənim dəstimə,
Şərh eylədim bir-bir xanə, Məmməd bəg!

* Götürməz
** Mindirmə
*** Sındırma
**** Endirmə
***** Dindirmə



Məqami-təslimdə qövmü qardaşın,
Bir əppək yeməzdi, olmasa xaşın,
Canın çıxsın, indi böyüyüb başın,
Salıbsan özünü qanə, Məmməd bəg!

Gözəl otaqların qalub natamam,
Ötən, keçən s..ar içinə müdam,
Qan tökülür gözlərimdən sübhü şam,
Hər baxanda o viranə, Məmməd bəg!

Ərməniyə basdun ərəq-çaxırı,
Çıxmadı bir yanə işin axırı,
Məsəli-məşhurdur: po..ar naxırı,
Ziyankar olsa bir danə, Məmməd bəg!

Demə bədxahımdır mənim filanı,
Əl çəkmə bu işdən, xeyrini tanı,
D........ saqqalın bir yanı,
Tək sahib ol Zəngilanə, Məmməd bəg!

Məsələamuzun Molla Zülfüqar,
Qazi ilə çoxdan rəfaqətin var,
Sənin kimi kafir olmasın düçar,
Heç bəndəyi-müsəlmanə, Məmməd bəg!

Bacı və qardaşı eylədin məğbun,
Qönçə kimi tamam olub cigərxun,
Gəleydi zəlzələ, afəti-taun,
Sən gəlincə Üçoğlanə, Məmməd bəg!

Baş qırxmaqda yədi-beyzan var idi,
Atbaşoğlu sana xidmətkar idi,
Becan bəgin ülgücü də var idi,
Götür, çəkil bir dükanə, Məmməd bəg!

İlxı Xanqızının həqqi-həlalı,
Muradxan şahiddir, yox qeylü qalı,
Özün qazanubsan qoyunü malı,
Böyük bəg danuşur canə, Məmməd bəg!

Aləm bilür, tamam sənindir yatır,
Cünun olma, nə könüldür, nə xatır,
Böyük bəgə iki dəvə, bir qatır,
Niyə verdin, ey divanə, Məmməd bəg?

Hərçənd validən olub tündxu,
Qarışur hər işə, edər cüstücu,
Bəg evində gərək balişi-pərqu,
Qoy daş üstə yatsun anə, Məmməd bəg!

Küçigə nə gərək kənd-kəsəg işi?
Böyük ilən olur alış-verişi,
Götürsün tulanı, gəmişsin quşi,
Keyfə baxsun alişanə, Məmməd bəg!

Qələt yazub sizin ərzəni yazan,
Tökülüb üstünə bir bölük xizan,
Kisəbürlük elə, tək yekən[31] qazan,
Nə baxarsan ada, sanə, Məmməd bəg!

Bayram hər nə desə doğrudur sözi,
Bu işlərdən tamam vaqifdir özi,
Səni istəməyən kor olsun gözi,
Əcəb daraşubsan kanə, Məmməd bəg!

* * *



## DƏR HƏCVİ-TƏBİBAN

Mana buyurmuşdun: Qələyə gəlsün,
Genə cuşə gəlüb bəhri-iltifat.
Sənin mərhəmətin, mənim ixlasım,
Mehri-münəvvərtək aləmə isbat.

Qalmışam aranda müddəti-mürur,
Təbiətə səfra eyləyüpdür zur,
İstər idim olam azimi-hüzur,
Naxoşam, hərəkət eyləyüb ixlat.

Bağıroğlu Məmməd, Məşhədi Hacı,
Əliqulu, Müqim sərimin tacı,
Hər mərizə eyləsələr əlacı,
Ehtiyatın görün, tez olur məmat.

Tiryak yedürür[lər], hər kim olsa diq,
Heyzədən aldurur xuni-basəliq,
Genə bu hal ilə o qövmi-zındiq,
Özlərin sanurlar Ərəstu, Bokrat.

Falicə verürlər qürsi-təbaşir,
Müstəsqiyə abi-kasni, məi-şəir,
Mərizin mərəzi, yəni çəkə dir,
Sahibin çapalar üç qatü dört qat.

Nüsxeyi-tibbdə şeş oxur "şuşi",
Məlamətdən yoxdur qəmü təşvişi,
Təşxisi-mərəzdə həmin danişi,
Budur ki, canı var, tərləsə mirat.

Təbiəti-harrə xalis əngəbin,
Qabizə süfuf, yəhuda darçin,
Bəlğəmi mizacə, töxmi-xiyarın,
Münasib bilirlər daimül-övqat.

Mərizin üstünə yetişən məhəl,
Dərviş Kəlbi hazır olur əlbəəl,
Qədəmlərin guya katibi-əcəl
Yazupdu baisi-mövti-münacat.

Fisqləri zahir, manəndi-günəş,
Həqq bilür sözümdə yoxdu qəllü qəş,
Yolları hər yerə düşsə sayəvəş,
Yanlarınca gedər "əyyuhəssəlat!"

Gah görürsən bir-birilə tapuşur,
Gah atlanub hər tərəfə çapuşur,
Lənü tən bunlara elə yapuşur,
Necə ali-Məhəmmədə sələvat.

Qələnin adəmi yetdi yarıya,
Necə ki, qoyuna ac qurt darıya,
Az çəkər ki, məzar dəgər yarıya,
Bu növ ilə eyləsələr hərəkat.

Vilayətə salubdular şurü şeyn,
Şərbəttək içirlər dəmül-əxəveyn,
Bunların yanında qatili-Hüseyn,
Zimmədən bəridir ruzi-ərəsat.

Bir kimsəyə ariz ola sədəmə,
Baxmazlar fəqirə, yoxsula, kəmə,
Qədəm götürməzlər, həqqül-qədəmə,
Ya on tümən pul gərəkdir, ya bir at.



İmalədə yədi-beyzaları var,
Həqq için bir ondan başları çıxar,
Mərəzi-digərdə, inanma zinhar,
Vüqufları ola, heyhat, heyhat!

Otuz il laəqəll gedüb qoyuna,
Bilfel çobandı, baxsan boyuna,
Dağılmışda xub düşmüşük oyuna,
Yetən olmadımı əhli-kəramat?!

Sən gör necə xərab olub zəmanə,
Çəmənlü Cəfər də mərdü mərdanə,
O da təbib olub, girib meydanə,
Çölün cəngəlindən yığubdu qat-qat.

O ki İsmailin saf azub vazı,
Gah yerdə qılar ölü namazı,
Gah tapub özitək bir annamazı,
İşə qoya xah türkü xah da ki tat.

Təsəllüti yoxdur "Töhfəyə" əsla,
Bilməz nədir "Qarabadın" mütləqa,
Ağızdan-ağıza ögrənüb, amma,
"Tibbi-Yusifi"dən bir neçə əbyat.

Gərək bu cahandan eyləmək həzər,
Öz yerində degil, çünki xeyrü şər,
Nə təbib, nə alim, Zakir, müxtəsər,
Axtarasan, yoxdı bir niksifat.

* * *

## BE CƏFƏRQULU XAN

Vücudi-lətifim, ey taci-sərim,
Eşitdim Qələdə bərhəm olupdı.
İztirabə düşüb bu macəradən,
Tamam əhli-Şişə pürğəm olupdı.

Qış güni Doyranda qalan əhli-beyt,
Yay Əglisə məskən salan əhli-beyt,
Didarına müştaq olan əhli-beyt,
Yüzün görüb şadü xürrəm olupdı.

Təəccüb eylərəm, allahü əkbər,
Boyaqçının küpi azupdı məgər?
Yüz ildü nəzərdən salduğun Yetər,
Tazədən sizinlə həmdəm olupdı.

Qövmü qardaş düzülüpdü yanına,
Duagudu şövkətinə, şanına,
Neyləsün, qarışub qanı qanına,
Fəqirlər siləyi-ərhəm olupdı.

Otaqda qatubən qurunı yaşa,
Yeyərlər, içərlər verüb baş-başa,
Biz görəntək degil Abdulla paşa,
Cürətbəhəm edüb, ötkəm olupdı.

Düşmüşdi nəzərdən müddət binəva,
Çıxmalu degildi üzə mütləqa,
Neçə gündi saçı, saqqalı, guya
Külahi-Buxara püf-nəm olupdı.



Öz xələfin gərək gözləyə kişi,
Sağlığında ola alış-verişi,
Hidayət ağanın düzəlüb işi,
Vəliəhdligi möhkəm olupdı.

Xan varisi lazimədir ola xan,
İşləyə bəratı hər tərəf, hər yan,
Gurginə dönmişdi biçarə oğlan,
Zahirən ki, indi Rüstəm olupdı.

Mehrü məhəbbətin keçsə bu minval,
Çıxar aralıqdan olan qeylü qal,
Basqun qoşun kimi dağılan ətfal,
Yığılub üstünə, sərcəm olupdı.

Rağib idim cövrü zülmə hər zaman,
Təbiətin zahir, felin nümayan,
Gəlüb-gedən sölər bəndəgani-xan,
İndi İbrahimi Ədhəm olupdı.

Bir kimsə yüz ola fəhmdə sərraf,
Eləyə Kəbəyə min kərrə təvaf,
Hədd yəqin olsun sana, biinsaf,
Hər iki aləmdə mülzəm olupdı.

Qorxuram göz dəgə bu ittifaqə,
Bir az əhli-hərəm qonsun aşağə,
İltifatın daim övrət-uşağə,
İnanmazam, əgər görsəm olupdı.

Bunlar yola gedər, bir tazə xəbər,
Yetişüb guşimə, rast olsa əgər,
Tərəhhümə gəlüb, deyirlər dilbər,
Tamam müddəilər əbsəm olupdı.

Rüxsari-alından manəndi-günəş,
Düşmüşdü sərasər cisminə atəş,
Şükr elə qadiri-biçunə, məhvəş,
Zəxmi-dərunə mərhəm olupdı.

Bir müddət keçürdün ahü zar ilə,
Qəmü möhnət ilə, intizar ilə,
Adətdü aşiqin nazlu yar ilə,
Arasında belə çəm-xəm olupdı.

Hər hacətin olsa, istə xudadan,
Əl götürmə təvəkküldən, duadan,
Aşiqə məşuqun başdan, binadan,
Nazü istiğnası hərdəm olupdı.

Əmanət, əmanət dəgməsün arə,
Düşməsün ədavət bir də dübarə,
Şamü səhər eylə təməllüq yarə,
Həqq yetirüb, özgə aləm olupdı.

Tövsəni-şəhvəti geri çək bir az,
Olmasun səg rəqib zəbanı diraz,
Allah eyləməmiş, olursuz nasaz,
Bir zaman görərsən, dərhəm olupdı.

Yarımayub bir kəs ömründə səndən,
Mükəddər qayıdur qapuna gələn,
Əsirgəmə feyzin, ey qibleyi-mən,
Düşəndə Zakirə kəm-kəm olupdı.

* * *



## BE BƏGLƏR BƏG MİRZƏ CƏFƏRQULU XAN

Bəglər, nə layiqdi Xan qulluğuna,
Bir kəs atlu gedə, piyadə gələ?
İldə bir yol düşər mənim güzarım,
Vay onun halına ziyadə gələ.

Böyügün dərində lazımdu dərban,
Axşamadən ola bəndeyi-fərman,
Təmənnasız gələn olur peşiman,
Gələ, gör bir adam muradə gələ.

Oğurluqa əcəb olubsuz mötad,
Həmrahi-birahın dad əlindən, dad!
Gedəndə şad gedər, gələndə naşad,
Hər kimsə ki, sizin bərbadə gələ.

Gəlməyən adama deyirsiz: gəlin!
Müşküldür qayıtmaq ayağı yalın,
Mən genə qıvraqam, Adıgözəlin
Gərək dalusunca ərradə gələ.

Məsəli-məşhurdur: "Quş dənə gedər",
Sizdə bir nəf yox səvayi-zərər,
Gəlməz o qapuya heç kimsə məgər?
Horadiz, Quyucaq fəryadə gələ.

Mundan sonra girən xanın evinə,
Gərək başmaqların soxa cibinə,
Ya keçürə saf otağın dibinə,
Nə isə mühəyya, amadə gələ.

Lazımdır tərəddüd xeyirdə, şərdə,
Ədalət yüzünə çəkübsiz pərdə,
Bir təziyə olsa, xudanəkərdə,
Gümanım yoxdur ki, molla də gələ.

Bir adəm təyin et asitanəyə,
Yaxşını, yamanı görcək tanıyə,
Nə eşigə, nə də qəhvəxanəyə,
Qoymaya hər yetən ... dadə gələ.

* * *

## CƏFƏRQULU XAN DƏR CAVABİ-ZAKİR NƏVEŞTƏ

Qasım bəg, adətdir Xan qulluğunda,
Bir kəs atlu gəlsə, piyadə gedər.
Mən degiləm aləmdə var, eldə var,
Böylə cüzi işlər aradə gedər.

Burada bir başmaq olub zərərin,
Qələm alub yazdın zəmmin bu dərin,
Zalım, məgər yoxdur sənin xəbərin?
O dər[32] dün ki, aləm fəsadə gedər.

İndi böylə görmə Adıgözəli,
Səndən qıvraq idi anın əzəli,
Hər zaman ki, durub yola düzəli,
Genə bədöv atdan ziyadə gedər.

Gədə, saf azupdur əməlin sənin,
Mədənisən, təqəllibin fitnənin,
Sən neçün bilməzsən bağlu gələnin,
Ayağı açılub guşadə gedər.



Oğlan, lap çıxıbsan sən əndazədən,
Neylər, hələ geyəcəksən yazədən,
Köhnə oğurlandı, tikər tazədən,
Bir adam yollaram, ustadə gedər.

* * *

## DƏR SƏNAYİ-DÜXTƏRİ-MEHDİQULU XAN XURŞİDBANU BƏGİM QOFTƏ ƏST

Ey bürci-səltənət, mahi-ənvəri,
Düşməyəsən, görüm, ziyadən səni!
Gecə-gündüz həqdən budur diləgim,
Hifz eyləsün, yaman bəladən səni!

Sipehri-bərinin hilalı sənsən,
Şərafətdə mələk misalı sənsən,
Gülşəni Xəlilin nihalı sənsən,
Barvər istərəm xudadən səni!

Məsihi çıxardan ərşi-əlayə,
Salan üftadələr başına sayə,
Yetmişdə İshaqı verən Sarayə,
Qurtarsun bu rəncü inadən səni.

Bəstəri-möhnətdə bixorü bixab,
Kimdir, aya, razı, çəkəsən əzab,
Ol saqiyi-Kövsər eyləsün sirab,
Əzizim, daruyi-şəfadən səni.

Çubi-Çini nədir, qibləsən, nəsən,
Təəccüb eylərəm bu əhvalə mən,
Dəstgirin olsun Hüseynü Həsən,
Fərağət olasan cəfadən səni.

Səqfi-sərayını, ey güli-növrəs,
Həddi nədir edə nişimən məgəs,
Tərcih verə gərək aqil olan kəs,
İsmətdə yüz huriliqadən səni.

Tikilən evlərə atandır səbəb,
Payəndazın olsa, canlar nə əcəb,
Cami-bəzmi-eyşin daim ləbaləb,
Qalmayasan zövqü səfadən səni.

Bu nə keyfiyyətdir, bu nə macəra,
Rəyincə dolanmaz təqdiri-qəza?
Pədəri-mərhumun hər sübhü məsa,
Günilərdi badi-səbadan səni.

Şikəstə Zakirə veribsüz əmək,
Əmək bilməyəni kor etsün nəmək,
Necə ki, baqidir həyatı, gərək
Unutmaya xeyir-duadan səni.

* * *

## DƏR HİCRİ-DİLBƏR

Sifariş eyləmişəm badi-səbadan,
Görəsən ki, o canana deyərmi?
Dolanub başına misli-pərvanə,
Od dutubən yanə-yanə deyərmi?

Bu sitəmlər dili-zarə keçdügin,
Əl çəkməyüb varə-zarə keçdügin,
Uzun illər günim qarə keçdügin,
Siyəh zülfi-pərişanə deyərmi?



Səg rəqibdən məclis olanda xali,
Çəküb bir kənarə çeşmi-qəzali,
Yüzün təmənnası, ləbin xəyali,
Salub binəvanı qanə, deyərmi?

Səbadən olmasa əgər bir çarə,
Cürət eyləməsə deməgə yarə,
Bu əhvalı ol türreyi-tərrarə,
Məhrəmdü, görəsən, şanə deyərmi?

Zakirəm, kuyindən avarəyəm mən,
Karü şüğlüm olub naləvü şivən,
Yad eyləyüb bir yol, ya Rəb, görəsən,
Harda qaldı o divanə, deyərmi?

* * *

## EYZƏN

Dost kuyindən bir gələn yox soruşaq,
Görək indi həmdəm o yarə kimdi?
Oturub yüzbəyüz edən tamaşa,
Doyunca çöhrəvü üzarə kimdi?

Adətdi, baxallar qaşları yayə,
Nəzarə edəllər rüxi-zibayə,
Mən düşmüşəm nahaq dami-bəlayə,
Baxmayan türreyi-tərrarə kimdi?

Yanaram şəmtək gecə sübhədən,
Karü şüğlüm olub naləvü şivən,
Bu qədər dərində sızıldaram mən,
Bir yol deməz: “Görən, biçarə kimdi?”

Gizlədim bir müddət, infial etdim,
Nə bir söz danışdım, nə də qal etdim,
Qan olmadı bu gün şərhi-hal etdim,
Deməyən dərdini dildarə kimdi?

Kuhkənin ev tikməkdi binası,
Həyat verür Qeysə seyri-səhrası,
Hər kəsin var bir mənzilü məvası,
Aləmdə Zakirtək avarə kimdi?

* * *

## EYZƏN

Badi-saba, söylə mənim yarıma,
Gözəllər çıxupdur seyranə, gəlsün!
Təğafül etməsün, işrət çağıdır,
İçilür hər yerdə peymanə, gəlsün!

Bənəfşələr salsun başın aşağa,
Nərgis olsun gözlərinə sadağa,
Gül camalın görüb düşsün torpağa,
Bülbüli gətürsün əfğanə, gəlsün!

Siyəh zülfi tər buxaqda diklənüb,
Sonalar yerişi andan öğrənüb,
Avçı görmüş maral kimi səksənüb,
Oğrun baxa-baxa hər yanə, gəlsün!

Barmağında xatəm, belində kəmər,
Qüllabə güşvarə, dügmə tamam zər,
Qərq olsun yaşıla, alə sərasər,
Naz ilə sallana-sallana gəlsün!



Sürmə çəksün həm gözünə, qaşına,
Gündə yüz yol mən dolannam başına,
Zakirtək yanmağa eşq atəşinə,
Cürəti var isə, pərvanə gəlsün!

* * *

## EYZƏN

Sevdigim, gələ, gör bahar fəslidi,
Könül istər gəzə bağı səninlə.
Gecə qucaqlaşub yata qolboyun,
Yerdən dura səhər çağı səninlə.

Nə xoş səadətdü dodaq-dodaqda,
Məzə müqabildə, badə qabaqda,
Vermənəm aləmə xəlvət otaqda
Deyüb, gülüb, danışmağı səninlə.

Xahi aqil olam, xahi divanə,
Yoxdu ehtiyacım hurü qılmanə,
Gedərəm duzəxə mərdü mərdanə,
Əsli budur sözün sağı səninlə.

Aşiqlər bağrını şan-şan eylərsən,
Gündə birin kəsüb qurban eylərsən,
Hər qıya baxanda yüz qan eylərsən,
Müşküldü dolanmaq, yağı, səninlə!

Ləbindü Zakirin abi-həyatı,
Dirildir ölünü hər ixtilatı,
Neylərəm şəkkəri, qəndü nəbatı,
Xoşdur mana içmək ağı səninlə.

* * *

## EYZƏN

Qadir Allah bir də səbəb salaydı,
Bəyaz cəbinində tağı görəydim.
Sürtəydim yüzümi gülgəz yanağa,
Siyəh zülfi, tər buxağı görəydim.

Səs-səsə verəydi həzarə bülbül,
Düşəydi payinə bənəfşə, sünbül,
Xuraman-xuraman əllərində gül,
Gəzəydik, hər tərəf bağı görəydim.

Bu dövran dolanub, zəmanə dönə,
Tarının kərəmi olaydı mənə,
Oturub səninlə dizbədiz genə,
Deyüb, gülüb, danışmağı görəydim.

Dərdü qəm çəkməkdən qan olub cigər,
Gətürən yox nazlu yardan bir xəbər,
O qədərə olmayaydım müxtəsər,
Genə o gördügüm çağı görəydim.

Zakirəm, çəkərəm cövrü cəfanı,
Yadlar ilə sürər zövqü səfanı,
Nə gərək, sevəydim ol bivəfanı,
Nə də belə hicran dağı görəydim.

* * *

## DƏR VƏSLİ-DİLBƏR

Əsib badi-səba, nümayan oldı,
Çaki-giribandan bir bəyaz məmə.
Şüai-şəmstək göz qamaşdurur,
Mən görmüşəm munun kimi az məmə.



Hər ikisi biri-birindən göğçək,
Mümkündi nə öpmək, nə də dişləmək,
Təxt üstündə qoşa şəhzadələrtək
Əgləşüb, oturub şahibaz məmə.

Gül qönçəsi kimi gülşən içində,
Behişti-bərintək məskən içində,
Pirahən altında, çəpkən içində,
Hərdəm eylər bir-birinə naz məmə.

Könül, nə çəkərsən munca intizar?
Sev bir ala gözlü, tər buxaqlu yar,
Ömri-dübarədir, xoş səfası var,
Gərəkdir kişiyə qışü yaz məmə.

Aşiqliq cahilin ağzına gəndi,
O kəsə meyl et ki, qədir biləndi,
Nə qaim sorandı, nə dişləyəndi,
Eyləmə Zakirdən ehtiraz, məmə.

* * *

## EYZƏN

Dilbər, tər sinədən götür çarqatı,
Qoy bir dəm görünsün göğçək məmələr.
Həsrətin çəkməkdən canə yetmişəm,
Açsun könlümüzi çiçək məmələr.

Örtüb basdırırsan gül pirəhəndə,
Bu xasiyyət nədir, bilməzəm səndə?
Qar degil əriyə nəfəs dəgəndə,
Bir şey degil yeyək, içək, məmələr.

Eşq əhlinə olsa xoş iltifatın,
Gətirmə adını abi-həyatın,
Şirinlikdə balın, qəndü nəbatın,
Tamamı yalandır, gerçək-məmələr.

Pistanı boşalan bənzər gəlinə,
İstər dəlinməyə, istər dəlinə,
Vermə, səd əmanət, nadan əlinə,
Əzilməsün o gəmirçək məmələr.

Zakir, hamı dərddən bu dərddi yaman,
Bir kəs ahıl ola sevə növcəvan,
Qorxuram diş düşə, tökülə dəndan,
Durmaya ağzımda sürçək məmələr.

* * *

## EYZƏN

Sevdigim, bir yerə cəm eyləsələr,
Məhvəşi-dövranı sana yetişməz.
Çıxaruban gətürsələr Misirdən
Yusifi-Kənanı, sana yetişməz.

Sanasan içində gül pirəhənin,
Bir bərgi-səməndir cəsədin sənin,
Quzu quyruğundan tərdir bədənin,
Şerayi-Yəmani sana yetişməz.

Həqdi, gözəl çoxdu bu vilayətdə,
Hərgiz ola bilməz sən məlahətdə,
Ey dürri-nasüftə, qədrü qiymətdə,
Yaquti-rummani sana yetişməz.



Müştəridir sana Zöhrə fələkdə,
Gecə-gündüz övsafını deməkdə,
Bərabərin yoxdu gögdə, mələkdə,
Behiştin qılmanı sana yetişməz.

Övsafın deməgə sənintək şahın,
O çöhreyi-alın, zülfi-siyahın,
Firdovsi, Camitək gərək məddahın,
Zakirin hədyanı sana yetişməz.

* * *

## EYZƏN

Ey yığılan canlar, siz olun tarı,
Amandı, qoymayın, yar oynamasun.
Bir belə adamın içində, yəqin,
Əlbəttə, bədnəzər var, oynamasun.

Vüqarla otursun o gülbədənim,
Bu yığnaqa çoxdu gedüb-gələnim,
O oynasa, olur, bilsün ki, mənim
Gen dünya başıma dar, oynamasun.

Xəlq içində xəcil etməsün bizi,
Müştaqdır gözünə aləmin gözi,
Yel atar çarqatın, açılur yüzi,
Badə gedər namus-ar, oynamasun.

Oynamağa həvəs eyləsə, barı,
Oynasun gecə saf olanda yarı,
Günün hərarəti, yerin buxarı,
Tər bədənə eylər kar, oynamasun.

İltimas eyləsə qızlar, gəlinlər,
Dabanı çatlaqlar, ayaqyalınlar,
Oynasa, oynasun göniqalınlar,
Zakir, ol məməsi nar oynamasun.

* * *

## EYZƏN

Ey yığılan canlar, minnət eyləyin,
Dursun, o gözəllər şahı oynasun.
Dəst dutsun Ütarid, Zöhrə, Müştəri,
Fələgin şəms ilə mahı oynasun.

Sərasər əlvanə batsun gül bədən,
Siyəh zülfün töksün qamətilə tən,
Demənəm oynasun ta axşamadən,
Gah otursun, gah-gahi oynasun.

Salubən piləkduz cuna başına,
Sürmə çəksün həm gözünə, qaşına,
Can nəqdini verək biz şabaşına,
Eşq əhlinin qibləgahı oynasun.

Odur bizim sultanımız, xanımız,
Yolunda qoymuşuq din-imanımız,
İntizar çəkməkdən çıxdı canımız,
Bəsdir bu nəzakət, dahi oynasun.

Şikəstə Zakirəm, görüb karımı,
Dağıtdım yolunda yoxü varımı,
Aparub əqlimi, ixtiyarımı,
Xahi oynamasun, xahi oynasun.

* * *



## DƏR BƏYANİ-AN KE DİLBƏR BEÇE SƏFTHA BAYƏD BEŞƏVƏD

Bu dövri-fanidə beş gün kişinin,
Bir yaxşı, vəfalı yarı gərəkdir.
Aralığa rəqib girə bilməyə,
Bir-birinə etibarı gərəkdir.

Əhdi dürüst ola, iqrarı möhkəm,
Gözündən irağa düşəndə bir dəm,
Nə könlü açıla, nə ola xürrəm,
Fikri, zikri sənin sarı gərəkdir.

Yadlar ilə danışmaya, gülməyə,
Namünasib yerə gedib-gəlməyə,
Hər sözi şəninə layiq bilməyə,
Namusı, qeyrəti, arı gərəkdir.

Naməhrəmə görünməyə, yan gəzə,
Bihəya olmaya adü san gəzə,
Amma öz evində alişan gəzə,
Ala, verə, ixtiyarı gərəkdir.

Cahılluq zamanı keçüpdür əgər,
Genə yüz naxələf oğlana dəgər,
Piranəsərlikdə bir belə dilbər,
Yetürə Zakirə tarı gərəkdir.

* * *

## DƏR BƏYANİ-ƏDƏMİ-MÜVAFİQƏTİ-ZƏNANİ-CAHİLƏ BAPİRANÜ KEYFİYYƏTİ-İŞANÜ MÜVAFİQƏTİ-CƏVANAN BACƏVANAN

Qələtdir qocaya növcəvan sevmək,
Sevgi sevgisinə bərabər gərək.
Axşamadən deyə, gülə danışa,
Aralıqda nə kin, nə kədər gərək.

Haşa, meyli ola pirə növrəsin,
Müsavi gərəkdir cüfti hər kəsin,
Cəmdəkdir töməsi qoca kərkəsin,
Nəinki laçıntək kəpki-dər gərək.

Hər kimin ki, tökülüpdür dişləri,
Hərgiz yeyə bilməz kal yemişləri,
Limu məmələrə olan müştəri,
Höqqeyi-dəhanı pürgühər gərək.

Nə məsrəfi ona şeirü qəzəlin,
Bir əməldən qeyri özgə əməlin,
Həvavü həvəsi olan gözəlin,
Şaxi-təmənnası barvər gərək.

Şah ola kühənsal, bil ki, gədadı,
Tağmürdə meyvənin olurmu dadı?
Tazə-tər sənəmin nəxli-muradı,
Rəqibin könlütək səxttər gərək.

Tökəsən ortayə yüz qəndü nəbat,
Dönəsən başına kərratü mərrat,
Heç birilə şirin düşməz ixtilat,
Xülasə, arada neyşəkər gərək.



Əlfi lam-əlifə cüft edən kəsin,
Busə bazarını müft edən kəsin,
Dürri-nasüftəni süft edən kəsin,
Əli titrəməyə, kargər gərək.

İgirmidən əfzun olmaya salı,
Otuzadən genə olur həvalı,
Dutmağa, basmağa vəhşi qəzalı,
Qoca tülki bilməz, şirü nər gərək.

Öküz palanına söykər başını,
Dincəlməz, dəmbədəm durar qaşını,
Dinəndə çəkərlər ocaq daşını,
Nə düxtər şərm eylər, nə pəsər gərək.

Ac qurt kimi özin elə toxuya,
"Vəlfəcr"ini saf tərsinə oxuya,
Qoymaya ki, gözi gedə yuxuya,
Öpməgi, qucmağı ta səhər gərək.

Çıxarubən köksin bəndü bağından,
Kami-dil götürə gül yanağından,
Yüzündən, gözündən, tər buxağından,
Dəmadəm buseyi-mükərrər gərək.

Tərəddüd olmaya axşama yavuq,
İşrət evi sevməz, əngəli artuq,
Bir şəm ola, bir də aşiqü məşuq,
Kəsilə hər yandan rəhgüzər gərək.

Rəf olub aradan həyavü hicab,
Xaneyi-işrətin edəsən xərab,
Hədəfi-məqsudə o tiri-şəhab,
Nişəst ola gəh-gəh ta bepər gərək.

Bu hünərlər gəlməz səksən yaşludan,
Əli rəşəlüdən, titrə başludan,
Kami-dil istəyən qələm qaşludan,
Onda bu sifətlər müyəssər gərək.

Qoca səhər ertə tiryakin atar,
Ət tökmüş quş kimi mürgilər, yatar,
Günüzlər dabanın ocağa çatar,
Ovasan sübhədən gecələr gərək.

Çölə çıxa bilməz, dar olur x..i,
B.. etməgə gərək evdə bir quyi,
Ağzının, gözünün müttəsil suyi,
Yedigi təamə damcılər gərək.

Yeksər işdən qalur ayağı, əli,
Danışığı çaşar, əqli azalı,
Keçən gün yadına düşər, kövrəli,
Öz-özünə ağlar, həm gülər, gərək.

Sərgi kənarında, əlində qarğu,
Oturdullar desün qarğa quşa hu,
Elə ki, yorulub düşəndə uyğu,
Sökənüb çətənə mürgülər, gərək.

Yarım saat əgər gec olsa çörək,
Yürəgi üzülüb, ağlar uşaqtək,
Nə çarə, əcəlsiz olmaz öldürmək,
Ocaqda bişməmiş, müqərrər gərək.

Şəbçərəzi tükənəndə cibindən,
Qab-qacaq oğurlar, satar evindən,
Bu qocalıq ya olmaya dibindən,
Olsa da, kisəsi dolu zər gərək.



Təng olur danışan dəmdə nəfəsi,
Keçi irtməgitək əsər çənəsi,
Üç ay yayda yaxşı ağac kölgəsi,
Qış olanda yeri günəvər gərək.

Qonşuya ki, gedər əlində əsa,
Nabinalar kimi lap basa-basa,
Yolda pişav dutar, düşər tas-vasa,
Aftaba gəlincə süzələr gərək.

Müşkül degil almaq bir gülbədəni,
Nəhayət, qorxuram el qınar məni,
Payibənd eyləyən cavanəzəni,
Əmri-ilahidən bixəbər gərək.

Tazə-təri sevmək arturur qovğa,
Eyləməz bu işi aqilü dana,
Zakir, səndə qalmayupdur təvana,
Bu sövdaya düşən pürhünər gərək.

* * *

## DƏR BƏYANİ-GİRİFTARKƏRDƏNİ-DİLBƏRAN MƏRDOMAN RA VƏ İSTİĞNA NƏMUDƏNİ-ANAN

Adətdir xublara başdan, binadan,
Bir müddət aşiqə hələ yağ çəkər.
Elə ki, yandurdı dürüst ayağın,
Görərsən ki, yavaş-yavaş dağ çəkər.

Beş gün, üç gün duzlar tərəsin əvvəl,
Aralıqda olur filcümlə get-gəl,
Sonra deyər çoxdur yanımda əngəl,
Biçarə eşikdə iştiyaq çəkər.

Aldaduban alur əlindən varın,
Elə ki, keyfincə saf gördi karın,
Xəlvətdə ögrədər motalçıların,
Kimi qapaz salur, kim çomaq çəkər.

Əzəldən deyər ki, bəri dur, bəri,
İrəlü gedərsən, o durar geri,
Səni görcək özin soxar içəri,
Tünd olub, qapını bidəmaq çəkər.

Lənət gəlsün bədəsilə, gövdənə,
İstəmə, əgər ki, can verə sənə,
Şikəstə Zakirəm, gərəkməz mənə,
Bu xiffəti hansı qurumsaq çəkər.

* * *

## DƏR VƏSFİ-ASARİ-ŞƏHRİ-XƏRABEYİ-BƏRDƏ[33]

O viladə bir mehriban görmədim,
Gəlmişəm indi də mehriban gəzim.
Seyr eləyim tamam Tərtərbasanı,
Varmı aşiqinə can qıyan, gəzim.

Tülək tərlan avlağıdı bu yerlər,
Bərdə toprağına eləyim güzər,
Görüm qalupdurmı Şirindən əsər?
Baxam hər tərəfə, nigaran gəzim.

Xosrovi Pərvizin şanü şövkətin,
Fərhadın ələmü qəmü möhnətin,
Şapurun çəkdügi nəqşü surətin,
Arayub axtarub hər zaman gəzim.



Dolanub sərasər çarsu bazarı,
Gətürəm nəzərə səmti-minarı,
Görsəm, xəbər alam bülbüli-zarı,
Necə oldı, ol gül, gülüstan gəzim?

Deyəm hanı munda gəzən gözəllər?
Təyhuli meşələr, sonalı göllər,
Çayın kənarında tikilən ellər,
Yoxdu heç birindən bir nişan, gəzim.

Ol baş-başa verən sərvi-rənalar,
Hər guşədən gələn sövtü sədalar,
Zərrin piyalələr, meyi-səhbalar,
Gərdişi-badeyi-ərğüvan gəzim.

Adətü qanunun o diyarın mən,
Görmüşəm, yazuplar xeyli müstəhsən,
Bayram gecələri ta ki, sübhədən,
Neçə həmdəm ilə çırağan gəzim.

Əmirzadələr yeyüb nəharı,
Genə çapuşurmı Xənəgə sarı?
Boynu qəlladəli səgi-şikarı,
Gəmişürmi seydə səvaran gəzim.

Mundan əzəlkitək o viranədə,
Gəşti dutulurmı asitanədə?
Çillədə əsrimiş, şütürxanədə
Qızmış dəvələri görüb yan gəzim.

Aşiqə sölərmi qasid ənqərib,
Qəm yemə, dilrüba sanadır nəsib,
Zimistan qeydindən çıxan əndəlib,
Axtarurmı tazə aşiyan, gəzim?

Cəvahirfüruşlar satarmı göhər?
Xublar yaraşığı görürmi zərgər?
Karvansaralarda tacir, qələndər,
Necə keçər şami-qəriban, gəzim?

Gecə-gündüz daim, bangi-cərəsdən,
Qulağ dutulurmı sədayi-səsdən?
Bakudan, Dərbənddən, Krım, Çərkəsdən,
Gəlürmi mətai-bipayan, gəzim?

Sayeyi-sərvdə məcməi-xuban,
Genə əgləşürmi xoşdilü xəndan?
Yoxsa ki, olara saqiyi-dövran,
İçirüpdir mey yerinə qan, gəzim.

Nazəninlər ta tülui-afitab,
Oturub gecələr çəkərmi gülab?
Çeşmi-aşiq kimi fəvvarədən ab,
Tökülürmi hövzə nümayan, gəzim?

Müzəyyən məhlələr, münəqqəş evlər,
Mütriblər içində həng, hava sölər,
Tövlələrdə çığruşurmı bədövlər?
Çəkirmi şeyhəyi-firavan, gəzim?

Həmamlarda məsrəf olan ağçanı,
Pozğun otağları, uçuq tağçanı,
Yıxılan tağları, viran bağçanı,
Xatirimə salub, pərişan gəzim.

Təblü ələm sahibləri xanlara,
Darğanişinlərə, pasibanlara,
Ol səri sövdalı növcəvanlara,
Yaxa yırtub çaki-giriban gəzim.



Qibleyi-hacətə yıxub özimi,
İmamzadəyə sürtəm yüzimi,
Xak olan tənlərə tiküb gözimi,
Olam sağlığıma peşiman, gəzim.

Hərgiz bu cahana yoxdur etibar,
Səfası bir isə, yüz cəfası var,
Baş götürüb gedəm diyarbədiyar,
Eyləyim aləmi imtahan, gəzim.

Bülbüli-biçarə verdi xəbəri,
Dedi ki, qalmayub şənlik əsəri,
Mən Zakirəm, onı görəndən bəri,
Gərək cünun olub, biyaban gəzim.

* * *

## MÜSTƏZAD

Ey göhəri-pakizəyi-dəryayi-lətafət,
Həm kani-həqayiq!
Övsafi-sifatın məni-məddahə nə hacət,
Aləm sana aşiq.
Şəkkər ləbinə kuhkənin dursa müqabil,
Şirini olur təlx.
Ruyin görə, haşa, ana ta ruzi-qiyamət,
Əzrasını Vamiq.
İyzəd ki, çəküb yer yüzünə pərdeyi-ətləs,
Bivəch degil bu.
Dutmuş sana, ey mehr, məhi-bürci-səadət,
Gərduni süradiq.
Ləli-ləbinə badeyi-gülgun desə hər kəs,
Vur boynunı dərdəm.
Qan eyləyənin qətlinə əhkami-şəriət,
Yeksan müvafiq.

Fərq etməyə sübhün kişi ta sidq ilə kizbin,
Vacib dögi səcdə.
Vacibdü əgilsün sana hərdəm səri-taət,
Nə kizb, nə sadiq?
Ol günbədi-dəvvarə yetür kəlləmi, ey məh,
Sal sayəni başə.
Yəni elə bu bəndəyə ənami-inayət,
Bir türfə yaxalıq.
Bəsdir bir işarə, dəxi küstaxlıq etmə,
Ey Zakiri-təmma.
Bir kimsəyə bir kimsə edən vəqt şəfəqqət,
Öz adına layiq.

* * *

Ey dilbəri-birəhmi-sitəmkari-cəfakiş,
Səndə bu nə adət.
Bir kərrə deməzsən ki, filani bizə gəlmiş,
Lazımdu ziyafət.
Hər yetən ilə ülfət edüb, özüni qılma
Bədnam cahanda.
Şayəstə degil olsa gözəllərdə böylə iş,
Etmə səd əmanət.
Biganələrin kuyinə getmə ki, olursan
Axirdə peşiman.
Sən bil ki, kəminində sənin çoxdu bəd əndiş,
Cuyəndəyi-fürsət.
Müddətdü dərindən bizi avarə salubsan,
İnsaf degil bu.
Aldı məni ənduh, qəm, möhnətü təşviş,
Bir eylə mürüvvət.
Məşuqə gərəkdir çəkə dərdü qəmi-aşiq,
Bir yar ki Zakir.
Dildadəsinə eyləməyə rəhm kəmü biş,
Əcdadına lənət.

* * *



# DİGƏR MÜƏLLİFLƏRİN ŞEİRLƏRİ

## MÜRƏBBEAT

### DƏR GÖFTÜGUYİ-AŞIQ PƏRİ BE MƏHƏMMƏD BƏG NƏVEŞTƏ

Eşitdim naməyi-mehrü məhəbbət,
Yetişür müttəsil Pəridən sana.
Aşiqin məşuqu gərək çağ olsun,
Nə hasil, o quru dəridən sana.

Əzəl sevdin Fatma ilən Məryəmi,
Oların dalınca Şahisənəmi,
Belə sevda xərab eylər adəmi,
Özün bil, deyürəm bəridən sana.

Biri piri-kamil, ikisi sadə,
Oynaş olmaz üçdən, dördən ziyadə,
Tapşurub qab...n Şirin Fərhadə,
Məgər fürsət ola ger..dən sana?

* * *

### DƏR XÜSUSİ-ŞİKAYƏTİ-ƏZ RUZGAR MİRZƏ MEHDİ BE ZAKİR NƏVEŞTƏ

Zakir əmi, tarı nədən ötəri,
Yaradupdur bu dünyadə bizləri?
Xəlqə verüb dövlət, izzət, həşəmət,
Pabənd edüb quru adə bizləri.

Hər bir nakəs olub sahibi-əsas,
Yeməkləri ləziz, faxirdi libas,
Biz tapmayuruq vəqt-vəqtində kərpas,
Zəlül edübən ziyadə bizləri.



Əlbəttə, olsaydı bizdə namus, ar,
Sayirlərtək biz olurduq namidar,
Ruziyi-qismətdə Heydəri-Kərrar,
Salmayupdı yəqin yadə bizləri.

Babalarımız çörək tapdı qanilən,
İxlas ilən, qulluq ilən, can ilən,
Bilməzdizmi çəkişəndə xan[34] ilən,
Kişi möhtac edər cadə bizləri.

Əgər olsa idi bir xoş halımız,
Əksük olar idi qeylü qalımız,
Almazdı mülkümüz, atü malımız,
Qoymaz idi papiyadə bizləri.

* * *

## MÜXƏMMƏSAT

### MÜXƏMMƏSİ-BABA BƏG DƏR HƏCVİ-ƏMİRASLAN BƏG

Ağlayun qan, Cavanşir Əmiraslan gəlür,
Mərdi-mərdanə olub azimi-meydan gəlür,
Taxuban şişə sizi etməgə bir yan gəlür,
Mədəni-lafü gəzaf hərzəvü hədyan gəlür,
Mələkülmövt kimi almaq içün can gəlür.

Götürüb hər nə var əsbabi-zənin tatə verüb,
Min beş yüz manat alub cümlə kəmənd atə verüb,
Götürübən o da bir hökm bu bədzatə verüb,
Rəxti-xabin də derlər ki, satub atə verüb,
Minübən qapu-qapu etməgə cövlan gəlür.

Gündə min kərrə yalan yerə nahaq and içən,
Əqli kəm, beyni quru, hər daşın ardınca qaçan,
Düşdügi evi yıxub, hər yedügi qaba ...an,
Öz halalını qoyub, hər gecə yüz qapu açan,
Hiyləgər, mədəni-şər, madəri-şeytan gəlür.

Hərzəguluq bulara rəsmdir, əvvəl başdən,
Gündə min kərrə yalan barə qoyarlar duşdən,
Bunda yox şərmü həya, çünki çıxıpdur işdən,
Xuda şahiddir özi kim, bu xəta görmüşdən,
Elə bir mən degiləm, aləmə nöqsan gəlür.

Genə naibliq ana çünki yetişdi möhkəm,
Dəxi mundan belə heç kəs ola bilməz xürrəm,
Yer ilən gögün arasını dutupdur matəm,
O basandan bəri bu xəlqin arasına qədəm,
Hər yerə düşsə yolun görürsən əfğan gəlür.

Lal olsun, sölə talib kimi Zal əhli tamam,
Etməsün laf bu gündən belə qal əhli tamam,
Ağlasun bunların əhvalına hal əhli tamam,
Ruzi-aşuradı bu, sanki məhal əhli tamam,
Baş açıq, sinəzənan didəsi giryan gəlür.

Ərzə verdi o qədər, karı dürüst oldı genə,
Aləmin heyvərəsi, yanşaqı bu hərzəçinə,
Gündə min yol danışur kimsəni qoymaz ki dinə,
Həst-nistin Qələdə məsrəf edüb qəhbə zənə,
Kül sizin başınıza olupdı, üryan gəlür.

Edəcək zir-zebər, düşsə yolu hər cayə,
Elə zalımdı ki, bu nisbəti yox tərsayə,
Bu səyaq ilə dolansaq degərük rüsvayə,



Gün kimi kari-bədi şölə salub dünyayə,
Dəhəni xaneyi-laf, ün-səsi Şamdan gəlür.

Ey divanxanə bəgi, mən necə bu cövrə dözüm,
Çıxmadı, gördi genə böylə sitəmkarı gözüm,
Məni bir it dutacaq vaqiədə gördüm özüm,
Budur, ey arifi-dünya, sizə axir ki sözüm,
G.. ve...dən deməsün bir kəsə ehsan gəlür.

* * *

## MÜXƏMMƏSİ-MƏSİHA DƏR MƏDHİ-DİLBƏR

Ey şux, rüxün gün kimi əşyayə mücəlla,
Üşşaqə tamaşayi-camalın fərəhəfza,
Mənidə rümuzi-dəhənin elmi-müəmma,
Sən kimi tapılmaz büti-ziba, sənəm əsla,
Hər zib sana süni-xuda birlə mühəyya,
Dahi nə bəzənmək?!

Məşşastə nə lazım sana, ey afəti-dövran,
Kim, ayinəni eyləyəsən hüsnünə heyran,
Nazik yüzünə qazə nigah etsə düşər qan,
Təpsün gözünə sürməsini əhli-Sifahan,
Çeşmi-siyəhin kim, ala hər işvədə yüz can,
Dahi nə bəzənmək?!

Bəzm içrə yüzündən götürən dəmdə niqabın,
Qanını ləbin şişəyə dutdı meyi-nabın,
Başına həva gəldi, qədəhlərdə hübabın,
Bitab düşüb saqi, nə mümkün verə tabın,
Yıxdın evini mən kimi yüz xanəxərabın,
Dahi nə bəzənmək?!

Qoyduqda qədəm naz ilə seyr etməgə bağə,
Ruyin güli səhrayə salub, laləni dağə,
Gər bərgi-həna düşsə, əcəb, yax əl-ayağə,
Şayistə degildir vərəq ol al yanağə,
Gündüz günə bənzər, gecə məhtabü çırağə,
Dahi nə bəzənmək?!

Ey qaməti ərər, ləbi qönçə, rüxi lalə,
Göz mərdüməgi məhvi-yüzündə xətü xalə,
Zülfi-siyəhin, mahrüxün dövrünə halə,
Peyvəstə qaşın tənə edər gögdə hilalə,
Kim görsə der: Səlli-əla böylə cəmalə,
Dahi nə bəzənmək?!

Nitqində Məsiha dilər asari-məqalat,
Ol Xızr kimi, abə dəlil rəhi-züləmat,
Səndən aparur feyzi-bədən mürdəyi-mirat,
Bu vəchilə dünyadə nəzirin ola heyhat,
Məhtab kimi məqbulluqun aləmlərə isbat,
Dahi nə bəzənmək?!

* * *

## MÜXƏMMƏSİ-AŞIQ QƏNBƏR BE KƏRBƏLAYİ SƏFİ VALEH TƏXƏLLÜSİ-DƏR VƏQTİ-DƏRDİ-ÇEŞMİ VALEH BETƏRİQİ-HƏZL

Gög daş ilə duz qoy ana, zəg bağla, qurum qat,
Ey Valehi-məşhur.
Zərnixi gögərdi, gəti tez abla isdat,
Civə ilə məqdur.
Nişaduru tənbəkiyə qat, andızı qaynat,
Həm sirkəyi-əngur.



Şura ilə şərab piyaz qədər də bat-bat,
Bir qədər də nil ur.
Bağla gözün nurinə, çəkmə dəxi heyhat,
Qoyma ki ola kur.

Tiryak iki misqal yarım su dikən ilə,
Ayran, qara ot.
Abyəx çırtaqucu anlara tən elə,
Qətran ilə barut.
Mərgümüş əz narın, əlbət həm kətan ilə,
Əzvay ilə isdot.
Malın odını rövğəni-qara tikən ilə,
Mülhəq elə məzbut.
Məcmuini yığ, cəm eylə bir kasədə qaynat,
Qoyma daşa savur.

Qivamə gəlüb qaynasun on yeddi müdava,
Düşür yerə sən həm.
Çəkmə dəxi göz qəmini, xof eyləmə əsla,
Dürüst eylə mərhəm.
Xam bizə yaxub qədəri də pənbə ilə peyda,
Bağla anı möhkəm.
Görməz gözün azar, qiyamət ola bərpa,
Heç gəlməz ana nəm.
Görsə gözin görməgin, aləm qalı həm mat,
Olmaz belə pürnur.

Qəzanı deyəm sübhə nəhar ilə çox ayran,
Nan, cu ilən sən.
Narın şərabın içgilən üstdən iki fincan,
Yaz, nüsxəsin ögrən.
Çaştə yegilən cad qatuq, turp ilə soğan,
Səhhət tapa bədən.

Şamə yegilən balıq qəcuyin və dərağan,
Ey arifi-pürfən.
Ömrün nə qədər var isə böylə keçür ovqat,
Olma dəxi rəncur.

Dünyada dəxi sən yemə ət bal ilə yağı,
Pərhiz elə, pərhiz.
Ənari-şirin, əmrud ilə meyvəyi-bağı,
Nə yaz, nə payız.
Qavun yemə, gər yandıra gözündə çırağı,
Gecən ola gündüz.
Məcmu şirin şey qıla, gər ömrüni baqi,
Ölsən, yemə hərgiz!
Göndərdi könül mürşüdünə bir belə sovqat,
Bir nüsxəyi-məzbur.

Səntək təbibin gözləri azarə düşərmi?
Yazdan bir ay ötmüş.
Bir göz ki qaru olmaya, kor qarə düşərmi?
Azardı bu batmış.
Korluq sana bu vəqtdə biçarə düşərmi?
Sənin ola yetmiş.
Qənbər kimi gözün, aya, pərgarə düşərmi?
Söz yerini dutmuş.
Öz nüsxən olub indi sənin özünə isbat,
Dutsan məni məzur.

* * *

## EYZƏN CAVABİ-VALEH BE QƏNBƏR

Bu təbi-təbabətligi bir kəs bilə, haşa,
Ey Qənbəri-məcnun.
Dərmanlarını görsə qalur məhvi-müqəvva,
Loğman, Fəlatun.



Gözdən və nəzərdən səni hifz eyliyə mövla,
Daneyi-pürəfzun.
Bir sən kimi kəhhal dəxi xəlq etməyüb əsla,
Ol qadiri-biçün.
Qırx yeddi qələm göz dəvasın eyləyə peyda,
Gözdən özi məğbun.

Allaha şükür, gözlərimin yoxdur azarı,
Axmaz pəçəlaqı.
Bir güzgü alub bax gözünə sən, səni tarı!
Kor korca bəlaqı.
Həcvinə görə gözləri kor olmaya barı,
Kar dərdə qulaqı.
Adətdi ki, sağlar kora gülməkdi mədarı,
Verməkdi qınaqı.
Sağ gözlünü gör həcv edübən eylədi rüsva,
Düşdi tazə qanun.

Bir gün gözümüz qarə düşəndə nə gülərsən?
Könlün nə olur şad?
İllər uzunu burnunu bəs niyə silirsən?
Olmuş sana mötad.
Göz ağrısına pərhizi qəzanı bilirsən,
Çün ürküdüb ustad.
Bəs niyə qarumal kimi quya yıxılırsən,
Gər olmasa irşad.
Öz eybinə kor ol, dəxi çox söyləmə bica,
Danışma bu məzmun.

Bircə dəva var, saxlamışam anı nihan mən,
İndi derəm qan.
Şagirdsən əgər məndən eşit anı da ögrən,
Olsun sana dərman.

Çox gözləri də sağ elə korluq aləmindən,
Qıl özünə ehsan.
Gizlüncə deyim çırtaqucun suyunu əzsən,
Doldur iki fincan.
Tök gözlərinə, gözlərin olsun belə bina,
Gəzmə belə məhzun.

Vallah, o zamandan ki, olupdur sana yoldaş,
Ol xoş qədəmindən.
Yuxmadan olub gözləri manəndəyi-xəffaş,
Gərək qaça gündən.
Bizdə genə sağ gözdi, görür qədəri, gedir yaş,
Həqqin kərəmindən.
Sənin başına, ey biçarə, elə düşüb daş,
Dövran sitəmindən,
Görmək sana olmaz dəxi ölüncə mühəyya,
Səd dövr edə gərdun.

* * *

## QƏZƏLİYYAT

### KƏRBƏLAYİ ABDULLA CANIOĞLU BƏD ƏZ MÜRACİƏTİ-VALEH ƏZ ZİYARƏTİ-NƏCƏF QOFTƏ

Ey Səfi şah, Nəcəf kuyi sana məskən ikən,
Niyə ol rövzəni tərk etdün, əgər adəm idün?

Gün kimi olmadı yarın səri-kuyində yerin,
Sən məgər əhli-vəfa bəzminə naməhrəm idün?

Süst rəyin səni məhrumi-vüsal etməz idi,
Rəhi-eşq içrə əgər sabitü müstəhkəm idün?



Qürbi-övladi-Əlidir, səbəb rəhməti-həqq,
Sən ki mənidə məgər cahili-layələm idün?

Kəhfin əshabını tərk etmədi səg bir saət,
Sən ki insan idün, əhməq, məgər itdən kəm idün?

Müstəqim olsa idi eşqilə təbin daim,
Həlqətək dərgahi-mövlada bəsi möhkəm idün?

Dəsti-ixlasilə canan ətəgin dutsa idün,
Şərəfi-rütbədə, sultan, qamu aləm idün?

Qənbəra, vallahi, mən etmə ki, bəs biqəmdir,
Sən dəxi cahil əgər olsaydun, biqəm idün?

* * *

### KƏRBƏLAYİ SƏFİ VALEH TƏXƏLLÜSİ-DƏR CAVABİ-KƏRBƏLAYİ ABDULLA NƏVEŞTƏ

Nə səbəbdən Səfi məhrumdur, heydərdir,
Kim bilür pərdə dolu zişt, ya zibatərdir.

Mən əgər feyzhünər cahiliyəm, lən mana,
Yoxsa lənət sana gəlsün, bu nə böhtan və şərdir?

Səfinin ziddi əzazil əzəl Abdulladır,
Ana baş əgmədi, lənət oxunur, müztərdir.

Ol Əbu Cəhli-rəsulun nəyin əksüldə bilür,
Daima xübsi-nəbi dildə anın əzbərdir.

Neçə kafər də ki peyğəmbərə əbtər dedilər,
Elmi-təhqiqə olar şimdi özi əbtərdir.

Arşına əlli giran and içəni gör ki mana,
Elə söylər ki, görən der, özi peyğəmbərdir.

Könli dəccal dilər, özi vəli Kəbə evin,
Mömin, indi Qələdəsən, burada Qənbərdir.

* * *

## CAVABİ-KƏRBƏLAYİ ABDULLA DƏR ƏVƏZİ-BEYTİ-AXƏRİ-VALEH

Valeh, nə əcəb, zümzümeyi-sövti-xərin var,
Fəxr eylə ki, qanuni-hünərdən xəbərin var.

İncitdi məni acı sözün, tünd məqalın,
Ey nəxli-qəbahət, nə bəla təlxi-bərin var?

Aldatdı, sənin belini basdı Hacızadə,
Soncuqlama bundan belə, zəxmi-kəmərin var.

Qürbalə qoyub, ardını bazarda satdun,
Sövdagər isən, yaxşıca sövdasərin var.

* * *

## VALEH DƏR CAVABİ-KƏRBƏLAYİ ABDULLA

Ey bic, sənin Canıdan özgə pədərin var?
Andan sədəf sinədə pünhan göhərin var?

İncinmədi heç acı sözündən dili-şirin,
Çün nəxli-həram tuşəsən, acı səmərin var.



Atam deyübən, Canıya qəmxar durarsan,
Andan, a xətadidə, sənin nə xəbərin var?

Bir mən kimi şair kişinin n....si sənsən,
Bu şeiri-fəsahətdə ki, bunca hünərin var?

Ağzına yaraşmaz Canının sən kimi oğlan,
Bir sən kimi oğlanda Nuh oğlu qədərin var.

Bir kərrə şəhərdən çölə dəstimə düşərsən,
Üncəq sürürəm, yerdə qalur hər nə dərin var.

* * *

## MÜRƏBBEAT

## MEHDİ BƏG ƏHVALİ-MİRZƏ İBRAHİM RA ƏZ TİFLİS BE RƏHİM BƏG MİNEVİSƏD

İbrahimin halın mətai-əkrəm,
Mərhəmət yolilə alsanız xəbər.
Dolanur bazarda səfil, sərgərdan,
Şimdi sizin içün çəkdürür çəpər.

Adəm idi fəqiri-zamani-mazi,
İki yüz manata olmazdı razi,
Bu yerdə sataşub cənab qazi,
Edübdü uşkoldan anı dərbədər.

Sifətinə görə yoxdu xoş halı,
Xiffətdən lap çallanupdur saqqalı,
Əgər keçsə onun belə əhvalı,
Yəqin bil ki, başın aluban gedər.

Mübtəlayi-həlva mədəyə əsir,
Söhbətləri təvil, qaməti qəsir,
Soruşsan ki, ona nə idi təqsir?
Yazdım necəligin sizə müxtəsər.

Yaxşı degil sözi qırmızı demək,
Qazıya məlumdur, etməzəm hənək,
Fəqirin başını kəsdi şəmtək,
Çırağ söhbətindən var idi kədər.

Çəmən dimağı olupdur ürən,
Yüz hərifin daim cavabın verən,
Hanı o İbrahim, hanı siz görən?
Qan ağlarsız, anı görəsiz əgər.

Gedüpdür bilmərrə gözünün nuri,
Quruyup çöp kimi, olup qup-quri,
Dəgişilüb rəngi, düşüpdür suri,
Saqqalının ardı ağarub yeksər.

Həlva yeyər olsa igirmi bir gün,
Çe faidə anın tökdilər tükün,
Bundan sonra gərək bağlayub yükün,
Axirət tərəfə eyləsün səfər.

Sizin yolunuzda çox çəküb əmək,
Mana lazım degil, şərh edüb demək,
Çalışun işində eyləyün kömək,
Aşnalıq tərzi böylə olur məgər?

* * *



## MİRZƏ FƏTƏLİ BE CƏFƏRQULU XAN QARABAĞİ NƏVEŞTƏ ƏST

Hacı Qulu, səndən, ey taci-sərim,
Ziyadə-ziyadə xürrəm olupdur.
Söz verüpdür sizə Kruzenştern,
Paçotniklik işi möhkəm olupdur.

Dünən güzar etmiş idi bu yanə,
Çox söhbət eylədi Süleyman xanə,
Guya bu müjdədən olup divanə,
Papaqü saqqalı püfnəm olupdur.

Həmişə sizlərdən eylərdi qeybət,
Derdi: Verməzsiz qədrinə qiymət,
Hanı onda indi əvvəlki halət,
Bir əcaib məddah adəm olupdur.

Bundan əqdəm on put qədri həlviyyat,
Mirpəncəyə sizdən olupdur sovqat,
Döşəyəndə Hacı qutuya qat-qat,
Nisfindən artucaq, bil, kəm olupdur.

Dedi: Gərçi, etdim onda bu işi,
İndi dəgişmişəm belə rəvişi,
Bən olmuşam xanə ixlaslu kişi,
Köhnə niyyətlərim bərhəm olupdur.

Pənah xan nəslindən dəxi bir adəm,
Tövbə etdim, allatmayam dəmadəm,
Hacı möhtərəm, ey qibləgahım,
Guya İbrahim Ədhəm olupdur.

Bundan belə olsun sizə bəşarət,
Hacı olub indi əhli-kəramət,
Gərək ola ona hər yerdə hörmət,
Canibi-dövlətdən əkrəm olupdur.

Kruzenşternə sizdən bir namə,
Gərəkdir yazıla, yetə əncamə,
Yəqindir yetürür işin itmamə,
Zəxminə vədəsi mərhəm olupdur.

* * *

## MÜSƏDDƏS BA MÜRƏBBE

## AŞIQ PƏRİ VƏ MİZƏCAN DƏR MÜQABİLİ-YEKDİGƏR BETƏRİQİ-MÜNAZİRƏ

Pəri
Şair isən sən zəmanə, mərdi-meydandan danış,
Əzbər eylə dildə dəftəri-cövhəri-candan danış,
Yeddi yerdir, yeddi gögdür, yeddi əzbərdən sual,
Yeddi mənə, yeddi qüsl, yeddi göhər, həmkəmal,
Yeddi bürcdə, yeddi yılduz, həşt cənnət bimisal,
Yeddi rükət, yeddi iman, yeddi ərkandan danış.

Mirzəcan
Sevmə sən əfsanəni, gəl, ey Pəri, yardan danış,
Neylərəm əqəbi işin, sən kimi dildardan danış,
Yeddi yerdən, yeddi gögdən neylərəm etmək sual,
Tapmışam bir mürşidi, kəsb etmişəm andan kəmal,
Çəkmənəm rizvan qəmin bu dünyada versən macal,
Aşiqə cövr eyləyən yari-sitəmkardan danış.



Pəri
Yek .... Qüdsi-xəlilə müqəddəs ilə mehrasa,
Əqlini təğayür etdi, aldı sərdən kəlisa,
Əzbər eylə hər saatdə zikri-Məryəm, həm İsa,
Gah İncil, gah Cümcüm, gah ərkandan danış.

Mirzəcan
Tapmışam Qüdsi-xəlili, mehrasanı neylərəm?
Əldə təsbih ilə zünnarü əsanı neylərəm?
Bir pəri şeyda qılub, həzrəti Musanı neylərəm?
Sevmənəm Tövrat, Zəburi, sən çalan tardan danış.

Pəri
Tapduğun tərsa yoludur, eyləmə zövqi-həvəs,
Badeyi-gülgunə təhsin etməsün nitqü nəfəs,
Qaidə-qanun budur, qalu bəladən xaçpərəst,
Çağırır İsa-kəlisa, göftügu candan danış.

Mirzəcan
Məndə can yox, eyləmə səy, əbəs bica həvəs,
Mürği-can pərvaz edüb, cism qalub xali qəfəs,
Gəl mana zülm eyləmə, naləm salur dünyayə səs,
Aləmi qərqə verən bu çeşmi-xunbardan danış.

Pəri
Ey Pəri, oldı dili-şeyda rədifül-bal,
Sən təriqətdən ötüb, ürfan yolına qoy zühal,
Yəmdə mahı, gögdə günbəd var, Mərrixü Zühal,
Abheyvan, şaxi-Tuba, bağı-rizvandan danış.

Mirzəcan
Tapalı eşqin yolın, bir belə işi neylərüz?
Əqlimiz heyran olub, dürri-dinü kişi neylərüz?
Gəl edək zövqü səfa, mollavü keşişi neylərüz?
Mirzəcanı öldürən bu ah ilə zardan danış.
* * *

## QEYDLƏR*

1. Nimtənə – qadın gödəkçəsi. səh.4
2. Vali – II İrakli. səh.10
3. Məhəmmədhəsən – İbrahim xanın oğlu. səh.14
4. Ağ sümək – daranmış yun. səh.51
5. Pənci – qocalıb əldən düşən (yumağa dönən) bir Şuşa sakininin adı. səh.51
6. Əmiraslan – adı Qarabağ şairlərinin şeirlərində tez-tez tənqid olunan şəxs. səh.57
7. Yalançı şahidin Əli bəy Fuladovun üzünə durması nəzərdə tutulur. səh.60
8. Şəkərbanu – Qarabağda tanınmış yüngül əxlaqlı qadın.
9. Nuri Tümən oğlu – Kərbəlayi Allahverdi ilə mübahisədə olan Əli bəyin köməkçisi.
10. Kərbəlayi Allahverdi – Təbrizdə anadan olub, ancaq əsli Məməqandandır.
11. Canı oğlu – Qarabağın məşhur şairlərindən biri.
12. Balabəy – Qarabağın məşhur şairlərindən biri.
13. Şinel – Behbud bəyə şər atmaq üçün istifadə olunan əşyayi-dəlil. Deyilənlərə görə həmin şinel Qasım bəy Zakirin kəndində tapılmışdır.
14. II Aleksandr – Rusiya imperatoru. səh.66
15. Daşkəsənli, Quyucuq, Hürülü kəndlərinin sakinləri və Əliallahi mənsəbinə aid olanlar. səh.73
16. Molla Əlinin ölümündən sonra dua oxuyan Cəfərqulu xana cənnət qapısı açıldı.
17. Doyran – Qarabağda kənd. səh.75
18. Mehriban – Qarabağda kənd. səh.76
19. Dəbənganali – Cəfərqulu xan öz xidmətçisi ilə lazımi hallarda başqalarının başa düşməməsi üçün tərsinə danışırdı. "Bəndəgani-ali" sözünü təhrif edərək (qarğa dilində – Ə.M.) "Dəbənganali" kimi deyirdi. səh.79
20. Yekəpər – nəhəng adam. Zakirin Cəfərqulu xana qoyduğu təhqiramiz ayamadır.
21. Yarımsaqqal – Şuşa polis idarəsinin məhəllə nəzarətçisi Əmircanovu belə adlandırırdılar. səh.81.
22. Əhməd xanın qızı Bikə xanımın əri general Həsən bəy Ağalarov nəzərdə tutulur. səh.83
23. İbrahin xanın nəsli.
24. Ləvənd oğlu – Şərəfdə böyük şəhvətpərəst olan Süleyman xanın oğlu.
25. Çatlaq – şəhvətli madyan. Əhməd xanın vəfatından dərhal sonra onun dul qadını Hurican bəyim Süleyman xanla ailə qurmasına işarədir.
26. Süleyman xanın bir çox qadının ölümünə səbəb olan nitqi.
27. İbrahim xanın nəsli güman edilən məşhur Əli bəy.
28. Əziz – Mirzə Fətəli Axundzadə nəzərdə tutulur.
29. Bakı qubernatoru.
30. Behbud bəyin oğlu.
31. Yekən – xalq dilində "pul".
32. O dər – çox məşhur olan Mehdiqulu xanın sarayı.
33. Bərdə – Qarabağın qədim şəhəri.
34. Mehdiqulu xan.

---

* Qeydlərin alman dilindən tərcüməsi Sənubər Hacıyevanındır. Qeydlərin bəzilərinin sonundakı səhifələr kitabın orijinalına işarədir.

## KİTABIN İÇİNDƏKİLƏR

**XARİCDƏ ÇAP OLUNMUŞ İLK ANADİLLİ KİTABIMIZ** ........ 3

**ADOLF BERJE. QAFQAZDA VƏ AZƏRBAYCANDA MƏŞHUR OLAN ŞÜƏRANIN ƏŞARINA MƏCMUƏDİR Kİ, ADOLF BERJE SAHİBCƏNABININ EHTİMAMİLƏ MƏTBU OLUNUPDUR** ........ 21

**ƏŞARİ-ŞÜƏRAİ-AZƏRBAYCAN. ƏŞARİ-VAQİF MÜƏŞŞƏRAT** ........ 24

Ey rəngi-rüxi-alına heyran gülü lalə ........ 24
Bir nimtənə kim, ta ola zərbəftü nikutər ........ 26

**MÜXƏMMƏSAT**

Mən cahan mülkündə mütləq doğru halət görmədim. 29
Vəh, bu bağın nə əcəb sərvi-dilaraları var ........ 31
Valinin çeşmi-çırağı, vəh, nə türfə can imiş ........ 34
Naz ilə ta ol büti-tərsa kəlisadan çıxar ........ 35
Verdi ağa mana bir çuxa ki, min donə dəgər ........ 36
Çün bizim şalvarımız əlavü həm əfzəl gərək ........ 38
Qış güni çünki dönər şol cənnətül-məvayə kürk ........ 39
Dəhrdə oldu mana dildarü dilbər bir tüfəng ........ 40
Nə xoşdur baş qoymaq bir güləndamın qucağında ........ 41
Ey bəni eyləyən aləmdə pərişan, saqqal ........ 42
Neylərəm, böylə munun mən kömüm iqbal içinə ........ 43
Bilmənəm məndən neçün ol sevgili canan küsüb ........ 44
Sən qönçə kimi hər bir edən dəmdə yaşanmaq ........ 45

**MÜRƏBBEAT**

Bir gözəl ki, şirin ola binadan ........ 46
Bir bəyaz gərdənli, mərmər sinəli ........ 47
Ey Vidadi, genə xan qulluğunda ........ 47
İki danə əcəb xosrovşahi ........ 49
Həqdir, gözəl çoxdur cahan içində ........ 50
Bulut zülflü, ay qabaqlı gözəlin ........ 51
Açıqbaşda əgər olsa bir dilbər ........ 52
Anın içün uymaz qeyriyə könlüm ........ 53
Ey Kəbəm, Kərbəlam, Məkkəm, Mədinəm ........ 54
Sevdigim, ləblərin yaquta bənzər ........ 54
Ey şahı xubların, şuxi dilbərin ........ 55
Ey camalı günəş, zülfləri dilkəş ........ 56
Siyəhtel görmədim Kür qırağında ........ 57
Kür qırağının əcəb seyrəngahı var ........ 58
Göz qaldı yollarda, can intizarda ........ 58
Ey siması tərlan, sinəsi tuyqun ........ 59
Genə bayram oldu xublar evində ........ 60
Ey cananım, sən bəzənüb gələndə ........ 60
Yay qaş bucağında, al yanağ üstə ........ 61
Çox zamandır yarın həsrətindəyəm ........ 62
Ay kənarı qabağında qıy kimi ........ 62
Genə məni yanar-yanar odlara ........ 63
Qaynar gözlərindən, şux baxışından ........ 64
Al geyinüb çıxsan gülşən seyrinə ........ 64
Doldı dimağıma zülfün ənbəri ........ 65
Bir əndamı nəsrin, dodağı qönçə ........ 65
Zülfün başı taxtalanub qabağda ........ 66
Badi-səba, bir müjdə ver könlümə ........ 67
Genə səni gördüm, bağrım oxlandı ........ 67
Oğrun baxa-baxa, ey çeşmi-nərgis ........ 68
Bayram oldu, heç bilmirəm neyləyim ........ 69
Bir belə cavanın əqli kəm olsa ........ 70
Duruban eşqilə güzar eylədim ........ 70
Dad əlindən sənin yaman həmsayə ........ 71

**QƏZƏLİYYAT**

Vidadidən gələn kağız məni fərxəndəhal etdi ........ 72
Salmaq nəzərindən məni canana düşərmi? ........ 73

Aydın olsun gözlərim kim, gəldi yarın kağızı ............ 73
Mehribanlıq görməyüb bir məhliqadan küsmüşəm.... 74
Hər gedən gəlmiş, mənim ol qəmküsarım gəlməmiş . 74
Ey Vidadi, gərdişi-dövrani-kəcrəftarə bax! ............... 75
Yarım nə gözəl geyinib, əlvan bəzənüpdür .............. 75
**ƏŞARİ-ZAKIR** .................................................. 77
**MÜXƏMMƏSAT** ................................................ 77
Divanə könül, daxi usan yal ağarupdur .................... 77
Əfsus, günim keçdi şərü şur ilə daim ...................... 79
**QƏSAİD**
Matəmi böylə dutarmış məgər adəm, qazi! ............... 82
Eləyüpdür günəh, mən heç nə bilməm, qazi! ............ 83
Neçələr silsileyi-təbimə təhrik verür ........................ 86
Heyf, səd heyf, bu işi bulmadı əncam genə............... 93
Var özgə vilayətdə də tək-tək köpəkoğlu.................. 94
Ey vəliəhd, sana lütfi-xuda yar olsun! ...................... 97
Səni aləmdə, ey arami-can, hər kim zəlil istər .......... 99
Saqi, dolanım başına, Allahı sevərsən ...................... 101
Tanır məni məcmu Otuz ikivü Cavanşir .................. 102
Gedirsən get, sana fəthilə nüsrət həmrikab olsun ...... 103
Namə yazdım, qıl mana, ey taci-sər, ərzani kürk ...... 105
**QƏZƏLİYYAT**
Diriğa, getdi bir-bir dərdbilənlər, fərd mən qaldım.... 107
Can cilvələnür qaməti-mövzunu görəndə................. 108
**MÜRƏBBEAT**
Gözüm yolda qaldı, könül intizar ............................. 108
Xəbər alsan bu vilanın əhvalını ............................... 112
Piranəsərlikdə çərxi-kəcrəftar................................. 120
Bu əhlidən mehribanlıq görmədim........................... 122
Səndən sonra, ey taci-sər, başıma............................ 124
Eşitdim ki, tazəlikdə satubsan ................................ 127
Ol Kərimi-karsazə sığınub ...................................... 128
Mana buyurmuşdun: Qələyə gəlsün ......................... 131



Vücudi-lətifim, ey taci-sərim ................................. 134
Bəglər, nə layiqdi Xan qulluğuna ............................ 137
Qasım bəg, adətdir Xan qulluğunda .......................... 138
Ey bürci-səltənət, mahi-ənvəri ................................. 139
Sifariş eyləmişəm badi-səbadan ............................... 140
Dost kuyindən bir gələn yox soruşaq ........................ 141
Badi-saba, söylə mənim yarıma ................................ 142
Sevdigim, gələ, gör bahar fəslidi .............................. 143
Qadir Allah bir də səbəb salaydı .............................. 144
Əsib badi-səba, nümayan oldu ................................. 144
Dilbər, tər sinədən götür çarqatı .............................. 145
Sevdigim, bir yerə cəm eyləsələr ............................. 146
Ey yığılan canlar, siz olun tanı ................................ 147
Ey yığılan canlar, minnət eyləyin ............................. 148
Bu dövri-fanidə beş gün kişinin ............................... 149
Qələtdir qocaya növcəvan sevmək ............................ 150
Adətdir xublara başdan, binadan .............................. 153
O viladə bir mehriban görmədim .............................. 154
**MÜSTƏZAD**
Ey gövhəri-pakizəyi-dəryayi-lətafət.......................... 157
Ey dilbəri-birəhmi-sitəmkari-cəfakiş ........................ 158
**DİGƏR MÜƏLLİFLƏRİN ŞEİRLƏRİ** ................. 159
**MÜRƏBBEAT**
Eşitdim naməyi-mehrü məhəbbət .............................. 160
Zakir əmi, tarı nədən ötəri ........................................ 160
**MÜXƏMMƏSAT**
Ağlayun qan, Cavanşir Əmiraslan gəlür .................... 161
Ey şux, rüxün gün kimi əşyayə mücəlla .................... 163
Göğ daş ilə duz qoy ana, zəg bağla, qurum qat ......... 164
Bu təbi-təbabətligi bir kəs bilə, haşa ........................ 166
**QƏZƏLİYYAT**
Ey Səfi şah, Nəcəf kuyi sana məskən ikən ................ 168
Nə səbəbdən Səfi məhrumdur, heydərdir .................. 169

Valeh, nə əcəb, zümzümeyi-sövti-xərin var .............. 170
Ey bic, sənin Canıdan özgə pədərin var? .................. 170
**MÜRƏBBEAT**
İbrahimin halın mətai-əkrəm .................................... 171
Hacı Qulu, səndən, ey taci-sərim .............................. 173
**MÜSƏDDƏS BA MÜRƏBBE**
Şair isən sən zəmanə, mərdi-meydandan danı............ 174
**QEYDLƏR**............................................................ 176



## ADOLF BERJE

# QAFQAZ VƏ AZƏRBAYCANDA MƏŞHUR OLAN ŞÜƏRANIN ƏŞARINA MƏCMUƏ ...

Korrektorları: *Alimə Əliyeva, Mahnur Kərimova*

Kompüter icraçısı: *Kamal Əli*

**«Elm və təhsil» nəşriyyatının direktoru:**
**professor Nadir MƏMMƏDLİ**

Çapa imzalanmış **13.08.2014**
Şərti çap vərəqi **11,5.** Sifariş № **110**
Kağız formatı **84x108 1/16.** Tiraj **150**

Kitab **«Elm və təhsil»** nəşriyyat-poliqrafiya
müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.
**E-mail:** ***nurlan1959@gmail.com***
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.